M.A. Qasımova
O.B. Qasımov

# AĞLA, QƏRƏNFİL, AĞLA...

*BAKI. Fəlakətin gerçək məqamları*

o/z

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 92675

Bakı – 2014

Redaktor: Ə. Ə. Qasımov,
hüquq üzrə fəlsəfə doktoru

Qasımova M.A.
Qasımov O.B.
**AĞLA, QƏRƏNFİL, AĞLA...**

Zamanın, haqqın diktəsi ilə nüfuzlu beynəlxalq təşkilatlar, dünyanın sülhsevər insanları yekdilliklə 1990-cı ilin yanvarında Bakıda törədilən faciəni pisləməkdədirlər.

İllər ötsə də, nə Bakının qanlı yanvar faciəsi - yanvarın 19-dan 20-ə keçən o qanlı gecə, nə də sonrakı günlərdə baş verənlər tanınmış hüquq mütəxəssisi, xüsusilə mühüm işlər üzrə müstəntiq, yazıçı-publisist Oqtay Qasımovu rahat buraxmamışdır. Nə qədər kitablar, məqalələr yazılmışdır! Onun bu yaxınlarda çapdan çıxmış «И мертвые побеждают» adlı sonuncu kitabı da bu mövzuya həsr edilmişdir.

İctimaiyyətdə yaratdığı rezonansı və oxucu marağını nəzərə alaraq, müəllif və həyat yoldaşı, BDU-nun cinayət prosesi kafedrasının baş müəllimi Mədinə xanım Qasımova həmin kitabda analitik təkmilləşmə aparmaqla onu Azərbaycan dilinə çevirərək oxuculara təqdim edirlər.

4702010000 -01
N098 - 2014

© M. A. Qasımova, O. B. Qasımov

## Qara yanvar 1990-cı il...

1990-cı ilin dəhşətli 20 yanvar gecəsindən 24 il keçir. Həmin gün SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Mixail Qorbaçovun qüvvədə olan SSRİ Konstitusiyasına zidd olaraq imzaladığı Fərmana əsasən, ən müasir silahlarla silahlanmış Sovet ordusu və SSRİ-nin daxili qoşunları xalqa əvvəlcədən xəbərdarlıq etmədən, gecəyarısı Bakı şəhərinə soxulmuş və dinc əhaliyə divan tutmuşdular. Əməliyyatın qəflətən keçirilməsi planlaşdırılmış idi. Əhalini xəbərdarlıq etməmək məqsədilə ordunun şəhərə daxil olmasından bir neçə saat əvvəl Azərbaycan Dövlət Televiziyasının enerji bloku partladılmışdı. Bakı şəhərində fövqəladə vəziyyət elan olunması və ordunun şəhərə daxil olması haqqında ilk məlumatı şəhərə yeni təyin olunmuş komendant, general Dubinyak yalnız yanvarın 20-də, səhər saat 7-də radio ilə vermişdi. Həmin vaxta kimi hər şeydən xəbərsiz olan Azərbaycanda artıq yüzdən çox dinc sakin şəhid olmuş, yüzlərlə insan yaralanmışdı.

"Doğma" sovet ordusu Bakı şəhərinə düşmən torpağına soxulan kimi daxil olmuşdu. Bu basqın vaxtı ilə Macarstanda, Çexoslovakiyada, Əfqanstanda keçirilən əməliyyatların təkrarı idi və Hitlerin məşhur "Barbados" planını xatırladırdı: gecə yarısı, qəflətən, xəbərdarlıq edilmədən, rastlaşdığın bütün canlılara atəş açmaq! Xalqa qarşı aparılan qəddar əməliyyat zamanı ordu, qarşısına çıxan bütün maneələri dağıdır, dinc adamları hədəfə çevirirdi. Ordunun əsgərləri insanlara qarşı istifadəsi qadağan olunmuş 5.45 mm kalibrli güllələrdən istifadə edirdilər. Belə güllələr bədənə dəydikdə istiqamətini dəyişir və ya ayrı-ayrı hissələrə parçalanaraq daxili orqanları zədələməklə insanlara əziyyət verir və çox hallarda əzablı ölümə səbəb olurdu. Bakıya daxil olmuş tanklar və zirehli maşınlar, içərisində adamlar olan avtomaşınların üzərinə çıxır, qarşılarına çıxan hər kəsə atəş açmaqla özlərindən sonra qətlə yetirilmiş və yaralanmışlardan ibarət qanlı iz qoyurdular.

Nümayişə çıxanlara qarşı ordu rezin güllələrdən və ya göz yaşardıcı qazdan iştifadə etmək əvəzinə, işgəncəli ölüm saçan güllələrdən istifadə edirdi. Ölənlərin arasında azərbaycanlı, rus, yəhudi, tatar, çeçen, gürcü və digər millətlərdən olan qadınlar, qocalar, uşaqlar var idi.

Təcili yardım maşınının həkimi Z.A.Sultanova 20 yanvar 1990-cı il gecəsini belə şərh edir: *"Çağırışı gözləmədən təcili yardım maşınları atışma daha çox olan yerlərə - Salyan kazarması, XI Qızıl Orduya qoyulmuş xatirə abidəsinin yanına, Kirov parkı tərəfə getməyə tələsirdilər. Yaralılara yaxınlaşmaq mümkün deyildi. Əsgərlər hətta təcili yardım maşınlarını da güllə atəşinə tuturdular.*

*Gecə çox dəhşətli, qanlı gecə idi. Amansız əsgərlər sanki öldürmək üçün proqramlaşdırılmış robot idilər".*

Bakı şəhərinə qoşun yeridilməsi guya zorakılıq yolu ilə qanuni dövlət orqanlarını işdən kənarlaşdırmaq istəyən ekstremist qüvvələrin cəhdlərinin qarşısını almaqla xalqın mənafeyını və təhlükəsizliyini müdafiə etmək idi.

Həmin gün Bakı şəhər komendantı, general-leytenant B.S.Dubinyakın əmri ilə "ictimai asayişi qorumaq, qanuna zidd hərəkətlərin qarşısını almaq, vətəndaşların həyatını mühafizə etmək, idarə və təşkilatların normal işləmələrinə şərait yaratmaq" məqsədilə şəhərdə axşam saat 23-dən səhər saat 6-ya kimi komendant saatı elan edilmişdi.

Həmin əmrlə Bakının on bir rayonunda və "Binə" aeroportunda komendant sahələri yaradılmış və onlara "ictimai asayişi qorumaq"la bağlı, lazım gəldikdə qanun çərçivəsində silah işlətməyə qədər geniş səlahiyyətlər verilmişdi.

Bütün bunlar zahirən insanların mənafeyini qorumağa yönəldilsə də, faktiki olaraq onlar çoxmilyonlu Bakı əhalisinə qarşı yönəldilmisdı və əslində əhaliyə divan tutmaq tədbirləri idi. Beləliklə, Bakıya qoşun yeridilməklə həmin yanvar günlərində silahsız, dinc əhali fəlakətlə üzləşdi: 131 nəfər şəhid oldu, 694 nəfər güllə yarası aldı, 796 nəfər həbs edildi, 171 nəfərin evi dağıdıldı, 96 şəxsi avtomaşın əzildi, 90 dövlət,



ictimai idarə və təşkilat zərər çəkdi. Ümumi ziyan 26.454.667 manat təşkil edirdi.

Çoxsaylı mülki şəxslərin və hərbçilərin ölümü və yaralanması, avtomaşınların, mənzillərin atılan güllələrdən zədələnməsi və başqa bu kimi cinayət faktlarına görə 1990-cı ilin yanvarında başlanmış cinayət işi həmin ilin dekabrında SSRİ Baş hərbi prokurorluğunun istintaq qrupunun rəhbəri, ədliyyə polkovniki Medvedyev tərəfindən hərbçilərin əməllərində cinayət tərkibi olmadığı iddiası ilə xətm edilmişdi.

Qəribədir, hərbçilər tərəfindən 131 nəfər mülki şəxsin öldürülməsi, 694 nəfərin güllə yarası alması, ayrı-ayrı şəxslərə, idarə və təşkilatlara 26 milyon manatdan artıq miqdarda ziyan vurulması faktı olmasına baxmayaraq, ədliyyə polkovniki Medvedyev hansısa "hüquqi tələblərə görə" hərbçilərin hərəkətlərində heç bir cinayət əməli tapmamışdı.

Medvedyev, "hərbçilərin dəstələrinə içərisində yandırıcı maye olan butulkalar tullayan, hərbçilərdən Maleyev, Oleynik, Plyüşay, Kovalyov və başqalarının öldürülməsi ilə nəticələnən, "Haxçıvan" mehmanxanasının damından və Salyan kazarmaları sahəsində yerləşən rus kilsəsindən Sovet ordusu əsgərlərinə odlu silahlardan atəş açan ekstremistlərin də hərəkətlərində cinayət əməli tapmamışdı. Bütün bunlar cinayət işinin nə səviyyədə obyektiv olmasını göstərirdi.

Oxuculara təqdim etdiyimiz bu kitab Azərbaycan Respublikası Ali Sovetinin istintaq komissiyası tərəfindən toplanmış materiallara, yanvar hadisələrindən iki il sonra, 1992-ci ilin mart ayında başlanmış cinayət işi materialları, yanvar hadisələri ilə bilavasitə əlaqələri olan vəzifəli şəxslərin memuar kitabları və kütləvi informasiya vasitələri ilə verilmiş məlumatlar əsasında hazırlanmışdır.

SSRİ Baş hərbi prokurorluğu tərəfindən 1990-cı ilin dekabr ayında xitam olunmuş cinayət işinin ancaq 31 cildi Azərbaycan Respublikası prokurorluğunda saxlanmış, qalan 69 cildi isə dəfələrlə göndərilən sorğulara baxmayaraq, geri qaytarılmamışdır. SSRİ Baş Hərbi prokurorluğu belə hesab etmişdir ki, Azərbaycanın bu qanuni tələbinə cavab verməyə lüzum yox-

dur. Ümumiyyətlə, ittifaq orqanları bütün həqiqətləri aşkarlamağı lazım bilməmişdilər. Bir çox həqiqətlər gizli fəaliyyət göstərən xidmət idarələrində saxlanılmışdır.

1990-cı ilin dəhşətli yanvar hadisələrindən 24 il keçsə də, Sankt-Peterburq Mədəniyyət və İncəsənət Universitetinin professoru, yazıçı-publisist Y.A.Pompeyevin "Qarabağ gündəliyi" kitabı və keçmiş SSRİ Baş prokurorluğunun istintaq idarəsinin rəisi V.İlyuxinin qəzet səhifələrindəki çıxışları müstəsna olmaqla, keçmiş SSRİ məkanında həmin hadisələr haqqında ətraflı və obyektiv yazılara rast gəlməmişik.

Təqdim etdiyimiz kitaba aid materiallar toplanan ərəfədə dünyagörmüş ağsaqqal bir həmsöhbətim faciəli yanvar hadisələri haqqında yazılara münasibətini belə bildirdi:

"...Kütləvi informasiya vasitələri tərəfindən verilən bütün məlumatlara inanmaq lazımdır. Hərbçilərin vətəndaşlara qarşı yönədilmiş aksiyalarda iştirakı Vilnyusda və Tbilisidə, Dubosarı və Pridnestirovidə olduğu kimi Bakıda da təcrübədən keçmişdir, həlak olanların hamısı ekstremistlərin qurbanı olmuşlar. Moskva ətrafından, Tuladan, Rostov və Stavropoldan, Orta Asiya respublikalarından Bakıya gətirilmiş çoxminli ordu demokratik qüvvələrə qarşı hərbi əməliyyatlarda iştirak etmək üçün deyil, xalqın mənafeyini və təhlükəsizliyini qorumaq üçün *səfərbər edilmişlər (Qorbaçovun imzaladığı Fərmanda da belə* şərh verilmişdir).

Necə inanmaq olar ki, Moldaviya, Özbəkistan, Qazaxstan, Gürcüstan, Ermənistan, Azərbaycan, Çeçenstan, İrak, Əfqanstan, Suriya, Misir Ərəb rüspublikasına silah (xüsusən Kalaşnikov avtomatları) satılmamışdır. Necə inanmaq olar ki, nə Qraçov, nə Şapoşnikov, nə Yazov göstərilən bölgələrdə istifadə olunan silahların onların rəhbərlik etdikləri hərbi hissələrdən alınmasını bilmirlər. Məgər onların rəhbərlik etdikləri hərbi hissələrdə silahların hesabatı aparılmırdı? (Satılan silahlar partladılmış silah anbarları hesabına silinirdi). Onlar fransızlarda, inglislərdə, hətta efioplarda nə qədər, hansı silahın olmasını bildikləri halda, özlərindəkilərdən xəbərsizdirlər? Onlar cavan rus oğlanlarının rusa aidiyyəti olmayan bölgələrdə ölümlərindən də xəbərsizdirlər?!"



Ağsaqqal kişinin dediklərinə əlavə olaraq bildirmək istəyirik ki, bu qurumdakı yüksək rütbəli hərbçilərdə heç adi insani mədəniyyət də yoxdur (Oxucu bunu Yazovun istintaqa verdiyi ifadədə görəcəkdir.).

Kitabın yazılmasında çalışmışıq ki, o zamankı ictimai-siyasi mühiti nəzərə almaqla, baş vermiş hadisələrə obyektiv qiymət verək.

## Ermənistan-Azərbaycan münasibətlərinə dair

Ermənistan Respublikası yaradılan gündən onun ərazisini qonşu ölkələr - Azərbaycan, Gürcüstan və Türkiyə hesabına genişləndirmək erməni rəhbərlərinin arzusu olmuşdur. Hər dəfə bu məsələ ermənilər tərəfindən qaldırılanda, onların tələbi yersiz və əsassız olduğundan, rədd edilmişdir. Hələ 1921-ci ilin iyul ayında ÜRK(b)P MK Qafqaz Bürosunda Dağlıq Qarabağ məsələsi müzakirə olunarkən qərara alınmışdır ki, Dağlıq Qarabağ Azərbaycan Respublikası tərkibində qalsın. Plenum bilavasitə Dağlıq Qarabağın Azərbaycan Respublikası tərkibində qalması haqqında qərar çıxarmışdı. Erməni tarixçiləri "Azərbaycan Respublikası tərkibində qalsın" ifadəsi ilə "Azərbaycan Respublikasına verilsin" ifadəsi arasındakı fərqi sanki başa düşməyiblər – Dağlıq Qarabağın guya 1921-ci ildə Azərbaycan Respublikasına verilməsi haqqında hər yerdə hay-küy qaldırırlar.

7 iyul 1923-cü il tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin "Dağlıq Qarabağ muxtar vilayətinin yaradılması" haqqında dekretində Dağlıq Qarabağ öz statusunu tapmışdır. O zaman, "Qarabağ" və "Krunk" komitələri olmayan müddətdə keçirilən referendumun nəticələri haqqında vilayət partiya komitəsinin katibi S.Manuns AK(b)P Mərkəzi Komitəsinə verdiyi məlumatda yazmışdı: "Muxtariyyət haqqında keçirilən referendum aktı zəhmətkeşlər tərəfindən yekdilliklə qarşılanmışdır".

5 may 1924-cü il tarixdə Azərbaycan Kommunist partiyasının altıncı qurultayındakı çıxışında S.M.Kirov milli məsələdən danışarkən Dağlıq Qarabağ məsələsinin həllini "ən böyük və parlaq nailiyyət" kimi qiymətləndirmiş və gələcəkdə bir daha bu sualın ortaya çıxmayacağına inandığını söyləmişdir.

Buna baxmayaraq Ermənistan K(b)P-nın birinci katibi Arutunyan 1945-ci ildə UİK(b)P MK-ə müraciət edərək yenidən bu məsələni qaldırmış və Dağlıq Qarabağda erməni millətindən olan əhalinin çoxluq təşkil etməsini nəzərə alaraq DQMV-nin Ermənistana verilməsini xahiş etmişdir.



Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırov ermənilərin ruslar tərəfindən Dağlıq Qarabağda yerləşdirilməsinin tarixi ilə tanış idi. Arutunyanın məktubu ilə tanış olduqdan sonra M.C.Bağırov ÜİK(b)P MK katibi G.M.Malenkova aşağıdakı məzmunda məktub göndərmişdir: – "Şuşa şəhəri istisna olmaqla Dağlıq Qarabağ Vilayətinin Ermənistana verilməsinə razıyam, bu şərtlə ki, azərbaycanlı əhalinin çoxluq təşkil etdiyi Ermənistanın Sisiyan və Zəngəzur, Gürcüstanın Bolnisi, Qardabani və Marneuli rayonları, habelə Dağıstan Muxtar respublikası Azərbaycana verilsin". Bununla da həmin məsələyə nöqtə qoyulmuşdur.

Sonrakı illərdə Stalin, Xruşşov və Brejnevin hakimiyyəti zamanı erməni millətçiləri bu məsələni qaldırdıqca Siyası Büronun qərarı ilə rədd cavabı alırdılar.

Qonşu dövlətlər hesabına Ermənistanın sahəsini genişləndirməklə "Böyük Ermənistan" yaratmaq ideyası hələ Birinci Pyotrun hakimiyyəti zamanından şarlatan, avantürist, fırıldaqçı erməni siyasətçilərinin arzusu idi.

M.S.Qorbaçov hakimiyyətə gəldikdən sonra erməni millətçiləri onun tamahkar arvadı Raisa Maksimovnaya qiymətli hədiyyələr verməklə, təkrar bu mövzuya qayıdaraq yenidən qonşu xalqlar arasına milli və dini ədavətlər saldılar. "Qorbaçov Stavropolda "Mişka-paket" ləqəbi qazanmışdı. Belə ki, o, simic və tamahkar idi, arvadından isə heç danışmağa dəyməz". (С.Семанов, «Андропов. 7 тайн генсека с Любанки», Москва, 2001, стр.367).

Ölkə rəhbərlərinin mühafizəsini təmin edən SSRİ DTK-nin 9-cu idarəsinin rəisi, general-mayor M.S.Dokuçayev "Москва, Кремль, охрана" kitabında yazir: "Qorbaçov hələ zəngin və iri ərazili Stavropol vilayətində birinci şəxs olduğu zaman ağalıq etmək səriştəsi ilə fərqlənirdi. O, tez-tez dövlət rəhbərləri üçün Şimali Qafqazda tikilmiş xüsusi evlərə gedərək içgi məclisləri təşkil edirdi. Moskvaya köçdükdən sonra ali hakimiyyət ləzzətini dadan Qorbaçov acgözlüyünü və tamahkarlığını tam büruzə verdi. O, artıq dövlət hesabına özünə dənizkənarı

bağların, şəhərdə isə xüsusi evlərin və mənzillərin tikintisinə başladı."(səh.224).

Ermənilərin kimliyinə aydınlıq gətirmək üçün oxuculara məşhur rus tarixçisi V.L.Veliçkonun 1904-cü ildə Sankt-Peterburqda nəşr olunmuş "Qafqaz" kitabından bir-neçə iqtibas təqdim edirik:

*"Ermənilər haqqında tarixən pis fikir yaranmışdır. Bu da heç əsassız deyildir, belə ki, bir xalq haqqında ayrı-ayrı vaxtlarda eyni pis fikir yarana bilməz."*

*"Əsl, xalis erməni dovşandan da qorxur".*

*"Ermənilər yəhudilərə oxşatmalarını istəmirlər. Onlar vəkillərinə tapşırmışlar ki, imkan daxilində, hər yerdə ermənilərin ali irqə mənsubiyyətləri haqqında geniş danışsınlar. Gürcülərin atalar sözy var: "Nökərə əmr versən o, palıd agacında yetişməsini təsdiq edər".*

*"Erməni neft sahibkarları xüsusi Ermənistan tarixi yaratmağa çox canfəşanlıq göstərirlər. Onlar özlərinin təsadüfi generallarını və heç də təsadüfi olmayan qaçaqmalçılarını ucaltmağa çalışırlar. Onlar özlərinin tarixi xidmətlərini və bu günün yaxşı cəhətlərini parazitik formada nümayiş etdirməkdən çəkinmirlər".*

*"Tərəfkeşliyi olmayan, əxlaqı təmiz və humanist, Romanın düşməni sayılan almanları tərifləməyi bacaran Tatsid ermənilər haqqında belə deyir: - Ermənilər tarixi xarakterinə və cografi mövqeyinə görə ikiüzlü olmuşlar."*

Puşkin qoca dağlının dilindən deyirdi: -*"Sən qorxaq, sən qul, sən ermənisən!".*

Gürcü xalqı deyir: - *"Erməni gəldi, bəla gəldi".*

Gürcü zadəganlarının erməni alverçiləri tərəfindən sıxışdırılmasilə bağlı gürcülərdə belə bir atalar sözü formalaşmışdır: *"Cins atlar ölüb, eşşəklərə firavanlıq yaranmışdır".*

Cənubi Qafqaz tatarları (azərbaycanlılar - red.) deyirlər: *"Ermənimin yolunu işıqlandırmaq üçün on barmağının onunu da şam kimi yandırsan, sənə "sag ol" deməzlər".*

*"Rus xalqı erməniləri həmişə lağa qoymuş və alçaltmışdır. Humanist şair Nekrasov yazırdı:*



*Hirslənib nişanlısına etiraz edən*
*Soruşmamış erməni ilə nişanlandı.*

Humanist Jemçujnikov oxuyur (Kozma Prutkovda):

*Ensiz çarpayıda tənha uzanmışam,*
*Qonşu palatada erməni qışqırır.*

Oxucu maraqlana bilər: nə üçün V.L.Veliçkonun kitabından bu qədər çıxarışa yol verilmişdir? Fikirləşirdik ki, bəlkə bu kitab gələcəkdə Qorbaçovun əlinə düşər və o, Veliçkonun və ermənilərin həyatından yazan başqa alimlərin əsərləri ilə tanış olar, Qarabağ məsələsində buraxdığı səhvləri (əgər onlar yalnız səhv idilərsə) başa düşər.

Moskvada Qorbaçovun ətrafında olan məsləhətçiləri və müşavirləri – Primakov, Şahnəzərov, Aqanbekyan, Sitaryan, Xaçaturov, Staravoytova, Çernyayev kimiləri milli və dini zəmində yaradıla biləcək münaqişə mənbələrini müəyyən edib ağalarını da həmin münaqişələrə cəlb edirdilər. Bununla da onlar birinci sıraya "1915-ci il erməni soyqrımı"nı ortaya atmaqla qonşu dövlətlərin, xüsusən Dağlıq Qarabağın hesabına Ermənistanın ərazisini genişləndirmək məqsədi güdürdülər.

Mövzuya aydınlıq gətirmək üçün keçmiş SSRİ DTK sədrinin birinci müavini, ordu generalı F.D.Bobkovun "КГБ и власть" kitabından bir çıxarışı nəzərinizə çatdıraq:

"Ölkədə yenidənqurma prosesi başlananda güman edirdim ki, hansı isə dəyişikliklər olacaqdır. Ekstremist əhval-ruhiyyəli elementlər milli zəmin üzərində yenidən baş qaldırdılar. Ermənistanda "Qarabağ" komitəsi yaradıldı və Yerevanın mərkəzi meydanında milyon nəfərin iştirakı ilə Dağlıq Qarabağın Ermənistanla birləşməsi tələbi ilə mitinq keçirildi.

Zaqafqaziyanın iki respublikasında vəziyyət gərginləşirdi: Yerevanda Azərbaycana qarşı çoxsaylı mitinqlər və yığıncaqlar keçirilirdi, Dağlıq Qarabağda ekstremist əhval-ruhiyyə artırdı, Azərbaycanda isə partlayış gözlənirdi – xalq Azər-

baycanın mənafeyini müdafiə etməyə hazır idi. Bir qığılcım kifayət idi. Belə yanğın Sumqayıtda baş verdi.

Azərbaycanın digər şəhər və rayonlarında əhalinin ehtirasını yatırdıb onların küçələrə çıxmalarının qarşısını almaq mümkün idisə, Sumqayıtda bunu etmək mümkün olmadı. Beş minə qədər əhali Sumqayıt şəhər partiya komitəsinin qarşısında toplanmışdı. Gərginlik artırdı. Ermənistanın Qafan rayonundan qaçqın düşmüş azərbaycanlıların ermənilər tərəfindən ağlagəlməz işgəncələrə məruz qalmalarından, Silviya Kaputikyanın Moskvada Qorbaçovla görüşməsindən, ölkə başçısının Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsinə razılıq verməsindən və Baş hərbi prokuror A.N.Katusevin Ermənistanla sərhəddə iki nəfərin öldürülməsi və ölənlərin arasında erməni millətindən şəxslərin olmaması haqqında məlumatı gərginliyi kulminasiya halına çatdırdı.

Katusevin məlumatı ölənlərin arasında ermənilərin olmaması, ölənlərin azərbaycanlı olmaları kimi qəbul olundu. Qəzəblənmiş kütlə ermənilər yaşayan məhəllələrə tərəf yürüşə başladı.

Bu kimi mübahisəli hallarda təqsirkarı və təqsiri olmayanı aydınlaşdırmaq çətindir. Lakin, 22 fevral 1988-ci il tarixdə Əsgəran rayonunda, üzümlükdə azyaşlı oğlan uşağının və bir nəfər kəndlinin erməni atıcısına şübhəli gəlməsinə görə öldürülməsi fakt olaraq qalır.

Talançılar arasında erməni millətindən olan Qriqoryan familiyalı şəxsin olması və onun doqquz nəfər erməninin öldürülməsində iştirak etməsi də fakt olaraq qalır. Bundan əlavə, Sumqayıt hadisələri baş verməmişdən bir neçə gün əvvəl ermənilərin əmanət kassalarından əmanətlərinin çıxarılması, hadisə günü Sumqayıtda çoxlu sayda çağırılmamış xarici müxbirlərin olması, onların heç birinin Azərbaycanda Ermənistandan qovulmuş minlərlə qaçqının olması haqqında yazmamaları, azərbaycanlıları qatil kimi göstərmələri də fakt olaraq qalır.



Yuxarıda göstərdiyimiz kimi, Qorbaçovun ətrafında olan vəzifəli şəxslər ermənilər qarşısındakı çıxışlarında Dağlıq Qarabağ məsələsini daha da qızışdırırdılar.

Qorbaçovun iqtisadiyyat üzrə müşaviri Aqanbekyan Parisdə olarkən erməni millətindən olanların qarşısında çıxış edərkən elan etmişdi ki, Qorbaçov yaxın günlərdə Dağlıq Qarabağ məsələsini ermənilərin xeyrinə həll edəcək və Dağlıq Qarabağ Azərbaycandan ayrılaraq Ermənistana veriləcəkdır. Aqanbekyanı Fransada Sov.İKP MK baş katibi Qorbaçovun fikirlərinin ifadəçisi kimi qəbul edirdilər.

Qorbaçovun köməkçisi A.S.Çernyayev "Шесть лет с Горбачовым" kitabında yazır: "Qarabağ məsələsini tarazlaşdırmaq üçün ona daha da şüurlu yanaşmaq olardımı? Sayıram ki, olardı. Bunun üçün hələ 1986-cı ildə Qarabağ böhranı baş verənə kimi, Azərbaycanda millətçilik qanı qızışmamış və təşkilat forması almamış Qarabağı Ermənistanla birləşdirmək lazım idi. Bundan sonra iki müstəqil dövlət öz aralarında mübahisəni həll edərdilər. Qarabağı Ermənistana verməklə Azərbaycanda yaşayan yarım milyon erməni millətindən olan əhalinin aqibəti Qorbaçovu narahat edirdi. Onları nə gözləyir? Nə gözlənirdisə baş verdi. Lakin proses ağır və uzun çəkdi."

Belə bir fikir ancaq ağılsızın başına gələ bilərdi.

Çernyayevin yazdığından görünür ki, Qorbaçovun özü də Qarabağ məsələsində köməkçisindən geri qalmırdı. O, da köməkçisi kimi fikirləşir, Qarabağ məsələsinin həllini köməkçisi kimi dərk edirdi. Onu daha çox Azərbaycanda yaşayan ermənilərin aqibəti maraqlandırırdı.

"1988-ci ilin iyun ayında Leninqrad sosial-iqtisadi problemlər institutunda keçirilən seminarda çıxış edən Q.Starovoytova Dağlıq Qarabağda vəziyyəti gərginləşdirməklə milli əlaqələrin qırılması işində açıq olaraq Ermənistanı poliqon adlandırmışdı. Starovoytovanın fikrincə, Azərbaycanda və Dagliq Qarabağda vəziyyəti gərginləşdirdikcə, islam fundamentalizminin inkişafının qarşısının alınmasında əlverişli zəmin olan Orta Asiya respublikalarında da gərginliyi artırmaq mümkündür. Starovoytova

həmin seminardakı çıxışında bildirmişdir ki, Dağlıq Qarabağda gərginliyin artırılacağından iki il əvvəlcədən xəbərdar idi. Onun fikrincə ermənilərin azərbaycanlılar üzərində qələbəsi Lenin-Stalin milli siyasətinin qələbəsi idi." (В.Крючков, «Личное дело», 1996. Səh.44.)

"Qarabağ" və "Krunq" komitələrinin təzyiqi altında 1987-ci ildə Daqlıg Qarabağın" Ermənistanla bırləşməsi haqqında 75 min imza toplanıb Qorbaçova göndərilir. Lakin Qorbaçov ermənilərin ərizəsinə cavab vermir. Ermənilər Qorbaçovun bu hərəkətini razılıq kimi qəbul etmışdilər.

Keçmiş SSRİ-nin Nazirlər Komitəsinin sədri N.Rıjkov "Перестройка и история предательств" kitabında həmin fikri təsdiqləyir: "Qorbaçovun ermənilərin məktubuna cavab verməməsini, onun susmasını ermənilər razılıq kimi qəbul etdilər və bundan sonra, 1988-ci ilin fevralında mitinqlər və nümayişlər başlandı."

Heç təsadüfi deyildir ki, islam dinini düşmən və qorxulu sayan, müsəlmanları qəddar və xain adlandıran İ.Belyayevin "İslam" məqaləsi heç kəs tərəfindən pislənilmədi, mühakimə olunmadı. Hitlerin "Majn kampf" ("Mənim mübarizəm") kitabını xatırladan Balayanın "Ocaq" kitabı çoxminli tirajla rus dilində nəşr olundu.

Hitler hələ ötən əsrin otuzuncu illərində "Majn kampf" kitabında yazırdı: - "Bir qandan olanlar - bir dövlətdə birləşməlidir! Nə qədər ki, alman xalqı bütün oğullarını bir dövlət çərçivəsində birləşdirməyib müstəmləkəçiliklə torpaqlarını genişləndirməyə mənəvi haqqı yoxdur. Axırıncı alman öz dövləti çərçivəsində birləşdikdən və belə bir Almaniyanın öz oğullarını yetişdirmək imkanı olmadıqda başqa torpaqların zəbt olunmasında mənəvi hüquq qazanır. Belə bir vəziyyətdə qılınc kötan rolunu oynamalı, torpaqlar müharibənin qanlı göz yaşları ilə suvarılmalı, gələcək nəsillərin yaşayış tələbatı təmin olunmalıdır." (cəh.8)

Eyni fikri Z.Balayan "Ocaq" kitabında söyləyir. O da erməni yaşayan torpaqları, torpaqların hansı ölkəyə mənsub olmasından asılı olmayaraq, bütün ermənilərin birləşib Türkiyə, Azərbaycan, Gürcüstan torpaqları hesabına "dənizdən-dənizə" "Böyük Ermənistan" dövləti yaratması fikrini irəli sürür.



Erməni millətindən olan əhalinin Dağlıq Qarabağda yerləşdirilməsi Şimali Azərbaycanın Rusiya ilə birləşməsindən sonra, 1813-1828-ci illərdə başlanmasına baxmayaraq, Balayan yerli azərbaycanlıları gəlmə xalq kimi, köçəri göstərmişdir. Onun yazdığı kimi Qarabağ xanlığında ermənilərin sayı heç də 90% deyildi.

Redaksiya heyətində erməni millətindən alim olan demoqrafik ensiklopediyadakı məlumata görə 1826-1829-cu illərdə Türkiyədən və İrandan Qarabağa 130 min erməni köçürülmüşdür. 1823-cy ildə ruslar tərəfindən tərtib edilmiş "Qarabağ əyalətinin təsviri" kitabında göstərilirdi ki, "Qarabağ xanlığında 600 kənd və bir şəhər olmaqla 90 min əhali vardır. Kəndlərin 150-də ermənilər yaşayırlar. Şuşa çəhərində 1948 azərbaycanlı və 474 erməni ailəsi yaşayır. Kəndlərdə müvafiq olaraq 12.902 azərbaycanlı, 4331 erməni ailəsi vardır."

Rusiyanın İrandakı səfiri Qriboyedov 11-13 sentyabr 1819-cu ildə rusların İrandakı vəkili S.İ.Mazureviçə yazırdi: "Nə cür əclaf, alçaq cinsdır bu ermənilər? Məni heç tanımaq istəmirlər, lakin hər dəfə qulağıma pıçıldayırlar ki, biz onların himayədarlarıyıq. Bununla belə, imkan düşən kimi, bizi onları təpikləyən iranlılara satırlar."

Buna baxmayaraq, Qriboyedov Qafqazda xristian dövləti yaratmaq məqsədilə ermənilərin Dağlıq Qarabağa köçürülməsində böyük rol oynamışdır.

Balayan hətta bandit, başkəsən, qulağı kəsik Andraniki də xalq-azadlıq hərəkatının başçısı, sərkərdə kimi qələmə vermişdir.

Balayanın fikrincə, Hitler Avropanı zəbt edəndə onun kimsə tərəfindən mühakimə olunacağına inanırdılar. Halbuki, Osmanlı imperiyası tərəfindən ermənilərin soyqırımı hələ yaddan çıxmamışdı. Balayan üçün 1905 və 1918 illərdə azərbaycanlıların ermənilər tərəfindən kütləvi qırılması, çoxsaylı terror aktları nəticəsində saysız-hesabsız azərbaycanlıların və türklərin qətlə yetirilməsi azlıq edirmiş kimi yeni qırğınlara can

atırdı. Azərbaycanlıları qırmaq və yaşadıqları məkandan didərgin salmaqla Ermənistanin ərazisini genişləndirməyə çağırırdı.

1918-ci ildə Azərbaycan, Gürcüstan və Ermənistan respublukaları yaradılandan sonra da Dağlıq Qarabağ Ermənistanın tərkibində olmamışdır.

Qonşu ölkələr hesabına, o cümlədən Dağlıq Qarabağ hesabına Ermənistanın ərazisini genişləndirmək məsələsi ilə əlaqədar Mikoyanın bir neçə dəfə səyinə hər dəfə rədd cavabı verilmişdir.

Xruşşovun hakimiyyəti zamanı Mikoyan ermənilərin Dağlıq Qarabağın Ermənistanla birləşmək "arzularını" ona çatdırmışdı. Xruşşovun Mikoyana cavabı belə olmuşdu: – "Əgər həqiqətən Qarabağ erməniləri Ermənistanla birləşmək arzusundadırlarsa, onlara bir gecədə 12 min hərbi yük maşını ayıra bilərəm." Bununla da Mikoyanın xahişi rədd edilmişdir.

Y.Pompeyev "Qarabağ gündəliyində" yazır ki, "Qorbaçov belə bir suala cavab verməyə hazır deyildi." Pompeyevlə razılaşmaq olmaz. Qorbaçov da erməni nümayəndələrinə Xruşşov kimi cavab verə bilərdi, əgər o, az da olsa Qarabağ tarixi ilə tanış olmuş olsaydı. Qorbaçovun, arvadı Raisa Maksimovnadan fərqli olaraq mütaliə etməkdən xoşu gəlmirdi, nəinki Qarabağ, heç Rusiyanın tarixi ilə tanış deyildi. Qorbaçov bilicilərin on xallı müsabiqəsində siyasətçi, iqtisadçı və tarixçi kimi 0 xal qazandığı halda, boşboğaz kimi 10 xal qazanmışdı. Qorbaçov boşboğaz idi.

Qorbaçov yazırdı ki, Şahnəzərovun xahişi və onun iştirakı ilə şairə Silva Kaputikyanı və jurnalist Zoriy Balayanı Kremldə qəbul edib Qarabağ məsələsi ətrafında xeyli söhbət aparmışdılar. Nə üçün məhz Şahnəzərovun iştirakı ilə, məgər Kremldə rus milliyyətindən olan obyektiv bir şəxs tapılmırdımı?

Şahnəzərov Qorbaçovun köməkçisi vəzifəsinə 18 fevral 1988-ci il tarixdə təyin edilmişdir. Həmin gün Kaputikyan və Balayan onun qəbuluna düşmüşdülər. Şahnəzərov dərhal Kaputikyanla Balayanın xahişini Qorbaçova çatdırır və ölkə başçısı onları qəbul edir. Qorbaçovda görünməyən operativlikdir. Dövlət işlərində o heç vaxt belə operativlik göstərməmişdir.



Qorbaçov xatirələrində yazır ki, Kaputikyana və Balayana Qarabağ tarixi haqqında ətraflı danışmalarına imkan yaratdım. Onlar da mövzu ilə bağlı ətraflı danışdıqca toplanmış sənədləri, xəritələri və tarixi arayışları təqdim etdilər. Bundan sonra Kaputikyan və Balayan Qarabağda azərbaycanlılar tərəfindən ermənilərin sıxışdırılması, qədim erməni abidələrinin dağıdılması, ermənilərin Ermənistandan tədric edilməsi haqqında ona ətraflı məlumat vermişlər. Əsas söhbət ermənilərin sıxışdırılıb vilayətdən çıxarılmasından gedirdi. Bütün bu danışıqlardan sonra Qorbaçova məlum olmuşdur ki, DQMV-də İslam xristianları sıxışdırır.

Ermənistan nümayəndələri "ətraflı topladıqları sənədlərlə" Qorbaçovu demək olar ki, aldatmışdılar. Qorbaçov ermənilərlə danışıqlardan sonra Şahnəzərovu Qarabağ knyazları nəslindən saymışdır. Yazıq bilmirdi ki, Rusiyada şahlıq və ya əmirlik olmadığı kimi, Qarabağda da knyazlıq olmamışdır. Qarabağda xanlıqlar və bəyliklər olmuşdur. Şahnəzərov isə nə xan, nə də bəy nəslindən olmamışdır. İki institut bitirmiş Qorbaçovun, ermənilərin Qarabağa gəlmə olmasını bilməməsi də şübhə dogurur.

Daha sonra Qorbaçov yazır: - "Həmsöhbətlərimi başa salmaq istədim ki, konfliktin nəticəsi ermənilər üçün acınacaqlı ola bilər – Azərbaycanda yaşayan yarım milyon erməni və Ermənistanda yaşayan 200 min azərbaycanlı yaşayış yerlərindən qovular.

Burada Qorbaçovdan soruşmaq yerinə düşərdi: "Hanı bəs xristianlığın islam tərəfindən sıxışdırılması, bir halda ki, xristian ölkəsi olan Ermənistanda 200 min müsəlman yaşadığı halda, islam ölkəsi – Azərbaycanda 500 min erməni yaşayır?"

Arayış üçün: Azərbaycanda bu gün də 30 mindən artıq erməni yaşadığı halda, Ermənistanda bir nəfər də olsa azərbaycanlı yoxdur.

Qarabağ mübahisəsinin həlli ilə bağlı Qorbaçovun Azərbaycan nümayəndələrini dəvət etməməsi məsələni ancaq

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
92675

ermənilərlə müzakirə etməsi təəccüb və şübhə doğurur. Azərbaycanlıların iştirakını təmin etmiş olsaydı, ermənilərin Qarabağın uydurma xəritələrindən və başqa saxta sənədlərdən istifadəsinin qarşısı alına bilərdi.

F.D.Bobkov "КГБ и власть" kitabında yazır: - "Kimə lazım dli bu görüşlər? Bəlkə rəhbərlik ziyalıların nüfuzundan istifadə edib yaranmış düyünü açmaq istəyirdi? Onda, nə üçün və kimə lazım idi ermənilərə olan rəğbəti nümayiş etdirmək." (səh.296).

Qarabağ münaqişəsini Qorbaçov "yenidənqurmaya arxadan vurulmuş zərbə" adlandırmışdır. Nikolay Rıjkov "Перестройка: история предательств" kitabında Qorbaçova cavab olaraq yazır: "dövlətin kürəyinə Qorbaçov özü bıçaq soxmuşdur".

Qarabağ münaqişəsinə aydınlıq gətirmək üçün Qorbaçov Kaputikyan və Balayanla bərabər Azərbaycan nümayəndələrini də, heç olmasa Dağlıq Qarabağ Vilayət partiya komitəsinin birinci katibi Boris Gevorkovu görüşə dəvət etməli idi.

B.Gevorkov aydınlaşdırardı ki, son bir neçə ildə Dağlıq Qarabağda sənaye 3. kənd təsərrüfatı 1,5 dəfə artmış, adam başına düşən məktəb obyektləri, ticarət və ictimai xidmət, məktəb yaşına çatmamış uşaqlar üçün müəssisələr, mədəniyyət ocaqları və başqa sosial inkişaf Azərbaycan, Ermənistan və ümumən Zaqafqaziyadakı göstəricilərdən artıq idi. Bütün bunları B.Qevorkov istintaq zamanı dindirilərkən ifadəsində göstərmişdir. Ona görə də Dağlıq Qarabağın Azərbaycandan ayrılması üçün heç bir əsas yox idi.

Öz hərəkətlərinə, daha doğrusu, hərəkətsizliyinə bəraət qazanmaq üçün Qorbaçov Dağlıq Qarabağda yaranmış gərginliyi Heydər Əliyevin düzgün olmayan beynəlmiləl siyasəti ilə bağlamağa çalışmışdır.

Soruşula bilər: Nə üçün Qorbaçov özü düzgün beynəlmiləl siyasət aparmadı? Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana verilməsi haqqında 75 min ermənin sərsəm məktubuna nə üçün cavab verilmədi? Nə üçün belə prinsipial məsələnin həllində Azərbaycan tərəfinin fikri ilə maraqlanmadı? Nə üçün məsələyə aydınlıq gətirmək və mübahisəyə



düzgün cavab tapmaq üçün redaksiya heyətində bir neçə nəfər erməni alimi olan ensiklopediyanı vərəqləmədi? Doğrudanmı Qarabağ faciəsinin səbəbkarı Heydər Əliyevdir? Bəs Oşda, Vilnusda, Tbilisidə, Tiraspolda, Çeçenistanda tökülən günahsız qanın məsuliyyətini kim daşımalıdır?

Bu və digər suallara Heydər Əliyev Sov.İKP MK-nin 1989-cu il aprel plenumunda ətraflı cavab vermişdi:

- Mən Azərbaycandan 1982-ci ildə getmişəm. Dağlıq Qarabağda hadisələr isə 1988-ci ildə başlanmışdır. Azərbaycanda işlədiyim müddətdə Dağlıq Qarabağda şərait normal idi. Millətlərarası münasibətdə heç bir neqativ nal olmamışdır. Hər dəfə Dağlıq Qarabağa gedəndə xoş münasibətlərlə qarşılaşırdım, qarşımda heç bir vaxt bu xarakterli məsələlər qaldırılmamışdır. Azərbaycan KP MK-nın birinci katibi işlədiyim müddətdə Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistana verilməsi haqqında bir dənə də olsa məktub daxil olmamışdır.

Rusiyanın Dövlət Dumasının deputatı V.İ.İlyuxinin köməkçisi Aleksandr Volkov "Охотник за президентами" kitabında yazır: "20 il əvvəl, İlyuxin SSRİ Prokurorluğunun Azərbaycan, Gürcüstan və Ermənistanda aparılan istintaq briqadasına rəhbərlik etdiyi vaxt Qorbaçovun milli məsələdə tərəfkeşli, fitnəkar siyasəti nəticəsində bir sıra Sovet respublikalarında nahaq qan tökülməsi faktı ilə rastlaşmışdı. Viktor İvanoviçin qarşısında heç də sadə olmayan vəzifə durmuşdu: vətəndaş müharibəsinə gətirib çıxaran mənasız qardaş qırğınının qarşısını almaq və səbəbkarları məsuliyyətə cəlb etməklə zərərsizləşdirmək. Cinayət işi üzrə gəldiyi qərarla bir çoxları razı olmadılar. Hadisədən 20 il keçməsinə baxmayaraq, bu gün də onun qərarı ilə razılaşmayan vardır və İlyuxinin ölümünə kimi onun Qarabağ münaqişəsinə və Sumqayıt hadisələrinə verdiyi qiymətə görə hədələyirdilər."

A.Volkov daha sonra yazır: "Viktor İvanoviç otuz ildən artıqdır ki, damarlarında erməni qanı axan Nadejda Nikolayevna ilə evlidir. Buna baxmayaraq o, heç vaxt insanları milliyyətinə görə ayırmamışdır. Ermənilərə xüsusi rəğbəti olsa da, həqiqəti üstün tuturdu."

Viktor İvanoviç İlyuxin 2010-cu ilin sentyabrında Vesti.az agentliyinin: "Siz, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaradılmış xüsusi istintaq qrupuna rəhbərlik etmişsiniz. İstintaqın nəticəsi haqqında nə deyə bilərsiniz?" sualına belə cavab vermişdir:

- Qarabağ hadisələri ilə bağlı istintaq işi üzrə iki qrup yaradılmışdı. Daha doğrusu, bir qrup iki hissəyə bölünmüşdü. "Qərargah" Bakıda yerləşirdi və ona, SSRİ Baş Prokurorluğunun istintaq idarəsi rəisinin müavini kimi mən rəhbərlik edirdim. Yerevanda yerləşən ikinci qrupa SSRİ Baş prokurorluğunun istintaq idarəsi rəisinin başqa müavini Vladimir Akeksandrovic Titov başçılıq edirdi.

Prokurorluğun və milisin yüzlərlə müstəntiq və əməliyyat işçisi cəmləşdiyi bizim qrup ümumilikdə bütün hadisələrin istintaqı ilə məşqul idi. Biz Ermənistanda "Qarabağ" komitəsinin, başda Levon Ter- Petrosyan olmaqla bütün üzvlərini – 12 nəfəri həbs etmişdik. Bakıda isə Məhəmməd Hatəmini və Nemət Pənahovu həbs etmişdik. Qarabağda separatçı hərəkatın başçısı, Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsi ilə əlaqədar kütləvi mitinqlər təşkil edən İqor Muradyan da həbs olunmuşdu.

İstintaq materiallarını tamamlayıb məhkəməyə göndərmək ərəfəsində komanda verildi ki, "Qarabağ" komitəsi üzrə materiallar yerli müstəntiqlərə - ermənilərə, Bakıda da həbs olunmuşlar haqqında olan materiallar Azərbaycan müstəntiqlərinə verilsin. Azərbaycan prokurorluğu ermənilərdən fərqli olaraq prinsipal hərəkət etdi, qanun keşiyində durdu. Cinayət işlərinin bir hissəsi baxılması üçün məhkəməyə göndərildi. Həmin işlər üzrə müvafiq qərarlar çıxarıldı.

Mən qəti olaraq cinayət işlərinin yerli müstəntiqlərə verilməsinə qarşı çıxdım və öz etirazımı SSRİ Baş prokuroru Suxarevə bildirdim. Cinayət işlərində müqəssirlərin məhkəmə məsuliyyətinə verilməsi üçün kifayət qədər sübutlar və əsaslar var idi. Suxarev mənimlə razılaşdı, lakin bildirdi ki, tapşırıq Kremldən verilmişdir. O, mənə dedi: "Sən özün başa düşmürsən ki, tapşırıq Qorbaçovun əmridir?"



Sumqayıt hadisələrinə münasibətini bildirən İlyuxin deyirdi: "Sümqayıtda hadisələri ermənilər özləri törətmişlər". Viktor İvanoviç Qorbaçovdan fərqli olaraq başa düşürdü ki, Ermənistandan böyük miqdarda azərbaycanlı ev-eşiyindən didərgin düşmüşdür. Onları hədsiz qəddarlıqla öz evlərindən çıxarmış, sənədlərini və ev əşyalarını belə götürməyə imkan verməmişlər. Həmin qaçqınlar ayaqyalın, başaçıq qarlı aşırımlardan keçərək yeganə güman yerləri olan vətənlərinə - Azərbaycana gəlmişlər. Onların çoxu Sumqayıtda məskunlaşmışdı.

"Erməni ailələrinin talan edilməsi kimə lazım idi?" - sualına V.İ.İlyuxin belə cavab verir:

- Hər şeydən əvvəl bu Ermənistana, Ter-Petrosyana oxşar onun avantyurist rəhbərlərinə lazım idi. Onlar Qarabağ məsələsinin həllində "Sumqayıt kartını" açdılar. Bununla onlar azərbaycanlılar tərəfindən sıxışdırıldıqlarını göstərmək istəyirdilər. Faktiki olaraq ermənilər böyük faciə üzərində böyük tamaşa yaratdılar.

İlyuxinin fikrini tamamlamaq üçün Sumqayıt hadisələrində erməni millətindən olan ailələrin talan edilməsində və bir neçə nəfərin öldürülməsində liderlik edən erməni Qriqoryanın hərəkətini və onun şəxsən doqquz nəfər erməninin öldürülməsində iştirakını göstərmək kifayətdir. Qriqoryanın erməni millətindən olan Sumqayıt əhalisinin öldürülməsində iştirakı cinayət işlərinin materialları ilə tam sübuta yetirilmişdir.

Bundan əlavə, azərbaycanlıların Ermənistandan qovulması televiziya operatorları, fotoqraflar, müxbirlər və başqa kütləvi informasiya işçilərinin iştirakı olmadan həyata keçirilmişdı. Ermənistandan fərqli olaraq, Azərbaycandan ermənilər bir çox xarici ölkələrin kütləvi informasiya işçilərinin nəzarəti altında, təyyarələrdə, gəmilərlə, qatarlarla məskunlaşdıgı yerədək "qovulurdu".

Rusiya televiziyası ermənilərin Azərbaycandan çıxarılmasına xüsusi diqqət yetirirdi. "Əmin-amanlığı təmin etmək" üçün Azərbaycana gəlmiş çoxminli Daxili qoşunlar yaranmış vəziyyəti tamaşaçı kimi seyr edirdilər. Televiziya işçiləri isə hər bir xırda hadisəni belə çəkir, axşam Rusiya telekanallarında,

1915-ci il türk-erməni münaqışələrindən kadrlar göstərməklə Azərbaycandakı hadisələri əksinə şərh etdirirdilər. Bu sahədə Q.Borovik xüsusi canfəşanlıq edir, erməni arvadının sandığından çıxarılmış kadrları nümayiş etdirirdi.

V.A.Kryuçkov "Личное дело" kitabında yazır: "Hazırda yüksək vəzifələrdə çalışan bir çoxları açıqcasına Sovet dövlətinin dağıdılmasına yönədilmiş işlərlə məşğul olurdular. Onların çoxuna Amerika xüsusi xidmət orqanları qəyyumluq edirdi. Q.Borovikin dəfələrlə ABŞ-a səfərini San-Fransisko ticarət palatasının direktor müavini, milliyyətcə erməni olan Qarri Orbelyan təşkil edir və hər dəfə ona maddi köməklikdən başqa bahalı mehmanxanalarda yer düzəldir, ölkədə səfər təşkil edir, yaxtalarda gəzdirir, bahalı hədiyyələr verirdi və s." (2-ci cild, səh.40).

Çox təəssüf ki, həyatda Qorbaçov, Starovoytova, Borovik və başqaları erməni diasporundan bahalı hədiyyələr kimi aldıqları rüşvətlərdən sonra sağlam olmayan erməni siyasətini kor-korana müdafiə edirdilər.

Bonnerin tələbəsi, psixi xəstə Andrey Nuykin Rusiya hakimiyyətini Azərbaycanı "Rusiyanın güclü diplomatiyası, iqtisadiyyatı, hərbi gücü və əqli siyasəti ilə" boğub, Dağlıq zQarabağın ermənilərə verilməsinə çağırırdı.

Fransanin prezidenti Sarkozi "1915-ci il ermənilərin türklər tərəfindən soyqırıma" məruz qalmalarını qəbul etməyənləri cinayətkar adlandırmısdır.

L.Məmmədova 10 mart 2007-ci il tarixli "Zerkalo" qəzetində yazır: "Sübut olunmayan hər hansı bir ittiham böhtan sayılır. 1915-ci ildə türklər tərəfindən ermənilərin soyqırıma məruz qalmaları heç bir sübutu olmadığından əsassız sayılır. Ona görə də Türkiyə Fransa parlamentini Beynəlxalq məhkəməyə vermək hüququnu özündə saxlayır.

Osmanlı imperiyası 600 ildən artıq Asiya, Avropa və Afrikada hökmranlıq etmışdir. Həmin müddətdə etnik qrup sayılan ermənilərdən yaxa qurtarmaq məsələsi ortaya çıxmamışdı. Birinci dünya müharibəsində məglub olandan və



Türkiyyənin bölüşdürülməsi məsələsi həll olunan zaman ermənilərin türklər tərəfindən qırılması məntiqə uyqun gəlmir.

1917-ci ildə Jak Simonun Parisdə erməni qaçqınlarnın dilindən yazılmış, 1915-ci il hadisələrindən bəhs edən kitabı çap olunmuşdur. Jak Simon yazırdı: "Fransızlarla müharibə ermənilər türk ordusunun əsasını təşkil edirdi. Ordunun başında general Andronik paşa dururdu. Hücuma başlanan günün gecəsi Andronik əsgərlərə elan etmişdi ki, fransızların tərəfində türklərə qarşı vuruşacagıq. Müharibə başlananda ermənilər fransızlarla birlikdə nizələrini türklərə qarşı yönəltdilər. Tökülmüş qandan vəhşiləşmiş ermənilər qarşılarına çıxan türk kəndlərini yandırır, insanları qırırdılar.

Daşnaksütyunun rəhbərləri Türkiyədə kompakt yaşayan erməniləri öz ev-eşiklərindən çıxarıb Ermənistana köçürmək istəyirdilər. Bir çox ailələr yaşadıqları yerlərdən köçmək istəmirdilər. Türk əsgəri paltarı geyinmiş daşnak əsgərləri köçmək istəməyənləri vəhşicəsinə qırırdılar. Sonralar Daşnaksütyunun məlumatlarında yazırdılar ki, Türklər tərəfindən 400 min dinc əhali qırılmışdır.

Kars erməniləri Eçmiədzinlə Axtamar katalikoslarının münaqişəsi nəticəsində qırılmışdı. Daşnaklar Eçmiədzin katalikosunu müdafiə edirdilər. Müharibədə türklər məğlub olduqdan sonra daşnak ordusu Karsa daxil olub Eçmiədzin katalikosunu bütün erməni katalikosu elan etmək məqsədilə yerli erməniləri qırmaqa başladılar.

Jak Simon təxminən yüz nəfər ermənin ifadələri ilə təsdiq olunan 1915-ci il erməni faciəsinin Daşnaktsütyun terroristləri tərəfindən törədilməsini düzgün olaraq təsvir etmişdi. Kitab böyük tirajla çap olunandan sonra Jak Simon kabinetində qətlə yetirildi, kitablar məhv edildi."

1896-ci ildə fransızların Trabzondakı konsulu yazırdı: "Erməni siyasətçiləri öz xalqını ölümə verirlər."

1897-ci ildə Fransanın Türkiyədəki səfiri yazırdı: "Ermənilər qırğın yaratmaq üçün kürdlərə və türklərə hücum edirlər".

V.L.Veliçko "Qafqaz" kitabında yazmışdır: "Mən və tanışlarım Türkiyədən qaçan ermənilərlə danışıqlar zamanı

onlar etiraf edirdilər ki, türklərdən deyil, öz erməni terroristlərindən qaçırlar."

"1915-ci ilin erməni soyqırımı" və Sumqayıt hadisələri sanki bir rejissor tərəfindən qurulmuşdur. Ermənilər özləri qarşıqlıq yaradırlar, özləri öz həmvətənlərini öldürürlər, özləri də ermənilərin soyqırımı haqqında bütün dünyaya hay-küy salırlar. Hər dəfə də qətlə yetirilmiş ermənilərin sayını yüz dəfə artırırlar. 1915-ci ildə öldürülmüş ermənilərin sayı şişirdilərək 400 mindən 1.5 milyon nəfərə çatdırılmışdır. Halbu ki, o zaman bütün Türkiyədə o qədər erməni yaşamamışdır.

Ermənistanda uşaq doğularkən uşaqı qəbul edən həkim birinci olaraq körpənin qulağına *pıçıldadığı* söz bu olur: - "Türklər və azərbaycanlılar bizim düşmənlərimizdir." Ermənin gələcək tərbiyəsi də bu ruhda olur.

1918-ci ilin mart ayında Stepan Şaumyan, Stepan Lalayev, Tatevos Əmirov və başqa erməni daşnakların rəhbərliyi altında təkcə Bakı və Bakinin kəndlərində 50 mindən artıq azərbaycanlı milli mənsubiyyətinə görə öldürülmüşdür. Eyni motiv ilə Quba, Şamaxı,Göyçay, Şuşa, Cəbrayıl, Zəngəzur rayonlarında da on minlərlə azərbaycanlı öldürülmüşdür.

1918-ci ilin mart ayında Şamaxının Qubalı kəndində 250 kişi, 150 qadın,135 uşaq, Qaravəlli kəndində 40 kişi, 50 qadın, 30 uşaq, Qonaqkənd kəndində 25 kişi, 5 qadın, 4 uşaq, Quşçu kəndində 192 kişi, 115 qadın, 25 uşaq, Ərəb-qədim kəndində 200 kişi, 100 qadın, 78 uşaq, Cəyirli kəndində 40 kişi, 20 qadın, uşaq, Sündü kəndində 250 nəfər, Dimanda 585 nəfər, Kalvada 500 nəfər, Vücüdə 230 nəfər, Tirjanda 360 nəfər amansızcasına qətlə yetirilmişdir ("Azərbaycan" qəzeti, 31 mart 2007 il.)

1918-ci ilin mart qırğınından iki həftə sonra, aprel ayının 13-də S.Şaumyan RSFSR Xalq Komissarlar Sovetinin sədri Leninə aşağıdakı məzmunda məktub göndərir: "Müharibənin nəticəsi bizim üçün əlverişli oldu. Bizim təklif etdiyimiz şərt danışıqsız qəbul olundu. Bakıda Sovet hakimiyyəti müsəlman millətçilərinin səyi nəticəsində göydən asılmış vəziyyətdə idi. Menşeviklərin satqınlığı və qorxacaqlığı üzündən



Yelizavetpolda və Tiflisdə möhkəmlənmiş müsəlman millətçiləri başda feodal zadəganlar (xan və bəylər) olmaqla, son vaxtlar Bakıda da təcavüzkar olmuşlar. Onlar qalib gəlsəydilər, Bakını mərkəz sayardılar, müsəlman olmayanları tərksilah edərdilər. Bizim 6000 silahlı qüvvəmiz və "Daşnaksütyunun" 3-4 min milli əsgəri bizə köməklik etdilər. Axırıncıların bu vuruşda iştirakı qırğına milli xarakter verdi. Biz qəsdən buna yol verdik. Müsəlman yoxsullar güclü ziyan çəkdilər. Lakin onlar hazırda bolşeviklərin və sovetlərin ətrafında cəmləşirlər."

Bolşevik-daşnak qruplaşmasının 1918-ci ilin martında törətdikləri qırğın Azərbaycan tarixində ən qanlı səhifələrdən sayılır.

Bütün bunlara baxmayaraq, aparılan siyasət nəticəsində erməni xalqının böyük oğlu "Stepan Şaumyan Azərbaycan xalqının da oğlu sayıldı," onun həyatı insanların azad və xoşbəxt yaşamalarının simvoluna, gələcək nəslin ilhamlandırıcı surətinə çevrildi. Tarixçilər 1918-ci il mart ayında azərbaycanlıların bolşevik-daşnak dəstələri tərəfindən qırğına məruz qalmalarından yazmağı "abırlarına" sığışdırmadılar. Əgər yazırdılarsa da bütün faciənin səbəbkarlarını "Müsavat" partiyasının rəhbərlik etdiyi müsəlman burjuaziyasında görürdülər.

1990-cı ilin qanlı yanvar hadisələrindən sonra Azərbaycanın Milli Məclisi faciənin əsas səbəbkarlarindan olan Y.M.Primakova bəraət qazandırmaq yollarını axtaran zaman ermənilərin silahlı bandit dəstələri müasir silahlarla, ağır tanklarla, BMP-lə silahlanmış, tərkibində çox miqdarda erməni olan, Rusiyanın 366-cı alayı ilə birlikdə Azərbaycanın Xocalı şəhərinə qarşı soyqırım aktı törətdilər. 25-26 fevral 1992-ci il tarixdə dinc əhaliyə qanlı divan tutuldu. 613 nəfər öldürüldü, 487 nəfər aldıqları güllə yaralarından əlil oldular. 106 qadın, 63 uşaq, 70 qoca güllələndi. 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq bir valideynini itirdi. 1275 nəfər əsir götürüldü. 150 nəfər haqqında bu günə kimi heç bir məlumat yoxdur.

Ermənilər burada da vəhşi üzlərini göstərdilər. Yeddi yaşlı Əliyev Yavər ermənilərin məhsəti türkü Əhmədin kəsilmiş başı

ilə futbol oynamalarının şahidi olmuşdur. O, eyni zamanda iki yaşlı Natəvanın anası ermənilər tərəfindən güllələnəndən sonra çox ağladığına görə güllələnməsini də gözlərilə görmüşdü. Əliyev Yavər özü də iki güllə yarası almışdı.

Azyaşlı X.Əmirovanın ifadəsi:

Ermənilər ailəmizi əsir götürdülər. Anamı başından güllə ilə vurdular, atamı isə ağaca bağlayıb əmr etdilər ki, desin: - "Bütün Azərbaycan torpaqları Ermənistanındır". Atam onların istədiklərinin demədikdə ayaqlarını yandırdılar və atamı məcbur etdilər ki, həmin ifadəni desin. Atam bu dəfə də imtina etdikdə onu, mənim və balaca bacımın gözü qarşısında yandırdılar.

Silahlanmış erməni dəstələri Rusiyanın 366-cı alayı ilə birlikdə Azərbaycanın Xocalı şəhərini yer üzündən sildilər. Bü qanlı cinayət XX əsrdə beynəlxalq terrorizm tərəfindən dinc əhaliyə qarşı törədilmiş ən ağır - müdhiş əməllərdən sayilir.



## Televiziya mərkəzində partlayış

19 yanvar 1990-cı il, saat 19.27-də bütün Azərbaycanda televiziya verlişləri kəsildi. Hər yerdən daxil olan telefon zənglərinə cavab verilmirdi. Tamaşaçılar təşvış keçirirdilər. Respublikada, xüsusilə Baki şəhərində gərginlik son nöqtəsinə çatmışdı. Kommunist rejimi Xalq hərəkatı ilə rinq döyüşünə çıxmışdı. Bir tərəf nokaut vəziyyətinə düşməli idi. Belə bir vəziyyətdə televiziya verilişlərinin kəsilməsi əhalidə təşvişi daha da artırırdı.

Həmin gecə Moskva televiziya verilişləri Bakıda ekstremistlər tərəfindən Televiziya mərkəzində partlayış edilməsi haqqında məlumat yaydı.

Az sonra Respublika prokurorluğuna və Dövlət təhlükəsizlik komitəsinə Televiziya mərkəzində partlayış olması haqqında məlumat verildi. Hadisə yerinə gələn prokurorluğun müstəntiqlərini Televiziya mərkəzini mühafizə edən əlisilahlı əsgərlər obyektə buraxmadılar. Qəribə deyilmi? Prokurorluq işçilərini hadisə yerini müayinə etmək üçün obyektə buraxmayan hərbçilər ekstremistləri hadisə yerinə kimi müşayiət edir, partlayıcı maddələrin haraya qoyulacaq yeri belə onlara göstərirdilər.

SSRİ Müdafiə Nazirliyinin məsul işçisi, general-leytenant A.Ovçinnikov da Moskvanın yalan məlumatını təsdiq edib azərbaycanlılara elan etdi ki, həqiqətən telestudiyanı ekstremistlər partlatmışlar.

Ovçinnikovun rəsmi məlumatı bütün kutləvi informasiya vasitələrində səsləndi.

Mühafizəsini 200 nəfər silahlı əsgər təşkil edən obyektin ekstremistlər tərəfindən partladılması kimi sərsəm fikir ancaq kütbeyin rəhbərlərin və ərköyün uşaqların ağlına gələ bilədi. Çünki, obyekti ekstremistlərdən müdafiə edən dəstənin rəhbərini məsulliyyətə cəlb etdikdə o, mütləq hadisənin başvermə səbəblərini açmalı idi.

Televiziya mərkəzində baş vermiş partlayışla əlaqədar başlanmış cinayət işinin istintaqı ilə ilkin məşğul olan DTK

müstəntiqləri Cənub istiqamətli qoşunların komandanının qərargah rəisi general-leytenant M.Kolesnikovun imzaladığı sənədi əldə etmişdilər:

"SSRİ Müdafiə nazirinin mühüm əhəmiyyətli obyektlərin müdafiəsi ilə əlaqədar 321/ 1 / 019 ş saylı direktivinə uyğun olaraq Cənub istiqamətli qoşunların Baş komandanı

ƏMR ETDİ:

1.17 yanvar 1990-cı il tarixdə saat 15.oo-dan 16.oo-a kimi müddətdə Az.SSR Nazirlər Sovetinin, Ali Sovetin Rəyasət Heyətinin və Televiziya mərkəzi binaları SSRİ DİN-i daxili qoşunlarından qəbul edilib nəzarətə götürülsün.

Xidmət üçün 600 nəfər ayrılsın (hər obyektə 200 nəfər). Xidmət iki növbədə, hər növbədə 100 nəfər olmaqla gecə-gündüz təşkil edilsin. Şəxsi heyət avtomatlarla silahlansın, bölmə komandirlərində hər əsgər üçün 2 daraq döyüş sürsatı təmin olunsun. Şəxsi heyət avtomobillərdə aparılıb-gətirilsin.

2. Vəzifəni yerinə yetirərkən ekstremistlərin hər hansı bir qanunazidd hərəkətlərinin qarşısı qarnizon və qaraul xidməti Nizamnaməsinin 72-ci maddəsinə uyğun olaraq silah işlədilməsinə kimi bütün imkanlardan istifadə olunsun.

3. Obyektlərin nəzarətə götürülməsi haqqında 17 yanvar, saat 17.oo kimi məlumat verilsin.

Cənub istiqamətli qoşunların<br>Qərargah rəisi General-leytenant<br>M.Kolesnikov

Əmrin həmin gün icra olunması üçün Bakı ümumqoşun hərbi məktəbinə göndərilmişdir. 17 yanvar 1990-cı il tarixdə hərbi məktəbin 100 nəfər kursantı, başda polkovnik Mark Davidoviç Şmotkin olmaqla Televiziya mərkəzi Daxili qoşunlardan mühafizə olunmaq üçün qəbul olunmuşdur.

Cənub qoşunları komandanının əmri qorxulu və vahiməli olsa da, 19 yanvar 1990-cı il tarixdə, 100 nəfər əli silahlı əsgər tərəfindən qorunmasına baxmayaraq, Televiziya mərkəzində



partlayış baş verdi. Mərkəzin əsas enerji xəttində partlayış oldu. Bununla da respublikada televiziya verilişləri kəsildi. Bütün kütləvi informasiya vasitələri partlayışın ekstremistlər tərəfindən törədilməsi haqqında aləmə məlumat yaydılar.

Partlayışla əlaqədar başlanmış cinayət işi bir müddət DTK-nin müstəntiqləri tərəfindən, sonra prokurorluğun müstəntiqləri tərəfindən araşdırıldı. Cinayət işi hərbi prokurorluğa göndəriləndən sonra heç bir istintaq hərəkəti aparılmadan, işin icraatına xitam verildi.

Oxucu maraqlana bilər, nə üçün hadisə yerinə prokurorluğun işçilərini buraxmayan hərbçilər təxribatçı-ekstremistləri maneəsiz Televiziya mərkəzinə buraxır və enerji blokunu partlatmağa imkan yaradırlar.

Hadisədən bir neçə gün sonra şahid qismində dindirilmiş, həmin gün Televiziya mərkəzində növbə rəisi işləmiş İbrahim Hüseynov və energetik Viktor Romanovun ifadələrindən aydın olurdu ki, hadisə günü dörd nəfər idman geyimli, əllərində qısa lüləli avtomat silah olan şəxslər Mərkəzin mühafizəsinə rəhbərlik edən əsgərlərin komandiri polkovnik M.D.Şmotkinin müşahidəsi ilə onları kollegiya otağına apararaq, orada studiyaya enerjinin haradan verilməsi, ehtiyat blokunun olub-olmaması ilə maraqlanmışlar. Lazımı məlumatları aldıqdan sonra onları başqa otaqda nəzarət altında saxlamışlar. Bu zaman enerji bloku partladılmışdır. "Ekstremistlər" Hüseynov və Romanova "təhlükəsizliklərini qorumaq məqsədilə" hərbçi geyimi geyindirərək onları əvvəl Ali Sovetin binasına, sonra isə 26 Bakı komissarları adına rayonun milis şöbəsinə gətirib təhvil vermişdilər. Televiziya mərkəzində enerji blokunun kim tərəfindən partladılmasını müəyyən etmək üçün imkan açılmışdır. İşləmək və cinayətkarları ifşa etmək lazım idi. Lakin cinayətkarları ifşa etməyə cəhd olunmadı.Nə üçün?

Məlum idi ki, enerji blokunu partladan, elan olunduğu kimi ekstremustlər deyil, iqtidarda olan hakimiyyətin özü idi. Bunun da bir neçə səbəbi ola bilərdi. Birinci ona görə ki, həmin gün xalq cəbhəsinin nümayəndələrindən biri – Etibar Məmmədov televiziyada çıxış edib xalqa müraciət etməli idi. Bunun qarşı-

sını almaq üçün televiziya mərkəzində partlayışa yol verilə bilərdi. Bunu SSRİ DTK-nın sədrinin birinci müavini, həmin günlərdə Bakıda olan Bobkovun: "Cəbhəçilərin televiziyada çıxışına yol verməmək üçün tədbirlər planı hazırlanmışdır", ifadəsi də təsdiq edir.

Başqa bir səbəb: SSRİ rəhbərliyi bilirdi ki, həmin gecə Müdafiə nazirliyinin və Daxili qoşunların ən müasir silahlarla silahlanmış çoxminli ordusu Bakıya – dinc əhalinin üzərinə yeriyəcək. Xalqa məlumat verməmək, çoxlu insan qırğınına yol vermək üçün Televiziya mərkəzində partlayışa aparıla bilərdi.

Başqa bir səbəb, ordunun Bakıya veridilməsinin televiziya ilə beynəlxalq aləmə bildirməmək üçün də partlayışa aparılardı.

Göstərilən səbəbləri yoxlamaq üçün ətraflı və obyektiv istintaq aparmaq lazım idi. Lakin həqiqəti aydınlaşdırmaq iqtidarda olan hakimiyyətə lazım deyildi.

Ona görə də 1990-cı ilin dekabrında 20 yanvar faciəsi, o cümlədən Televiziya mərkəzində baş vermiş partlayışla əlaqədar başlanmış cinayət işı hərbi prokurorluq tərəfindən xətm edilmişdir.

1993-cü ilin mart ayında Azərbaycan Respublikası Ali Soveti tərəfindən təşkil edilmiş istintaq qrupunun 20 yanvar hadisələri ilə əlaqədar topladığı materiallar səhifələri nömrələnməmiş, siyahıya alınmamış, tikilməmiş (cildlənməmiş), ayrı-ayrı qovluqlarda, təxminən 100 qovluqda Azərbaycan Respublikası prokurorluğuna göndərilmişdi. Həmin sənədlərlə bərabər prokurorluğa Ali Sovet sədrinin müavini T.Qarayevin imzası ilə aşağıdakı məzmunda məktub da daxil olmuşdu: "A.Rəsulov prokurorluq orqanlarına işə qəbul edilsin və cinayət işinin istintaqı ona tapşırılsın".

Respublikada hakimiyyət dəyişmişdi. Yeni ab-hava bərqərar olmaqda idi. A.Rəsulov hələ prokurorluq orqanında işə qəbul olunmamış, dəhlizdə veyllənərək respublikanın keçmiş rəhbərlərini həbs edəcəyi haqqında hədyan-hədyan danışırdı. A.Rəsulov vaxtilə prokurorluqda işləmişdi. Buraxdığı nöqsanlara, qərəzli mövqe tutduğuna və qanun pozuntularına



yol verdiyinə görə orqandan qovulmuşdu. Yeni hakimiyyətə Rəsulov kimilər lazım idı. Lakin... cinayət işinin istintaqı ona həvalə olunmadı.

Cinayət işinin istintaqı muhüm işlər müstəntiqi, kitabın müəlliflərindən biri O.Qasımova tapşırıldı.

Televiziya mərkəzində baş vermiş partlayış ətrafında aparılan ilk istintaq hərəkətlərindən biri Televiziya mərkəzinin mühafizəsinə rəhbərlik edən polkovnik Şmotkini istintaqa dəvət edib ətraflı dindirmək oldu.

Şmotkin Bakıda doğulmuş, 1 saylı orta məktəbi bitirmişdi. Sumqayıt hadisələrindən sonra erməni millətindən olanlar Bakıdan çıxarılanda onun da arvadı Bakını tərk edib Rusıyaya getmiş və qaçqın kimi vəsait almışdı.

Şahid qismində dindirilən Şmotkin özünü səmimi aparmadı. Televiziya mərkəzində partlayış haqqında ona bəllı olan məlumatlar barədə düzgün ifadə vermədi. Cənub istiqamətli qoşunların baş komandanının əmrini yerinə yetirmədiyinə, qoruduğu obyektdə partlayışa yol verdiyinə və partlayışın törədilməsində bilavasitə iştirak etdiyinə görə Şmotkini cinayət məsuliyyətinə cəlb etmək və onu həbs etmək üçün kifayət qədər əsaslar var idi. Bu məqsədlə Azərbaycan Respublikasının prokuroru M.Babayevin imzası ilə Azərbaycan Respublikasının Daxili işlər naziri İ.Həmidova rəsmi müraciət edib Şmotkinin həbsə alınıb istintaq təcridxanasına aparılması üçün bir heçə nəfər milis işçisinin ayrılması xahiş olundu. İ.Həmidovun Respublika prokuroruna cavabı bu oldu ki, milis işçiləri xuliqanlarla mübarizəyə cəlb olunduğundan iki-üc nəfəri işdən ayırıb prokurorluğa göndərməyə imkanı yoxdur. Bir gün sonra Şmotkinin iş yeri dəyişilib Rusıyaya göndərildi. Bununla da iz itdi.

Şmotkinin hərbi nazirlik tərəfindən, əmri yerinə yetirmədiyinə görə, mühafizə etdiyi obyektə partlayışa yol verdiyinə görə cəzalandırılmamasının səbəbini, əmrə imza edib icrasını təmin etmək üçün Bakı hərbi ümumqoşun məktəbinə göndərən Cənub istiqamətli qoşunların keçmiş qərargah rəisi general M.Kolesnikov (20 yanvar hadisələrindən sonra SSRİ Müdafiə

nazirliyinin baş qərargah rəisinin müavini vəzifəsinə irəli çəkilmiş və general polkovnik rütbəsi almış, az sonra Baş qərargahın rəisi təyin edilmiş və ordu generali rütbəsinə layiq görülmüşdür) müstəntiq O.Qasımovun sualları ətrafında Rusiyanın hərbi prokurorluğu tərəfindən şahid qismində dundirilmişdir.

M.Kolesnikov ona təqdim edilmiş, onun imzası olduğu sənədi ( 01 saylı 17 yanvar 1990-cı il tarixli sərəncam) nəzərdən keçirdikdən sonra bildirmişdir ki, sərəncam Müdafiə nazirinin Direktivi əsasında verilmiş və bu, obyektin mühafizə və müdafiə olunması üçün rəsmi göstəriş sayılır. Sərəncamın yerinə yetirilməsi Bakı ümumqoşun hərbi məktəbinin rəisinə tapşırılmışdır. Əmrin yerinə yetirilməsinə nəzarət etməkdə səhlənkarlığını şəhərdə daimi atışmaların olması və başının qarışıqlığı ilə izah etmişdir.

M.Kolesnikov ifadəsi ilə təsdiq edirdi ki, Televiziya mərkəzinin mühafizə edilməsi və qorunması hərbi məktəbin batalyon komandiri, milliyyətcə yəhudi olan şəxsə tapşırılmışdır. Lakin Televiziya mərkəzində partlayış olması isə maraq dairəsində olmamışdır.

Oxucu sual edə bilər, əgər Televiziya mərkəzində partlayışın olması generalı maraqlandırmırsa, belə bir vahiməli əmrin verilməsi nə üçün idi. Başqa bir sivil ölkədə öz məsul vəzifəsinə belə səhlənkar yanaşan generalı cəzalandırar, heç olmasa ona xəbərdarlıq edərdilər, Kolesnikov isə şampan butulkasından çıxan probka kimi tutduğu vəzifədə irəli atılırdı.

M.Kolesnikov ifadəsi ilə təsdiq edirdi ki, 19 yanvar 1990-cı il tarixdə Müdafiə naziri Yazov Bakıya gəlmişdi. Onun iştirakı ilə Cənub istiqamətli qoşunların komendantının otağında müşavirə keçirilmişdir. Həmin müşavirədə Bakatin, Primakov, Girenko, Şatalin və Vəzirov iştirak etmişlər. M.Kolesnikov müşavirədə iştirak etməsə də, həmin gecə qoşunun şəhərə yeridilməsi haqqında müdafiə naziri Yazovun sərəncamı haqqında onda məlumat var idi. Belə ki, qoşunun Bakıya yeridilməsi əvvəlcədən nəzərdə tutulduğundan şəhərin ətrafında qoşun dəstələrinin toplanmasını təmin etmişdi.



## Fövqəladə vəziyyətin elan edilməsi və Bakı şəhərinə qoşun yeridilməsi

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.S.Qorbaçovun imzaladığı Fərmana əsasən 1990-cı ilin yanvar ayının 20-də Bakı şəhərində fövqəladə vəziyyət elan edilmiş və həmin fərmana uyğun olaraq yanvar ayının 19-dan 20-ə keçən gecə ən müasir silahlarla silahlanmış SSRİ Müdafiə Nazirliyi və Daxili işlər nazirliyinin çoxminli Daxili qoşunları xalqı xəbərdar etmədən düşmən, torpağına soxulurmuş kimi Bakı şəhərinə daxil olmuşlar.

Əsgərlər qarşılarına çıxan nə var idisə hamısına - yaşayış evlərinin pəncərələrinə, insanlara, avtobus, taksi, yanğınsöndürən və təcili yardım maşınlarına atəş açırdılar, ağır tanklarla içərisində sərnişin olan avtomobillərin üstünə çıxaraq maşınları, içərisindəki sərnişinlərlə birlikdə əzirdilər.

1997-ci ilin aprel ayının əvvəllərində Rusiya Dövlət Dumasının nümayəndə heyətinin başçısı, keçmiş SSRİ NK-sədri N.Rıjkov Yerevanda olarkən 20 yanvar 1990-cı ildə qoşunların Bakıya daxil olmasının onun əmri əsasında həyata keçirilməsi haqqında sensasiyalı bəyanatla çıxış etmişdir. Rıjkov bəyan etmişdi ki, Qorbaçov gizlənmişdi, ona görə də ordunun Bakıya yeridilməsinə o əmr vermişdir ("Panorama" qəzeti, 09.04.1997 il.) Biz də ona inanmaq istədik. Lakin faktlar Rıjkovun ifadəsini təsdiq etmir.Çünki:

- Bakıda fövqəladə vəziyyət elan olunması haqqında Fərmanı Rıjkov deyil, Qorbaçov imza etmişdir.
- Ordu Rıjkovun əmri əsasında Bakıya soxulmuş olsaydı, Qorbaçov çoxdan qırğının bütün məsuliyyətini onun üzərinə yıxardı. Qorbaçovda öz ətrafında olanları müdafiə etmə qabiliyyəti yox idi. O, çox asanlıqla keçmiş həmkarlarını özünün ambisiyalarına qurban verirdi. Onu MK-nın Baş katibi vəzifəsinə təklif edən A.Qromıko başda olmaqla Siyasi Büronun keçmiş üzvləri ilə birlikdə qonşu, dost, demokratik respublikaların başçıları da Qorbaçovun başa düşülməyən siyasətinin qurbanı oldular.

- Güc nazirlikləri Rıjkova deyil, bilavasitə Qorbaçova tabe idilər. Ali Baş komandan da Rıjkov deyil, Qorbaçov sayılırdı. Qorbaçov olan yerdə onun orduya əmr vermək hüququ yox idi.

- Qorbaçov həmin gün heç yana qaçmamışdı. Yanvarın 19-da Primakovla olan telefon danışığı zamanı Bakıya qoşun yeridilməsini, ona rəhbərlik etmək üçün Yazov və Bakatinin Bakıya uçmaqları haqqında məlumat vermişdi.

- Yazov da, Bakatin də Rıjkovun deyil, Qorbaçovun göstərişinə əsasən Bakıya gəlmələrini təsdiq etmişlər.

N.Rıjkovun ermənilər qarşısındakı bəyanatına isə "bahalı hədiyyələr" almaq üçün xal qazanmaqdan başqa ad vermək olmaz.

Bakıda fövqəladə vəziyyətin elan olunmasına və çoxminli silahlı qoşunun şəhərə yeridilməsinə ehtiyac var idimi?

Bu suala tanınmış siyasətçi, Sank-Peterburqun meri Anatoliy Sobçaq belə cavab verir: "Bakıda talanlar olanda hərbçilər kazarmalardan çıxmadılar, qırğınlar qurtardıqdan sonra insanlara aman verməməklə hücuma keçdilər." (A.Собчак. "Хождение во власть", səh.244).

Həmin kitabda A.Sobçak qeyd edir: "Bakıda hərbçilər fəaliyyətsiz idilər. Azərbaycan KP MK birinci katibi şəhərdən qaçdıqdan sonra faktiki olaraq hakimiyyəti Xalq cəbhəsi əvəz edirdi. Belə vəziyyətdə tanklar gecə ikən hücuma keçmişdilər. Aksiya SSRİ Ali Sovetinin fərmanı əsasında baş tutmuşdu, onu yerinə yetirənlər isə çox qan tökülməsi üçün əllərindən gələni əsirgəmədilər".( səh.270).

Sov.İKP MK Siyasi Bürosunun keçmiş üzvü H.Əliyev həmin hadisəyə aşağıdakı məzmunda qiymət vermişdir:

Yanvarın 19-dan 20-ə keçən gecədə baş vermiş faciənin qarşısını almaq üçün, Azərbaycanda yaranmış gərginliyi siyasi yollarla tənzimləmək üçün kifayət qədər əsas var idi. Azərbaycan rəhbərliyi, habelə yüksək siyasi hakimiyyət ondan istifadə etmədilər.

Əgər iki-üç ay əvvəl Azərbaycanda siyasi rəhbərlik möhkəmləndirilsəydi, ordunun şəhərə yeridilməsinə ehtiyac olmazdı.



Azərbaycana kənardan böyük kontingent ordu yeridildi. Mənə məlumdur ki, Azərbaycanda nə qədər hərbi hissələr vardır: 4-cü Ordu, Xəzər hərbi-dəniz donanması, hərbi-desant diviziyası, hava hücumundan mühafizə qoşunları, DİN daxili qoşunları. Kənardan əlavə qoşunların Bakıya yeridilməsinə ehtiyac var idimi?

Yerli milis işçiləri hələ hadisələrdən xeyli əvvəl SSRİ Daxili işlər nazirinin əmrinə əsasən tərksilah olunmuşdular. Həmin günlərdə Bakı şəhərində böyük miqdarda Müdafiə və Daxili işlər nazirliklərinin qoşunları olmasına baxmayaraq talançılığın qarşısının alınması üçün tədbir görülməmişdi. Milis işçilərinin çoxu Dağlıq Qarabağ bölgəsində və Ermənistanla sərhəddə idilər. Qalan milis işçiləri kimə tabe olmalarını bilmirdilər: DİN-nə və ya Xalq cəbhəsinə. Həmin günlərdə ordu və milis elə bir vəziyyətdə idilər ki, onlara bel bağlamaq olmazdı.

Bakı ümumqoşun hərbi məktəbinin rəisi, ehtiyatda olan polkovnik Anatoliy Savelyev istintaqa verdiyi ifadəsində göstərirdi ki, yanvarın 14-15-də məktəbin binasında 300-ə qədər erməni ailəsinin toplanması haqqında Cənub istiqaməti qoşunlarının qərargah rəisi general Kolesnikova məlumat verdim. O, həmin ailələri Qala hərbi aeroportundan onların istədikləri istiqamətə yola salınmalarına sərəncam verdi. Sərəncamı 15-16 yanvarda yerinə yetirdim. Həmin günlərdə əsasən Orta Asiyadan olan Daxili qoşun dəstələri - təxminən 700 nəfərə qədər məktəbin binasında toplanmağa başladılar. General Kolesnikovun göstərişinə əsasən onları məktəbin idman zalında və klubda yerləşdirdim.

Yanvar ayının 21-də məktəbin binasında 800-ə qədər hərbçi ailəsi toplanmışdı. Onlar da Bakıdan getmək istəyirdilər. Müdafiə naziri Yazovla əlaqə saxlayıb: "onlarla nə etmək" - soruşdum. Cavabı belə oldu: "yerləşdirmək, yedirtmək, onlara təyyarə ayıracaq". Yanvarın 22-də Müdafiə naziri məni çağırıb tapşırdı ki, hərbçilərin ailələrini yola salmaq işi ilə məşğul olum. Aviasiya generalı ilə əlaqə saxladıqdan sonra Qala və Nasosnı hərbi aeropotlarından həmin ailələri yola saldım. Hərbçi ailələrini Bakıdan köçürməyi qərargah özü təşkil etmişdi. Buna

ehtiyac yox idi. Yanvarın 24-də siyasi işlər üzrə müavinim polkovnik Rusakov ilə birlikdə Qorbaçov və Yazova teleqram vurub narazılığımızı çatdırdıq. Bildirdik ki, Bakiya qoşun yeridilməsi yersizdir, münaqişəni siyasi yollarla həll etmək mümkündür. Səhəri, yanvarın 25-də Yazov və Bakatin hərbi məktəbə gəlib bizim teleqramımızı "müzakirə" etdilər. Müzakirənin nəticəsi bu oldu ki, mənim və Rusakovun gələcək zabitləri tərbiyə etməyə mənəvi haqqımız yoxdur. Məni Voloqda şəhərinə, aşağı vəzifəyə, Rysakovu isə Kiyevə göndərdilər.

Rusiyanın Pskov vilayətində anadan olmuş Aleksey Savelyev ordudan tərxis olunduqdan sonra Bakıya qayıtmış, işə düzəlmiş və hazirda ailəsi ilə Azərbaycanın paytaxtında yaşayır.

Bakı şəhərində olan SSRİ-nin on minlərlə daxili qoşunları fəaliyyət göstərmirdilər. Onlar hətta üzərlərinə düşən vəzifəni belə yerinə yetirmirdilər. SSRİ DİN Daxili qoşunların komandanı general Şatalin fəaliyyətsizliyini ondan heç kəsin kömək istəməməsi ilə izah edirdi. Baki şəhərinə hərbi komendant vəzifəsinə təyin olunmuş general Dubinyak isə Azərbaycan qanunlarının onların fəaliyyətinə aidiyyəti olmaması və talanların qarşısının alınması üçün əmr verilməməsi ilə izah edirdi. Bu başıbəlalı generallardan soruşan yox idi: "Bakıya qonaqmı gəlmişsiniz?"

Asayişi qorumaq qanunla Daxili qoşunlara həvalə olunmuşdu. Bunun üçün Şatalin və Dubinyak nə yerli hakimiyyətin xahişini, nə də hər hansı bir göstərişi gözləməli idilər. Asayişi qorumaq, cinayətlərin qarşısını almaq onların vəzifəsi idi.

Müstəqil ekspert Q.Melkov Şatalin və Dubinyakin fikirləri ilə tanış olduqdan sonra aşağıdakı rəyə gəlmişdir: "onların izahlarının heç bir hüquqi əsası yoxdur. Daxili qoşunlar Qanuna tabedirlər və qanun çərçivəsində hərəkət etməlidirlər. Onlar özləri düzünə təyinatları daxilində hərəkət etməli idilər. Heç kimdən xahiş və ya müraciət gözləməməli idilər."

Şatalin və Dubinyak sankı SSRİ Ali Soveti Rəyasət heyətinin 28 iyul 1988-ci il tarixli fərmanı ilə təsdiq edilmiş



"SSRİ DİN Daxili qoşunların ictimai qaydaların mühafizəsində hüquq və vəzifələri haqqında" qanundan xəbərsiz idilər. Həmin qanunun 3-cü maddəsinin "b" bəndində deyilir: "ictimai qaydaların pozulmasının, əgər bu pozuntular kütləvi xarakter daşıyırsa, insanların həyatı və sağlamlığı üçün təhlükə yaradırsa, idarə və təşkilatların işini pozursa və ya dövlətin, ictimai təşkilatların və ya vətəndaşların əmlakının dağıdılması bunların qarşısının alınmasında iştirak edir." Bakıda yaranmış vəziyyət həm kütləvi xarakter daşıyırdı, həm insanların həyatı üçün təhlükə yaradırdı, həm də idarə və təşkilatların işini pozurdu. Belə bir vəziyyətdə Şatalin və Dubinyak kiminsə xahişini və ya müraciətini gözləməməli idilər.

Fərmanın məzmunundan göründüyü kimi, "Bakı şəhərində vəziyyətin kəskin gərginləşməsi, cinayətkar ekstremist ünsürlərin mitinqlər keçirməklə qanuni dövlət orqanlarında çevriliş etmək cəhdinin qarşısının alınması, habelə vətəndaşların mənafeini müdafiə etmək məqsədiiə SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə imzalanmışdır.

Belə bir vəziyyətdə Şatalin və Dübinyak nə üçün hərəkətsiz qalmışdılar? Ümumiyyətlə, ordunu Bakıya yeritməyə ehtiyac var idimi?

Gəlin görək SSRİ Ali Soveti Rəyasət heyətinin sədri Sovet Konstitusiyasının qarantı sayılan M.S.Qorbaçov fərmanı imzalayarkən həqiqətən SSRİ Konstitusiyasının tələblərinə əməl etmişdimi, çoxmilyonlu əhalisi olan şəhərdə fövqəladə vəziyyətin elan olunması üçün yerli hakimiyyət orqanlarının razılığı alınmışdırmı, əgər alınmışdırsa, o razılığı kim vermişdir, fövqəladə vəziyyətin elan olunması və şəhərə çoxminli silahlı ordunun yeridilməsi haqqında əhaliyə xəbərdarlıq edilmişdirmı? Araşdırması çox da asan olmayan bu suallara istintaq çavab verməli idi. Çətinliyi isə onda idi ki, SSRİ kimi nəhəng bir dövlət dağılmışdi. Dövlətlər arasında hüquqi münasibətləri tənzimləyən sazişlər yox idi.

Bakı şəhərində fövqəladə vəziyyətin elan olunması üçün Azərbaycan Respublikası Ali Sovetinin razılığı olub-olmamasını dəqiqləşdirmək üçün şahid qismində keçmiş

SSRİ-nin və Azərbaycanın yüksək vəzifəli şəxslərinin dundirilməsi, tələb olunduqda üzləşdirilmək lazım idi. Bunu isə Azərbaycanda həyata keçirmək çətin idi. Adi raykom işçisini şahid qismində dindirmək üçün raykom katibinin, şöbə müdirini dindirmək üçün Mərkəzi Komitənin razılığı alınmalı idi. Halbuki istintaq olunan cinayət işi üzrə Mərkəzi Komitənin Büro üzvləri, Ali Sovetin sədri, Nazirlər kabinetinin sədri və başqa vəzifəli şəxslər dindirilməli idilər.

Bakı şəhərində Ermənistandan, doğma ev-eşiyindən qovulmuş qaçqınlar tərəfindən erməni millətindən olanları zorla evlərindən çıxarıb mənzillərinə sahib olmaq əməliyyatı yanvar ayının 13-14-də başa çatmişdı. Həmin günlərdə Bakı şəhərində olan SSRİ Daxili işlər nazirliyinin Daxili qoşunları bunun qarşısını almağa cəhd belə göstərməmişdilər. 15 yanvar 1990-cı il tarixdə SSRİ Ali Soveti Rəyasət heyəti tərəfindən "Dağlıq Qarabağ Muxtar vilayətində və bir sıra sərhəd rayonlarda fövqəladə vəziyyət elan olunması" haqqında Fərman verilmişdi. Göründüyü kimi, Bakı şəhəri nəzərdə tutulmamışdı. 19 yanvar tarixdə Bakı şəhərində əvvəlki günlərə nisbətən sakitlik idi. Mərkəzi Komitənin binası qarşısında keçirilən mitinqlərdə Vəzirovun istefası tələb olunurdu. Mitinqləri Daxili qoşunlar vasitəsilə dağıtmaq mümkün idi.

Bakı şəhərində fövqəladə vəziyyətin elan olunması üçün nə əsas var idi, nə də kifayət qədər səbəb. Bakı şəhərində fövqəladə vəziyyət elan olunması və silahlı ordunun gecə yarısı şəhərə yeridilməsi üçün Qorbaçov Azərbaycan Respublikasının Ali Sovetinin razılığını almışdımı?. Bu suala birmənalı cavab vermək olar: YOX!

Həmin dövrdə Qorbaçovun davranışı, hərəkətləri ətrafdakılarla rəftarı konstitusiyalı dövlət başçısının deyil, Ali hakimiyyətə sahib olan mütləq monarxın hərəkətlərini xatırladırdı. Onun üçün yeganə avtoritet arvadı Raisa Maksimovna idi. O, hətta dövlət məsələlərinin həllində belə ətrafındakı mütəxəssislərdən əvvəl öz arvadı – Raisa Maksimovna ilə məsləhətləşir, onun razılığını alırdı. Raisa Maksimovna isə bahalı



hədiyyələrin aludəçisi idi. Azərbaycandan isə heç nə almamışdı. Bunu nəzərə almaq lazım idi.

Bir çox vəzifəli şəxslərin ifadələrindən göründüyü kimi, Bakı şəhərində fövqəladə vəziyyətin elan olunması üçün nə Azərbaycan Respublikasının razılığı alınmışdı, nə də həmin məsələ SSRİ-nin mərkəzi orqanlarında – Ali Sovetin Rəyasət heyətində və Sov.İKP MK Siyasi Bürosunda müzakirə olunmamışdır.

Siyasi Büronun üzvü Aleksandr Yakovlevlə söhbət zamanı, "Bakıda fövqəladə vəziyyətin elan olunması SSRİ Ali Soveti Rəyasət heyətində və ya Sov.İKP MK Siyası bürosunda müzakirə olunubmu?" sualına cavab olaraq baş barmağını tavana tuşlayıb dedi: "O, bu məsələni təkbaşına həll etmişdir". A.Yakovlevin otağı Moskvada, "Qorbaçov-fond"un Leninqrad prospektindəki binanın ikinci mərtəbəsində, onun üstündə üçüncü mərtəbədə Qorbaçovun kabineti yerləşirdı.

Eyni suala SSRİ Ali Soveti Rəyasət heyəti sədrinin müavini A.İ.Lukyanovun cavabı boş bir fərziyə idu: "Bakıda fövqəladə vəziyyətin elan olunması ilə əlaqədar Bakıdan kim isə telefonla zəng çalmışdı, lakin kim olması fikrimdə deyil."

Azərbaycan Respublikası Ali Soveti Rəyasət heyətinin keçmiş sədri Elmira Qafarova Lukyanovun ifadəsinə aydınlıq gətirərək göstərmişdir ki, yanvar ayının 19-da saat dördün yarısında Lukyanov ona telefonla zəng edib ümumi vəziyyət haqqında soruşmuşdur. Qafarova ona Bakıdakı vəziyyət haqqında məlumat verib bildirmişdir ki, Mərkəzi Komitənin binası qarşısında mitinqlər keçirilir, maqistral küçələr əhali tərəfindən bağlanmışdır, mitinqçilər rəhbərliyin istefasını tələb edirlər. Bundan sonra Lukyanov Bakıda fövqəladə vəziyyət elan etmək fikrində olmalarını ona çatdırmışdır. Belə vəziyyətdə Qafarova qəti etirazını bildirmiş və demişdir: "Bunu etmək olmaz, Bakıda Tbilisidə baş verən faciədən artıq facia baş verə bilər. Problemi siyasi yolla həll etmək lazımdır."

Daha sonra E.Qafarova ifadəsində göstərmişdir ki: "mən elə sandım Lukyanov mənim fikrimlə razilaşdı, Azərbaycan Respublikası Ali Sovetinin raziliği olmadan, SSRİ

Konstitusiyasının tələblərini pozub Bakida fövqəladə vəziyyət elan etməzlər."

Bir çox "kişilərdən" fərqli olaraq (Vəzirov həmin gecə təyyarə ilə Moskvaya uçmuşdu, Əbülfəz Əliyev (Elçibəy) İsmayıllı dağlarına, Rəhim Qazıyev və Nemət Pənahov Araz çayını keçib İrana qaçmışdılar. Pənah Hüseynov tanınmasın deyə, başına parik qoymaqla özünü qorudu) Elmira Qafarova həmin gecə saat 2-də Televiziya mərkəzinə gedib radio ilə xalqa müraciət etdi (Televiziya mərkəzində "rus ekstremistləri tərəfindən partlayış olduğundan verlişləri kəsilmişdi).

E.Qafarova çıxışında Bakıda fövqəladə vəziyyətin elan olunmasında Azərbaycan Respublikası Ali Sovetinin razılığı olmamasını təsdiq etməklə Azərbaycan xalqı adından respublikanın suverenliyinin pozulmasına qəti etirazını bildirdi. O, çəkinmədən, qorxmadan Azərbaycan Respublikası Ali hakimiyyət orqanları tərəfindən Bakıda fövqəladə vəziyyətin elan olunmasına razılığı olmamasını bəyan etməklə tökülən qanın bütün məsuliyyətinin həmin qərarı qəbul edənin, onu həyata keçirənlərin boynuna düşdüyünü, xalqın öz oğul və qızlarının faciəli ölümlərini heç kimə bağışlamayacağını elan etdi. E.Qafarovanin radio ilə çıxışı Qorbaçovun üzünə vurulmuş şillə idi.

E.Qafarovadan fərqli olaraq, Ə.Vəzirov Moskvaya uçandan sonra Qorbaçovun çağırışı ilə A.Mütəllibov, V.Polyaniçko, H.Həsənov və M.Məmmədov həmin gecə onun hüzuruna Moskvaya uçdular. E.Qafarova getmir. Qorbaçov, hüzuruna gələnlərdən birini Azərbaycanda MK birinci katib seçməli idi. Sov.İKP MK Siyasi bürosunun üzvlərinin iştirakı ilə keçirilən bu görüşdə Bakıdan gələn nümayəndələrdən biri də Qorbaçovdan qırğına yol verməsinin səbəbini soruşmamışdır. A.Mütəllibov Azərbaycan neftinin satılmasında Respublikanın iştirakını tələb etmiş, H.Həsənov isə Qorbaçova yalvararaq MK-nın birinci katibi olmaq istədiyini bildirmiş, söz vermişdir ki, canla-başla ona xidmət edəcəkdir. A.N.Yakovlevin ifadəsi ilə desək Siyasi büronun bütün üzvlərinin Həsənovdan zəhlələri gedirdi. Hamı



bilirdi ki, o, həm Xalq cəbhəsinə, həm də kommunistlərə işləyir. Qorbaçov Həsənovu heç eşitmək istəmirdi.

Çox təəsuflər olsun ki, tarixçilər və digər yazarlar Elmira Qafarovanin 20 yanvar 1990-cı il, gecə saat 2-də radio ilə mərdanə çıxışına qiymət verməyə cəsarət etmədilər. Onun çıxışına şərik çıxanlar az deyildı. Biri deyirdi: "onun çıxışını mən hazırlamışam", digəri deyirdi: "Onu Televiziya mərkəzinə mən aparmışam", bir başqası bəyan edirdi ki, Elmira xanım başina yaylıq bağlamışdı, ağlayırdı" və s. və i.a.

Bu kimi yazarların fikrincə, soyuq yanvar gecəsində Elmira xanım başıaçıq olmalı, ağır, faciəli gundə gulməli, Televiziya mərkəzinə özu, piyadə getməli idi...

Bakıda fövqəladə vəziyyətin elan olunmasında Azərbaycan tərəfinin razılığı olmamasını Azərbaycanın keçmiş rəhbərləri Vəzirov, Mutəllibov və Polyaniçko da ifadələri ilə təsdiq etmişlər.

Həmin dövrdə Nazirlər kabinetinin sədri vəzifəsində işləyən A.Mütəllibov qəti olaraq bildirdi ki, Bakıda fövqəladə vəziyyət elan olunması nə müzakirə edilmişdir, nə də ona razılıq verilmişdir.

V.Polyaniçkonun ifadəsindən göründüyü kimi yanvarın 17-dən Mərkəzi Komitə və Nazirlər Kabineti blokada vəziyyətində olmuşdur. Partiya və sovet orqanları işləmirdilər, bir çox rəhbərlər gizlənmişdilər. Yanvarın 19-da saat 22-də Mərkəzi Komitənin katibləri onun otağına toplaşıb yaranmış vəziyyəti müzakirə etməyə başlamışdılar. Qərara alınmışdı ki, Nazirlər kabinetinin sədri A.Mütəllibovun otağına gedib oradan SSRİ Nazirlər kabinetinin sədri N.Rıjkovla telefon əlaqəsi saxlasınlar. Onlar otaqa daxil olandan sonra Mütəllibov büronun iclasını keçirmək üçün Vəzirovu axtarmaqa başladı. Vəzirov büro üzvlərini toplamaqa söz versə də, onların gəlişinə inanmırdı. Elə də oldu. Yanvarın 20-də gecə saat bir radələrində Abşeron rayon partiya komitəsinin katibi A.Abasov və Rəhim Qaziyev qoşunun Bakıya yeridilməsi və atışma olması haqqında məlumat verdilər.

V.Polyaniçkonun ifadəsindən göründüyü kimi R.Qaziyevlə birlikdə Moskvanın nümayəndələri Primakov, Yazov və Girenko ilə danışıqlar aparıb, Bakıya qoşun yeridilməsi və çoxminli əhaliyə divan tutulması əmrinin kim tərəfindən verilməsini soruşduqda, cavab almışlar ki, əmri Qorbaçov vermişdir.

Bakıdakı vəziyyət haqqında hər gün bir neçə dəfə Qorbaçovla telefon əlaqəsi saxlayıb məlumat verən Qorbaçovun şəxsi nümayəndəsi, SSRİ Ali Soveti İttifaqlar Sovetinin sədri Yevqeniy Maksimoviç Primakovla görüşüb, onunla cinayət işi üzrə danışmaq və şahid qismində dindirmək mümkün olmadı.

Y.Primakovun dindirilməsi vacib idi. O, 20 yanvar ərəfəsində televiziya qarşısında çıxış edərək xalqa bəyan etmişdi ki, Bakıya qoşun yeridilməyəcək. O, son dəqiqədə Qorbaçovla telefon danışığı zamanı məlumat vermişdi ki, mitinq iştirakçıları əllərində dar ağacı Mərkəzi Komitənin binasına basqın ediblər. Kardon kagızdan düzəldilmiş simvolik dar agacından Primakovun qorxudan islanmış alt paltarını qurutmağa ehtiyacı var idi.

Y.Primakovu rəsmi olaraq dindirmək mümkün olmasa da onun "Годы в большой политике" kitabında 20 yanvar hadisələri ilə əlaqədar yazılarına rast gəlirik:

- Yanvarın 19-da Azərbaycan Kommunist partiyasının katibi Vəzirovun otağında olan zaman Qorbaçov telefonla zəng edib bildirdi ki, SSRİ Ali Soveti Rəyasət heyətinin qərarı ilə Bakıya qoşun yeridiləcəkdir. Mən Qorbaçova bildirdim ki, orduya rəhbərlik edə bilmərəm. Onun cavabı: "Bir saatdan sonra Müdafiə naziri Yazov və Daxili işlər naziri Bakatin Bakıya uçurlar". Qorbaçovun tapşırığına görə Girenko ilə birlikdə geri – Moskvaya qayıtmalı idik. Düzünü desəm, mən özümü həqiqətən artıq xoşbəxt sayırdım (Евгений Примаков, «Годы в большой политике», стр.402).

Primakovdan bundan artıq nə gözləmək olardı? Düzdür, Primakov həmin kitabda yazır ki, Bakıda dənizçilik məktəbində oxumuşdur, orada çoxlu dostları vardır. Təəsüflər olsun ki,



Primakovun Azərbaycanda dələdüz, axtarışda olan Məhərrəm Mustafayevdən başqa digər dostuna rast gəlmədik. Moskvada "Meqqi" kimi tanınan Mustafayevin qızının doğum günü ilə əlaqədar təşkil edilmiş ziyafətdə Primakov tamadalıq etmişdir. Bu həmin Məhərrəmovdur ki, A.Mutəllibov "7 ilin 70 anı" kitabında onun dələdüzlügündən geniş bəhs edir. Onu da göstərmək yerinə düşər ki, Primakov Bakıda oxuyanda Mustafayev hələ doğulmamışdı. "Meqqi" "Qorbaçov-fonda" da icazəsiz daxil olurdu. Basqa şəxslər "Fondun" binasına girmək üçün rəsmi vəsiqə alırdılarsa, "Meqqi" oraya öz mənzilinə daxil olurmuş kimi asudə girib-çıxırdı.

Yuxarıda adı çəkilən kitabda yerləşdirilmiş "Dostluq görüşləri" adlanan foto-şəkildə Primakovun ətrafında toplanmış "dostlarının" arasında bir nəfər azərbaycanlı (Azərbaycanın Moskvadakı nümayəndəliyin başçısı R.Rizayev), bir nəfər gürcü, bir-iki nəfər rus və qalan 7-8 nəfər erməni millətindən olan şəxslərin olması onun azərbaycanlılarla olan dostluğunun nə dərəcədə səmimı olmasına sübutdur.



21 yanvar 1990-cı il tarixdə Azərbaycan Respublikası Ali Sovetinin fövqəladə sessiyası SSRİ Ali Soveti Rəyasət heyətinin "Bakı şəhərində fövqəladə vəziyyətin elan olunması haqqinda" 19 yanvar 1990-cı il tarixli fərmanı mövcud qanunlara zidd olduğunu, fövqəladə vəziyyətin elan olunması üçün Azərbaycan Respublikası Ali Sovetinin razılığı alınmadığını, SSRİ Konstitusiyasının 81 və 119-cu maddənin 14-cü bəndinin tələblərinə zidd olduğunu, Azərbaycan Respublikasının suverenliyinin pozulmasını, SSRİ Müdafiə və Daxili işlər nazirliklərinin silahlı qoşunlarının və DTK xüsusi təyinatlı dəstələrinin Bakıya daxil olmaqla dinc əhaliyə divan tutmaları, habelə qanunsuz fərmanın həyata keçirilməsinə göstəriş verən və onun icrasını təmin edən vəzifəli şəxslərin Azərbaycan xalqına qarşı cinayət törətmələri ilə bağlı məsələlər müzakirə edildi. Bütün bunları nəzərə alaraq onun icrasını Ermənistanla qonşu rayonlar və Dağlıq Qarabağ istisna olmaqla bütün respublikada dayandırılması qəti tələb olundu.

Halbuki SSRİ Konstitusiyasının 119 maddəsinin 14-cü bəndinə əsasən SSRİ Ali Soveti bütün ölkə daxilində və ya ayrı bir bölgədə vətəndaşların mənafeyini və mühafizəsini müdafiə etmək məqsədilə fövqəladə və ya hərbi vəziyyət elan edərkən həmin respublikanin Ali Sovetinin razılığı alınmalı idi. Bakı şəhərində fövqəladə vəziyyət elan olunarkən belə bir razılıq alınmamışdır. Bundan əlavə, 1966-cı il Vətəndaşların mülki və siyasi hüquqları haqqında Beynəlxalq paktın 4-cü maddəsinin 1-ci bəndinə əsasən fövqəladə vəziyyət elan olunmamışdan və qoşun yeridilməmişdən əvvəl əhali xəbərdarlıq edilməli idi. Qorbaçov buna da əməl etməmışdi. Ona gorədə Azərbaycan Respublikasının Ali Sovetində həmin məsələ müzakirə edilərkən Fərman əsassız olduğundan SSRİ Ali Sovetindən tələb olunmuşdur ki, qanuna zidd imzalanmış Fərman ləgv edilsin.

Buna baxmayaraq Qorbaçov tərslik etdi. Fərman ləgv olunmadı. Bakı iki il fövqəladə vəziyyətdə yaşadı. Ondan bəhrələnənlər də oldu. Bu haqda sonra...



Elmira Qafarovadan sonra Qorbaçovun üzünə ikinci "şillə vuran" Qafqaz müsəlmanları ruhani idarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə oldu. O, Sov.İKP MK baş katibi, SSRİ Ali Sovetinin sədri M.Qorbaçova ünvanladığı müraciətdə yazırdı:

- Ağır tankların altında qalmış, güllələnmiş meyidlər, yaxından silahsız insanlara silahı dirəməklə atəş açıb meyidləri tanınmaz vəziyyətə salmaq milyonlarla Azərbaycan xalqını hiddətləndirmışdır.

Dövlət başçısı kimi imzaladığınız belə ağır, qanlı qırğına səbəb olan cinayətə heç vaxt bəraət qazandırmaq olmaz.

Sülhpərvər şəxs kimi haqqınızda yayılmış mif artıq dağılmışdır. Bir əli ilə xarici ölkələrlə sülh müqaviləsi bağlayan, digər əli ilə öz xalqını qırğına verən qərarlar imzalyan şəxsi sülhpərvər kimi tanımaq nadanlıqdır. Heç bir müharibədə həkimlərin güllələnməsinə yol verilməmişdir. Siz isə öz xalqınızın, o cümlədən həkimlərin də güllələnməsinə qərar verdiniz.

Eşitdimi Qorbaçov Elmira Qafarova ilə Allahşükür Paşazadənin ona ünvanlanmış müraciətlərini?

Mərkəzi televiziya ilə çıxışında öz cinayətkar əməllərinə bəraət qazandıran Qorbaçov bildirdi ki, güya Sovet xalqı hakimiyyət rəhbərliyindən əsaslı olaraq Azərbaycanda qanunların bərpa olunmasını, qayda-qanun yaradılmasını, vətəndaşların əmin-amanlığını təmin etməsini tələb etdikdən sonra o, Bakı şəhərində fövqəladə vəziyyətin elan olunmasına və qoşun yeridilməsinə Fərman vermişdir. Onun sözlərinə görə Sovet ordusunun və Daxili qoşunların əsgər və zabitləri Bakıda SSRİ Konstitusiyasının qorunmasında öz borclarını yerinə yetirmuşlər.

Həyasızlığın dərəcəsinə bax! Konstitusiyanın qarantı sayılan dövlət başçısı Konstitusiyanın tələblərini kobud surətdə pozduğu halda, əsgər və zabitlər tərəfindən Konstitusiyanın müdafiəsindən bəyanat verir. Bax, belə! İnsanları qırmaqla Konstitusiya qorunur?!

Maraqlıdır, axı kim Qorbaçovdan qanunu bərpa etmək üçün Bakıya qoşun yeritməyi tələb etmışdi? Nə üçün əsgər və

zabitlər Konstitusiyanı müdafiə etməkdə Bakıda öz əsgəri borclarını yerinə yetirirlər, Sov.İKP MK baş katibi, SSRİ Ali Sovetinin sədri, SSRİ hərbi qüvvələrin baş komandanı Qorbaçov isə Konstitusiyanın tələblərini pozur?

Halbuki İnsanların təhlükəsizliyini müdafiə etmək üçün Bakıya göndərilmiş əsgər və zabitlər də özlərinin Ali baş komandanı kimi xidməti borclarını yerinə yetirmişdilər. Onlar günahsız insanları yaxın məsafədən güllə atəşinə tutur, ağır tanklarla insanları bastalayır, istifadəsi qadağan olunmuş 5.45 kalibrli güllələrdən istifadə edirdilər.

Bakıya qoşun yeridilməsi əməliyyatına "Zərbə" adı verilmişdi. Görəsən kimə zərbə vururdular. Öz xalqına da zərbəmi vurarlar?

"Zərbə" əməliyyatına rəhbərlik edən SSRİ Müdafiə naziri, ordu generalı (Bakı əməliyyatından sonra marşal rütbəsinə layiq görüldü) D.Yazov, tabeçiliyində ölan əsgər və zabitlərin törətdikləri cinayətləri müdafiə edərək yazırdı:

- Onlar, baş verə biləcək ağır faciənin, minlərlə insanın ölümünün qarşısını soyuqqanlıqla, qəhrəmancasına ala bildilər. Onlar beynəlmiləl börclarının düzgün yerinə yetirilməsini dərindən başa düşdülər". ("Pravda" qəzeti, 23 fevral 1990-cı il). Görəsən hansı qəhrəmanlıqlardan, təmkinli və soyuqqanlı olmalarından danışır müdafiə naziri? Nə qədər ədəbsiz, sırtıq və həyasız olmalısan ki, onlarla günahsızların olümünü, yüzlərlə insanın güllə yarası almasını, törədilən digər cinayətlərə qəhrəmanlıq adı verəsən?!

Ağır tankın üzərinə gəlməyini görüb maşından düşüb qaçan 14 yaşlı İbrahimovu arxadan güllə ilə vurmaq, atasının yanında avtobusla evə gedən 13 yaşlı Larisanı güllələmək, 58 yaşlı Şərifovu azyaşlı nəvəsi ilə həyət qapısına çıxıb tanklara tamaşa edən zaman nəvəşi ilə birlikdə güllələmək, 16 yaşlı Bessantinanı pəncərədən tanklara tamaşa edərkən, 77 yaşlı Babayevanı mənzilində çay içərkən, təcili yardım maşini ilə yaralanmışlara yardım göstərmək üçün hadisə yerinə gedən həkim Marxevkanın güllələnmələri və ya ağır tank ilə içərisində üç nəfər elmlər doktoru olan minik maşınının üzərinə çıxmaqla



hər üçünü (Məmmədova, İbrahimov və Mürsaqulov) öldürmək, və ya hərəkətdə olan avtomaşını saxlamaq üçün sürücüyə 32 güllə yarası vurmaq (Rüstəmov), taksi maşınını ələ keçirib yük təyyarəsi ilə yaşadığı Tula şəhərinə göndərmək üçün üç azyaşlı uşağın atası, sürücü İsmayılovun başını kəsmək qəhrəmanlıqdırmı? Bunların hamısı soyuqqanlıqla törədilmiş ağır cinayətlərdir.

1992-ci ilin fevral ayında D.Yazov FHDK (ГКЧП) işi üzrə "Lefortovo" (Матросская тишина) tədridxanasında həbsdə olan zaman Azərbaycan Respublikasının keçmiş prokuroru mərhum M.K.Babayev və onun köməkçisi İ.Q.Əsgərov tərəfindən dindirilərkən eyni həyasızlıqla öz cinayətkar hərəkətlərinə bəraət verərək göstərmişdir ki, o, Qorbaçovun göstərişi ilə 19 yanvarda Daxili işlər naziri Bakatinlə Bakıya gəldikdən sonra vəziyyətin ağırlığını nəzərə alaraq fövqəladə vəziyyətin elan olunması qərarına gəlmiş və ordunun Bakıya daxil olmasına əmr vermişdir. Yazovun ifadəsindən belə görünür ki, Qorbaçov onu Bakıya yola salanda oradakı vəziyyətlə tanış olub qayda-qanun yaratmağı tapşırıbmış. Ordu Bakıya daxil olanda əhali ona silahlı müqavimət göstərmişdir. O, özü şəxsən vertolyotla şəhərin üzərində uçaraq hər şeyi seyr etmişdir. O, görmüşdür ki, əhali 70 km. məsafədə yolları kəsmiş, barrikadalar yaratmış, silahlıların Salyan kazarmalarında yerləşən kilsənin damından və yaşayış evlərinin pəncərələrindən atdıqları güllələrdən insanların ölümünü müşahidə etmişdir. Ona hətta şəhidlərin ölən günü deyil, 2-3 gündən sonra dəfn olunması, 49 nəfərin ölməsinə baxmayaraq yüzə qədər qəbir qazılması da şübhəli gəlmişdir.

Yenə yalan, yenə iftira! Yazov Qorbaçovdan "Bakıda qayda-qanun yaratmaq" tapşırığını yanvarın 19-da deyil, xeyli əvvəl almışdı. Onun tapşırığına əsasən Baş qərargah general Moiseyevin rəhbərliyi altında Bakıya qoşun yeridilməsi planı hazırlamış və ona məxfi olaraq "Zərbə" adı vermişlər. Bundan sonra hərbi çağırış elan olunmuş və ermənilərin çoxluq təşkil etdiyi Rostov vilayətində və Stavropol ölkəsində yaşayan başkəsənlər təcili olaraq ordu sıralarına çağırılaraq Bakıya

göndərilmişdir. Azərbaycan DTK-nin sədri V.Hüseynovun səyi nəticəsində hadisədən iki gün sonra hərbi hissələrlə Bakıya gəlmiş ermənilər Bakıdan uzaqlaşdırılmışlar. Lakin onlar artıq öz işlərini görmüşdülər. Birinci gün yüzdən artıq Azərbaycan vətəndaşı şəhid olmuşdu.

İnanmaq olmur ki, Yazov vertolyotla şəhərin üzərində uçarkən "məktəbli qızların, Larisa Məmmədova və Vera Bessantinanın və ya 77 yaşlı Süreyya Babayevanın əsgərlərə güllə atmalarını" görə bilsin, lakin əvvəllər xuliqanlığa görə məhkum olunmuş, Tula şəhərindən təcili olaraq ordu sıralarına çağırılmış, 33742 saylı hava desant hissəsi ilə Bakıya göndərilmiş cinayətkar şəxsin taksı maşınını ələ keçirib yük təyyarəsi ilə Tulaya göndərmək istəyən praporşik Straxovun taksinin sürücüsü, üç azyaşlı uşağın atası İsmayılovun başını kəsməyini görməsin.

Heç inanmaq olmur ki, Yazov vertolyotla şəhərin üzərində uçarkən qazılmış qəbirlərin sayının şəhid olanların sayından artıq olmasını görə bilsin. Həqiqətən, təkcə 20 yanvar gecəsində Yazovun əsgərlərinin güllələrindən şəhid olanların sayı yüzdən artıq idi.

Ordu Bakıya soxulmamışdan əvvəl Yazov xalqı xəbərdarlıq etsəydi bir o qədər ölüm olmazdı.

Mərhum prokuror M.Babayevin: "Fövqəladə vəziyyətin elan edilməsi və ordunun şəhərə yeridilməsinin huquqi qaydaları var, Siz isə heç əhalini belə xəbərdar etmədən Ordunu Bakıya yeritmişsiniz, bununla da çoxlu insan tələfatına yol vermişsiniz", sualına Yazov bir daha həyasızlığını nümayiş etdirib, ağ yalanla cavab vermişdir:

- Ordu şəhərə gecə saat 3-də yeridilmişdir. Nizam-intizamlı, düzgün adamlar bu vaxt yatırlar. Bunu nəzərinizə çatdırmaq üçün deyirəm. Ümumiyyətlə isə Sizin suallarınıza cavab vermək istəmirəm. Belə ki, ölkələrimiz arasında hüquqi qaydaları tənzimləyən müqavilə yoxdur. Bununla da M.Babayevin kəskin suallarına düzgün cavab tapmayan marşal cavab verməkdən imtina etmişdir.



Yazov bilirdi ki, general A.Lebedin bandit dəstəsi həmin axşam saat 22-də Binə hərbi aeroportundan çıxıb Bakı şəhəri istiqamətində qarşısına çıxan bütün canlılara atəş açmışdır. Saat 22.05-də birinci olaraq Lebedin dəstəsinin gülləsinə Fuad Mövludov tuş gəlmişdir. Qala-Türkan-Şüvəlan yol ayrıcında güllə yarası alan 22 yaşlı Mövludov yanvarın 25-də Mərdəkandakı 26 saylı xəstəxanada ölmüşdür. Saat 23-də yaralılara tibbi yardım göstərməyə gedən həkim A.Marxevka təcili yardım maşınında güllə yarası almışdı və maşında keçinmişdi.

Həmin gecə Lebedin bandit dəstəsi tərəfindən saat 22-dən 24-ə kimi atılan güllələrdən A.Əsədullayev, K.Məmmədov, V.Mirzəyev, V.Tokarev, R.Rüstəmov, Z.Əliyev, Y.Meeroviç, E.Mirzəyev, S.Əşrəfov, N.Yaqubov və C.Xanməmmədov yaralanaraq şəhid olmuşdular. Törətdiyi cinayətlərə görə həmin ilin fevral ayının 17-də polkovnik Lebedə "general-mayor" rütbəsi verilmişdir.

Y.A.Pompeyev "Qarabağ gündəliyi" kitabında yazır: - "Desant generalı A.İ.Lebed ermənilərin çoxluq təşkil etdiyi Rostov vilayəti, Krasnodar və Stavropol ölkələrindən tələsik ordu sıralarına çağırılmış "partizanlarla" Bakını almışdır."

"Московские новости" qəzeti 12 avqust 1990-cı il tarixdə yazırdı: "Bakıda erməni talanları qurtardıqdan sonra şəhərə qoşun yeridildi. Tankların və bronomaşınların şəhərə yeridilməsi aksiyası dinc insanların müdafiəsinə deyil, onları cəzalandırmağa yönəldilmişdir.

Bakıda fövqəladə vəziyyət elan etməklə :

- insanların durduğu yerdə xüsusi amansızlıqla güllələnməsinə;
- qəsdən ağır tanklarla içərisində sərnişin olan maşınları bastalamagla maşında olanların öldürülməsinə;
- xəstəxanaların, təcili yardım maşınlarının güllələnməsinə;
- insan bədəninə dəydikdə istiqamətini dəyişməklə əzablı ölüm gətirən 5.45 kalibrli güllələrdən istifadə olunmasına;

- soyğunçuluğa, evlərin qarət olunmasına, saxlanılan və həbsə alınanlara qarşı təhqirlərə və insani ləyaqətlərini alçatmağa yol verilmişdır."

Müstəqil ekspertlərin rəyinə görə 20 yanvar 1990-cı il tarixdə Bakı şəhərində hərbi cinayət baş vermişdir. Buna görə də Müdafiə naziri D.Yazov haqqında cinayət işi başlanmalı idi.



## Dinc əhalinin güllələnməsi

Azərbaycan Respublikası Ali Sovetinin İstintaq komissiyasının 19-20 yanvar 1990-cı il tarixdə Bakı şəhərində baş vermiş dəhşətli hadisələrin istintaq materiallarından:

1990-cı ilin yanvar ayının 19-dan 20-ə keçən gecədə Bakı şəhərində öz amansızlığı ilə fərqlənən, çoxlu miqdarda dinc əhalinin ölümünə səbəb olan dəhşətli cinayət aksiyası baş vermişdir. Bu cinayət çoxmillətli Azərbaycan xalqını dərindən sarsıtmışdır.

İttifaqın hakimiyyət orqanları dövlət qanunlarına, beynəlxalq hüquq normalarına, Azərbaycanın suverenlik hüquqlarına laqeyd yanaşaraq, SSRİ-nin yaranması müqaviləsini, SSRİ və Azərbaycan Respublikası Konstitusiyalarının tələblərini kobudluqla pozaraq, respublikanın ali orqanlarının razılığı alınmadan silahlı qoşun hissələrini Azərbaycan Sovet sosialist respublikasına yeritdilər və Baki şəhərində fövqəladə vəziyyət elan etdilər.

Fövqəladə vəziyyət elan olunması haqqında şəhər əhalisi əvvəlcədən xəbərdarlıq edilməmişdir. Aksiyanın başlancığından 7 saat sonra hərbi komendant fövqəladə vəziyyətin elan olunması haqqında məlumat vermişdir. Əməliyyatın keçirilməsində böyük miqdarda quru qoşunları, hərbi-dəniz, hərbi-hava və hava desant, habelə SSRİ DİN Daxili qoşunları və DTK xüsusi təyinatlı dəstələri iştirak etmişlər. Bakıya daxil olmuş hərbi hissələr və birləşmələr qəddarlıqları ilə fərqlənmişlər.

Hərbçilər tərəfindən ağır tanklardan, dağıdıcı güllələrdən istifadə olunmaqla beynəlxalq hüquqi normalar kobud surətdə pozulmuşdur.

Törədilmiş qanlı cinayəti geniş ictimaiyyətdən gizlətmək məqsədilə xarici ölkələrin respublikaya tibbi yardım göstərilməsinin qarşısı alınmışdır. Gəlin birlikdə, istintaq materialları çərçivəsində hər bir ölümün səbəbini, tarixini və yerini nəzərdən keçirək:

Abdullayev Əyyub Mahmud oğlu, 1967-ci ildə Ermənistan Respublikasının Ararat rayonunda anadan olmuşdur. Erməni millətçiləri tərəfindən öz evindən-eşiyindən qovulduqdan sonra Bakıda yaşamışdır. 20 yanvar tarixdə, XI Qızıl orduya qoyulmuş abidənin yanında aldığı güllə yaralarından hadisə yerində şəhid olmuşdur. Abdullayevin bədənində beş güllə yarası var idi.

Abduyev Tarıel Oruc oğlu, 1949-cu ildə Ermənistanda doğulmuşdur. Qaçqın həyatı yaşamışdır. 20 yanvar tarixdə XI Qızıl orduya qoyulmuş abidənin yanında güllə yarası almış, yanvarın 27-də aldığı yaradan ölmüşdür. Abduyevə dəyən güllə bütün daxili orqanlarını dağıtmışdır. İki azyaşlı uşağı atasız qalmışdır.

Alimov Ramis Xarisoviç, 1958-ci il təvəllüdlü, 20 yanvar tarixdə Tbilisi prospektində sinəsindən aldığı güllə yarasından yerindəcə ölmüşdür.Öhdəsində bir azyaşlı uşaq var idi.

Ağaverdiyev Aslan Əlikərim oğlu, 1952-ci ildə doğulmuşdur. Yanvarın 19-da, saat 24-ə bir neçə dəqiqə qalmış, yaşadığı C.Cabbarlı küçəsi 54 saylı evin həyətində aldığı güllə yarasından ölmüşdür. Ağaverdiyevə atılan güllə onun nazik və yoğun bağırsaqlarını, habelə mədəsini dağıtmışdı. Öhdəsində olan üç azyaşlı uşaq atasız qalmışlar.

Əliyev Xalqan Yusif oğlu, 1969-cu ildə dogulmuş, dülgər işləmiş, yanvarın 19-dan 20-ə keçən gecə, Tbilisi prospektində, 75 saylı evin yaxınlığında belindən yaralanmışdır. Güllə onun daxili orqanlarını dağıtmışdır. Əliyev hadisə yerində həlak olmuşdur.

Əliyev Bayram Mədət oğlu, Ermənistan Respublikasının Kaminski rayonunda doğulmuşdur, yanvarın 20-də döş qəfəsinin əzilməsindən və boğulmaqdan ölmüşdür.

Əliyev Zəbulla Xeyrulla oğlu, 1946-cı ildə anadan olmuş, 5 azyaşlı uşaqın atası, yanvarın 20-də, XI Qızıl orduya qoyulmuş abidənin yaxınlığında başından aldığı güllə yarasından həlak olmuşdur.

Mirzəyev Azad Əliheydər oğlu, 1961-ci ildə doğulmuş, 20 yanvar tarixdə "Olimp" mağazasının üstündə, öz mənzilində, pəncərədən İnşaatçılar prospektində hərəkət edən tanklara baxarkən sinəsindən güllə ilə yaralanmışdır. Aldığı yaradan oradaca olmüşdür.



Atakişiyev Şakir Xandadaş oğlu, 1960-cı il təvəllüdlü, yanvarın 19-dan 20-ə keçən gecə M.Quliyevin idarə etdiyi "Jiquli" maşınında işdən Sumqayıta - evə qayıdarkən hərbçilərə rast gəlmiş, atılan güllələrdən Atakişiyev maşında həlak olmuş, sürücü Quliyev yaralanmışdır. Atakişiyevin bədənində, arxadan kürəyinə dəymiş 6 güllə yarası var idi.

Ələsgərov Zaur Rasim oğlu 1969-cu ildə anadan olmuş, yanvarın 19-dan 20-ə keçən gecə XI Qızıl ordu abidəsi yanında kəllə nahiyəsindən aldığı güllə yarasından hadisə yerində həlak olmuşdur.

Allahverdiyev İlham Əjdər oğlu, 1962-ci il təvəllüdlü, Bünyadzadə adına zavodda çilingər işləmişdir. Yanvarın 19-da, gecə evdə olarkən atışma səsinə küçəyə çıxmışdır. "Əmin-amanlıq yaratmaq" üçün Bakıya gəlmiş hərbçi avtomatını ona tuşlamış, Allahverdiyev aldığı bircə gülledən ciyəri, böyrəyi və mədəsi dağıdılmışdır.Həyat yoldaşının ölüm xəbərini eşidən, 1970-ci ildə Ermənistanın Spitak rayonunda doğulmuş Allahverdiyeva Fərizə Çoban qızı sirkə turşusu



içərək intihar etmişdir.
Rafiq Səməndərin "Şəhidlər" kitabında Allahverdiyevlər haqqında yazdığı "İlham və Fərizə" dastanında belə bir yazıya rast gəlirik:-"... kimsə dedi:
-Atırlar... ancaq deyəsən boş güllələrdir.
İlham dedi:
-Ə, başınız xarabdı, nə boş gülədi. Görmürsən işıq salır.
Bir anlıq hamı çaşbaş qaldı. Çoxu dağılışdı. İlhamsa yanında qalan uşaqlara qayıtdı ki:
Ə, bunlar qırır e camaatı... Elə bilirlər camaatda silah var. Gəlin qoymayaq.
- Necə qoymayaq, biz neyləyə bilərik?
Bunu kim dedi, İlham eşitmədi.
Bir də onu gördülər ki, İlham əllərini qaldırıb tankların qabağına keçdi.
- Soldatı, ne strelyayti, lyudi bez oruji.
Bu rusca deyilən sözlər İlhamın son sözləri, son nəfəsi, son nidası oldu.
Güllələr amansızcasına qarnına doldurulub. Uşaqlar onu kənara çəkəndə yenə son dəfə gözlərini açıb.
Anama deməyin...
Gözlərini yumub.Yoldaşları onu silkələyib.
-İlham...İlham... Nə oldu sənə?
İlham ikinci dəfə gözlərini açıb:
-Anamı istəyirəm, anamı görmək istəyirəm.
Utandığından Fərizənin adını çəkməyib."
Onları yanvarın 22-də bir yerdə dəfn etdilər.
Allahverdiyevlərin 30 iyul 1989-cu ildə toyları olmuşdu.
Bunyətzadə Ülvi Yusif oğlu, 1969-cu ildə Ermənistan respublikasında anadan olmuş, Xarici dillər institutunun tələbəsi idi, yanvarın 20-ə keçən gecə XI Qızıl orduya qoyulmuş abidənin yaxınlığında kəllə sümüyündən aldığı güllə yarasından hadisə yerində həlak olmuşdur.
Bayramov İsabala Əli oğlu, 1967-ci ildə Ermənistan Respublikasının Quqark rayonunda anadan olmuş, 20 yanvar tarixdə XI Qızıl ordu abidəsi yanında, arxa tərəfdən, kəllə



sümüyündən aldığı güllə yarasından hadisə yerində həlak olmuşdur.
Babayeva Sürəyya Lətif qızı, 77 yaşlı "ekstremist" qadın, yanvarın 22-də, Tbilisi prospekti 1 saylı evin 29-cu mənzilində, saat 17 radələrində, öz evində çay içərkən alnından aldığı güllə yarasından şəhid olmuşdur.
Hüseynov Rahib Məmməd oğlu, 1939-cy ildə anadan olmuş, 1990-cı ilin fevral ayının 12-də saat 16.40-da taksi maşınında gedərkən, "Xəzər" kinoteatrının qarşısında rus ordusunun serjantı Samborskinin gülləsinə tuş gəlmişdir. Güllə onun kəllə sümüyünü dağıtmışdır.
Nişenko Andrey Aleksandroviç, 1972-ci ildə doğulmuş, 19 yanvar tarixdə yaxın dostu azərbaycanlı F.Rzayevlə şəhərdə gəzişdikdın sonra, gecə saat 24 radələrində evə qayıdarkən "Xəzər" kinoteatrı qarşısında qəflətən tanklarla qarşılarına çıxan hərbçilər onlara atəş açmışlar. Onlar təhlükəsiz yer axtarmaqla hərəsi bir tərəfə qaçmışdır. Buna baxmayaraq Rzayev ayağından yaralanmış, Nişenkonun meyidini səhər valideynləri ölüxanada boğazı kəsilmiş halda tapmışlar.
Əzizov Habil Kommunar oğlu, 1968-ci ildə doğulmuş, Azərbaycan Xalq təsərrüfatı institutunun tələbəsi, yanvarın 20-də ağır tank onun üstünə çıxmaqla döş qəfəsini və kəllə sümüyünü əzmişdir.
Əliyev Rüstəm Şahvələd oğlu, 1965-ci il təvəllüdlü, yanvarın 20-də Salyan kazarmaları yaxınlığında ciyərinə və mədəsinə tuşlanmış gülədən ölmüşdür.
Əhmədov İlqar Hümmət oğlu, 1965-ci ildə anadan olmuş, Azərbaycan Politexnik institutunun tələbəsi yanvarın 20-ə keçən gecə Salyan kazarmaları yaxınlığında başından, köks qəfəsindən və sağ çiynindən aldığı güllə yaralarından hadisə yerində şəhid olmuşdur.
Ağahüseynov Ağahəsən Yarı oğlu, 1957-ci ildə doğulmuş, yanvarın 20-ə keçən gecə Salyan kazarmaları rayonunda yaxın məsafədən, çoxlu miqdarda aldığı güllə yaralarından hadisə yerində şəhid olmuşdur.

Məmmədov İbrahim Behbud oğlu, 1961-ci ildə anadan olmuş, yanvarın 20-də Salyan kazarmaları rayonunda qarın nahiyəsindən aldığı güllə yarasından şəhid olmuşdur.

Ələkbərov Azər Nəsib oğlu, 1967-ci ildə doğulmuşdur, İncəsənət institutunun tələbəsi, yanvarın 20-də Salyan kazarmaları yaxınlığında arxa tərəfdən boyun nahiyəsinə dəymiş güllə kəllə sümüyünü sındırmışdır. Ələkbərov hadisə yerində dünyasını dəyişmişdir. Himayəsində iki azyaşlı uşağı var idi.

Məmmədov Səxavət Heydər oğlu, 1958-ci ildə anadan olmuş, yanvarın 20-də dənizçilərin "Kaspar" xəstəxanasının yaxınlığında başından dəymiş güllə yarasından ölmüşdür. Məmmədovun iki azyaşlı uşağı qalmışdır.

Həmidov İzzət Atakişi oğlu, Şəki şəhər Partiya Komitəsinin keçmiş ikinci katibi, yanvarın 20-də saat 12 radələrində maşında gedərkən, Salyan kazarmaları rayonunda hərbçilərin gülləsinə tuş gəlmişdir. Həmidovun üç uşağı, dörd nəvəsi var idi.

Abdullayev Zahid Abdulla oğlu, 1959-cu ildə dogulmuşdur, "Azərelektromaş" İstehsalat birliyinin fəhlələri Abdullayev Zahid Abdulla oğlu, 1959-cu il təvəllüdlü və Tuxtamışov Fərhad Şərifullayeviç, 1958-ci il təvəllüdlü yanvarın 19-dan 20-ə keçən gecə marşrut avtobusu ilə işdən evə qayıdarkən Tbilisi prospektində, Salyan kazarmaları yaxınlığında avtobus hərbçilər tərəfindən avtomat atəşinə tutulur. Abdullayev və Tuxtamışev hər ikisi başlarından aldıqları güllə yaralarından həlak olmuşlar.

Qasımov Yusif İbrahim oğlu, 1948-ci ildə anadan olmuş, "Şərur" kafesində fəhlə işləmişdir. Gecə saat 00.30-da işdən evə qayıdarkən "Xəzər" kinoteatrının yaxınlığında hərbçilərlə rastlaşır. Hərbçilər Yusifi də hədəf seçirlər. Başından aldığı güllə yarasından yerindəcə keçinir. Qasımovun iki azyaşlı uşağı atasız qalırlar.

Bessantina Vera Lvovna, 1973-cü il təvəllüdlü məktəbli qız küçədən keçən tankların səsinə yuxudan oyanıb pəncərədən



boylanan zaman hərbçilərin gülləsinə tuş gəlir. 17 yaşlı məktəbli qız onu nişan alan əsgərə "ekstremist" görünür.

Allahverdiyev Ruslan Kamal oğlu, 1967-ci ildə doğulmuşdur. Şampan çaxırları zavodunda fəhlə işləmiş, Salyan kazarmaları rayonunda yüzlərlə özü kimi cavanlarla birlikdə Ordunun Bakıya yeridilməsinə narazılığını bildirmək istəyəndə sinəsindən ölümünə səbəb olan güllə yarası almışdır.

Salahov Şərafəddin Müzəffər oğlu, 1969-cu ildə doğulmuşdur, trikotaj fabrikində fəhləlik etmişdir, yanvarın 20-də metronun "İnşaatçılar" stansiyasında arxadan kəllə sümüyünə dəymiş güllə beynini zədələmişdir. Salahov hadisə yerində həlak olmuşdur.

Kərimov Oqtay Eyvaz oğlu, 1964-cü ildə Ermənistanın Krasnoselski rayonunda doğulmuşdur, Bakı baş tikinti idarəsində briqadir işləmişdir. Yanvarın 20-ə keçən gecə metronun "Gənclik" stansiyası yaxınlığında aldığı güllə yarasından həlak olmuşdur.

İsayev Fəxrəddin Xudu oğlu, 1963-cü ildə anadan olmuşdur, Cənub geologiya idarəsində sürücü işləmişdir. Yanvarın 20-də X1 Qızıl orduya qoyulmuş abidənin yanında "Qızıl ordunun" əsgəri tərəfindən döş qəfəsindən və qarın nahiyəsindən aldığı iki ağır güllə yarasından şəhid olmuşdur .

İsayev Müşviq Ağəli oğlu, 1968-ci ildə doğulmuşdur, idman təlimatçısı idi. Yanvarın 20-ə keçən gecə stadionun yaxınlığında, Dzerjinski adına parkda aldığı güllə yarasından həlak olmuşdur.

İsmayılov Rəşid İslam oğlu, 1949-cu ildə doğulmuşdur. Yanvarın 19-dan 20-ə keçən gecə öz həyətində Bakıya "əmin-amanlıq yaratmaq üçün" gəlmiş Rus-Sovet əsgərinin gülləsinə tuş gəlmişdir. İsmayılov yanvarın 23-də xəstəxanada dünyasını dəyişmişdir. Onun iki azyaşlı uşağı atasız qalmışdır.

Həsənov Əli Xudaverdi oğlu, 1954-cü ildə anadan olmuşdur. Sürücü işləmişdir. Yanvarın 20-də Respublika stadionu yaxınlığında başından və üzünün sol hissəsindən aldığı güllə yarasından həlak olmuşdur. Himayəsində olan iki azyaşlı uşaq atasız qalmışlar.

Əbülfətov Mircamal Mirsaleh oğlu, 1958-ci ildə anadan olmuş, Beynəlxalq yükdaşıma idarəsində fəhləlik etmişdir. Yanvarın 20-də Tbilisi prospektində bir-çox qabırğasının sınıb-əzilməsi nəticəsində həlak olmuşdur.

Cavanşirov İlkin Zülqədər oğlu. 1933-cü ildə doğulmuş, taksi sürücüsü, yanvarın 19-dan 20-ə keçən gecə, iş vaxtı, taksi maşınında sərnişin aparARKən, "Naxçıvan" mehmanxanasının yaxınlığında peysərindən güllə yarası almışdır. Cavanşirov yanvarın 23-də xəstəxanada dünyasını dəyişmişdir. Onun doqquz uşağı atadan yetim qalmışlar.

İsayev Rauf Soltan oğlu, 1962-ci il təvəllüdlü, Bakı kondisionerlər zavodunda operator vəzifəsində işləmişdir. Yanvarın 19-dan 20-ə keçən gecə, Tbilisi prospektində, Salyan kazarmaları yaxınlığında Sovet əsgəri tərəfindən atılan güllə onun baş nahiyəsinə dəyərək kəllə sümüyünü və beynini dağıtmışdır. İsayev hadisə yerində həlak olmuşdur. İsayevin iki azyaşlı uşağı qalmışdır.

Xanmədov Baba Məhəmməd oğlu, 1939-cu ildə doğulmuşdur, 84 saylı peşə-texniki məktəbində müəllim işləmişdir. Yanvarın 20-ə keçən gecə köməyə çağırış səsinə həyətə çıxarkən Xanmədov güllə yarası almış şəxslə rastlaşır. Yaralıya kömək etmək istərkən sinəsinə güllə dəyir. Xanmədovu dəmir yolu xəstəxanasına çatdırsalar da ölümün qarşısını almaq mümkün olmamışdır. 5.45 kalibrli güllə "İşini görmüşdü". Xanmədovun himayəsində iki azyaşlı uşaq var idi.

Nəsibov Allahyar İskəndər oğlu, 1952-ci ildə Ermənistanın Amasi rayonunda anadan olmuşdur. Yanvarın 20-də X1 Qızıl ordu abidəsinin yaxınlığında döş qəfəsindən aldığı güllə yarasından həlak olmuşdur. Himayəsində dörd azyaşlı uşaq var idi.

İbrahimov İlqar Rəşid oğlu, 1976-cı ildə doğulmuşdur. 167 saylı məktəbin şagirdi, 13 yaşlı "ekstremist" bütün günü Ordunun Bakıya gəlməsin etiraz edənlərin arasında, piketlərdə olmuşdur. O, öz dövrünün "qavroşu" idi. Yanvarın 20-də, gecə saat 2-3 radələrində İlqar, Nəriman Ələkbərovun idarə etdiyi "Zaporojes" maşınında olarkən ağır tankın üzərilərinə



gəlməsini görüb maşından çıxıb qaçaraq ağacların arasında gizlənmək istəyir. Lakin mənfur tankçının gülləsi arxadan İlqarın ürəyinə dəyir. Balaca İlqar oradaca əbədiyyətə qovuşur. Maşının içində qalan sürücü Ələkbərov ömürlük ikinci dərəcəli şikəst statusu alır.

Mən İlqar İbrahimovu tanımırdım. Onun valideynlərini də tanımıram. Lakin, hər dəfə "20 yanvar faciəsindən" yazanda, həmin hadisələrdən bəhs edən yazılara rast gəldikdə və ya Şəhidlər xiyabanında şəhidlərin qəbrini ziyarət edəndə balaca İlqar yaddaşımda canlanır, gözlərim yaşarır. Ordunu Bakıya göndərən Qorbaçova, ona rəhbərlik edən Yazov və Bakatinə, İlqara güllə atan Sovet əsgərinə, habelə silahsız kütləni ağır tankların, əli silahlı vəhşi Sovet əsgərlərinin qarşısına çıxaran, özləri isə başlarına parik qoyub, dağlarda gizlənən, "dil qəhrəmanlarına" nifrətim birə on artır.(red.O.Q.)

Semyonov Aleksandr Vladimiroviç, 1947-ci ildə doğulmuşdur, milliyyətcə rus idi. Yanvarın 20-də Salyan kazarmalarının aşağı qapısı yanında sol dizindən və sol çiyin nahiyəsindən aldığı güllə yaralarından yanvarın 24-də hərbi hospitalda dünyasını dəyişmişdir. Semyonovun himayəsində bir uşağı var idi.

Yefimiçev Boris Vasilyeviç, 1945-ci ildə doğulmuşdur. 19 yanvar gecəsi 5449, 5452, 5453, 5454 və 3408 saylı hərbi hissələrin əsgərləri Bakı Ümumqoşun hərbi məktəbindən "nizam-intizamı qorumaq üçün" şəhərə çıxanda Ələkbərov küçəsində gözləri kor olan Yefimiçev onların qarşısından vaxtında keçmədiyinə görə avtomatın ştık-bıçağı ilə qarın nahiyəsindən yaralanmış Yefimiçev yanvarın 21-də xəstəxanada ölmüşdür. Himayəsində bir uşağı var idi.

Həsənov Sahib Nəsib oğlu, 1949-cu il təvəllüdlü, "Soyuzpeçat"da qəzet satan işləmişdir. Yanvarın 20-də "Naxçıvan" mehmanxanasının qarşısında, arxadan başına dəymiş güllə yarasından həlak olmuşdur. Həsənovun üç azyaşlı uşağı var idi. İlkin istintaq materiallarına görə Həsənov hərbçi Polyakovun gülləsinin hədəfi olmuşdur.

Həsənov Mehman İbrahim oğlu, 1964-cü ildə doğulmuşdur. Hesablama mərkəzində operator vəzifəsində işləmişdir. Yanvarın 20-də bel nahiyəsindən dəyən güllə sağ çiyin sümüyünü sındırmışdır. Həsənov həmin gün dünyasını dəyişmiş, əbədiyyətə qovuşmuşdur.

Babayev Rəhim Vaqif oğlu, 1970-ci ildə doğulmuşdur. Neft və kimya institutunun 3-cü kurs tələbəsi idi. 20 yanvar tarixdə, Salyan kazarmaları rayonunda başından dəymiş güllə həyatına son qoymuşdur.

Sadıqov Yusif Allahverdi oğlu, 1964-cü ildə Ermənistanın Krasnoselski rayonunda müəllim ailəsində doğulmuşdur. Elmlər Akademiyasının Riyaziyyat institutunun aspirantı idi. Sadıqov yanvar ayının 19-dan 20-ə keçən gecə Salyan kazarmalarının yuxarı qapısında aldığı güllə yarasından yerə yıxılır.Yaxındakı tank onun qan aparmış bədəni üzərinə çıxaraq 360 dərəcə fırlanır. Sadıqovun ancaq sağ qolu qalmışdı. Qalan hissələri torpağa qatışmışdı.

1990-cı ilin yanvar ayına kimi Yusifin atası Allahverdi müəllimin 42 il riyaziyyatdan dərs dediyi məktəbdən 650 nəfər ali təhsil almış, 17 nəfər fizika-riyaziyyat elmləri namizədi, 10 nəfər fizika-riyaziyyat elmləri doktoru elmi dərəcə almışlar. Yusif özü orta məktəbi qızıl medalla bitirmiş, iki qardaşı elmi işçidirlər. Belə bir ailənin üzvünə ekstremist adı vermək ancaq ekstremistin ağlına gələ bilərdi.

Bağırov Baloğlan Həbib oğlu, 1960-cı ildə doğulmuşdur, Azərbaycan Respublikasının Yeyinti sənayesində laborant işləmişdir. Bağırov yanvar ayının 23-də 1-ci taksimotor parkı yaxınlığında baş nahiyəsindən aldığı güllə yarasından həlak olmuşdur. Bağırovun öhdəsində üç azyaşlı uşağı var idi.

Eminov Vəfadar Osman oğlu, 1965-ci ildə doğulmuşdur, tikiş fabrikasında dərzi işləmişdir. Bakı Dövlət Universitetinin hüquq fakultəsində qiyabi oxumuşdur. Yanvarın 23-də, Haqverdiyev küçəsində, Bakı Ali qoşun hərbi məktəbinin yaxınlığında arxadan, kürək nahiyəsindən aldığı güllə yarası mədəsini dağıtmışdı. Eminov hadisə yerində həlak olmuşdur.



Qəniyev Mirzə Rzabala iqlu, 1958-ci ildə doğulmuşdur, Bakı su kəməri idarəsində işləmişdir. Yanvarın 19-dan 20-ə keçən gecə Salyan kazarmaları yaxınlığında aldığı güllə yarasından fevralın 19-da xəstəxanada dünyasını dəyişmişdir. Öhdəsində olan bir azyaşlı uşağı atadan yetim qalmışdır.

Əliyev Namiq Kamil oğlu, 1965-ci ildə doğulmuşdur, "Zümrüd" restoranında aşbaz işləmişdir. Yanvarın 20-də Bakı Ali qoşun hərbi məktəbin yuxarı qapısı yaxınlığında Əliyevə arxadan, kürəyinə dəyən güllə döş qəfəsini dağıtmışdır. Əliyev hadisə yerində həlak olmuşdur.

Orucov Şəmsəddin Abil oğlu, 1950-ci ildə doğulmuşdur, "İdman malları" fabrikində mühəndis işləmişdir. Yanvarın 23-də, saat 14.10-da, keçmiş İnqilab küçəsində tankların hərəkətinə ailə üzvləri ilə birlikdə pəncərədən baxanda hərbçilər onun baxışlarında ekstremizm əlamətləri görərək döş qəfəsindən güllə ilə vurmuşlar. İki uşaq atası Orucov aldığı güllə yarasından evindəcə əbədiyyətə qoşulmuşdur.

Nəsirov Yanvar Şirəli oğlu, 1957-ci ildə doğulmuşdur, "Kondisioner" zavodunda fəhləlik etmişdir. Yanvarın 19-dan 20-ə keçən gecə, "İnşaatçılar" prospektində, "Olimp" mağazasının qarşısında arxa tərəfdən kürək nahiyəsinə dəyən güllə döş qəfəsini dağıtmışdır. Nəsirov hadisə yerində həlak olmuşdur. Bir uşağı atasız qalmışdır.

Qocamanov Əliyusif Bilal oğlu, 1933-cü ildə doğulmuşdur, "Azərneftqaz" sənaye birliyində matros işləyirdi. Üç azyaşlı uşaq atası Qocamanov yanvarın 20-də, saat 00.20 dəqiqədə, yaşadığı Ələkbərov küçəsi, 5 saylı evin həyətində döş qəfəsindən aldığı güllə yarasından həlak olmuşdur.

Hüseynov Əlimərdan Abil oğlu, 1962-ci ildə doğulmuşdur, "Azərelektroterm" zavodunda elektrik vəzifəsində çalışmışdır. Ordunun Bakıya girməsinə etirazını bildirmək üçün Salyan kazarmaları qarşısında piketçilərin arasında olan Hüseynov yanvarın 20-də hər iki qıçından güllə yarası almışdır. Həkimlərin yaralılara tibbi yardım göstərmələrinin qarşısı hərbçilər tərəfindən alındığından, o hadisə yerində qanaxmadan dünyasını dəyişmişdir.

Qarayev İlqar Əli oğlu, 1959-cu ildə doğulmuşdur, "Bakmetropolitendə" mexanik vəzifəsində işləmişdir. Yanvarın 19-dan 20-ə keçən gecə Salyan kazarmaları rayonunda, hərbçilərin Bakıya yeridilməsinə qarşı piketdə iştirakı zamanı başından aldığı güllə yarasından həlak olmuşdur.

Qeybullayev Elçin Süləddin oğlu, 1968-ci ildə doğulmuşdur, tikinti idarəsində fəhlə işləmişdir. Yanvarın 19-dan 20-ə keçən gecə Salyan kazarmaları yaxınlığında hərbçilərin Bakıya yeridilməsinə qarşı yaradılmış piketdə iştirakı zamanı döş qəfəsindən aldığı güllə yarasından hadisə yerində həlak olmuşdur.

Məmmədov Eldar Zeynal oğlu, 1966-cı ildə doğulmuşdur, 1 saylı çörəkbişirmə zavodunda fəhlə işləmişdir. Yanvarın 19-dan 20-ə keçən gecə, "İnşaatçılar" prospektində, "Olimp" mağazasının qarşısında döş qəfəsindən aldığı güllə yarasından hadisə yerində həlak olmuşdur.

Muradov Mehman Əsəd oğlu, 1959-cu ildə doğulmuşdur, "Elektroterm" zavodunda fəhlə işləmişdir. Yanvarın 20-də Salyan kazarmaları yaxınlığında, hərbçilərin Bakıya girməklərinin qarşısını almaq üçün yaradılmış piketdə olan zaman döş qəfəsindən aldığı güllə yarasından hadisə yerində şəhid olmuşdur.

Nikolayenko Alla Alekseyevna, 1951-ci ildə doğulmuşdur. Bessantina Vera ilə bir binada qonşuluqda yaşamışdır. Nikolayenko da Bessantina kimi yanvarın 20-də tankların səsinə pəncərədən baxan zaman hərbçilərin gülləsindən yerindəcə həlak olmuşdur.

Məmmədov Vidadi Üzeyir oğlu, 1949-cu ildə doğulmuşdur, pensiyaçı idi. Yanvarın 20-də Tbilisi prospektində, arxadan boyun nahiyəsindən aldığı güllə yarasından hadisə yerində ölmüşdür.

Yusubov Oleq Kərimoviç, 1944-cü ildə doğulmuşdur. Yanğın söndürən maşının sürücüsü işləmişdir. Yanvarın 20-də idarə etdiyi maşınla, yanğın söndürənlərdən Eyvazov, Lipanov, Əsgərov və Burovla birlikdə çaqırışa - yanğın söndürməyə tələsərkən Bakıxanovla S.Vurğun küçələrinin kəsişdiyi yerdə



hərbçilərin gülləsinə tuş gəlir. Döş qəfəsinə dəymiş güllə Yusubovun həyatına son qoyur. Himayəsində bir azyaşlı uşağı var idi.

İsmayılov Cavad Yunus oğlu, 1962-ci ildə anadan olmuş, Şüşə zavodunda fəhlə işləmişdir. 20 yanvar gecəsində X1 Qızıl orduya qoyulmuş abidənin yaxınlığında onurğasından aldığı güllə yarasından yanvarın 22-də xəstəxanada həyatla vidalaşmışdır. Himayəsində iki azyaşlı uşaq var idi.

Səfərov Bəfadar Aqamirzə oğlu, 1923-cü ildə doğulmuşdur, pensiyaçı idi. Yanvarın 20-də Tbilisi prospektində güllə yarasından həlak olmuşdur.

İsmayılov Tofiq Babaxan oğlu, 1956-cı ildə doğulmuşdur. İki azyaşlı uşaq atası İsmayılov yanvarın 19-dan 20-ə keçən gecədə Tbilisi prospektində sağ boyun nahiyəsindən aldığı güllə yarasından həlak olmuşdur.

Kərimov Aleksandr Ramazanoviç, 1970-ci il təvəllüdlü, yanvarın 20-də gecə saat 2.30-da, 1968-ci il təvəllüdlü Mustafayev Mahir Vaqif oğlu ilə maşında gedərkən İnqilab küçəsi ilə Tbilisi prospektinin kəsişdiyi yerdə hər ikisi hərbçilərin güllələrindən yaralanaraq cavan ömürlərini qurban vermişlər.

İsrailov Əlinəzər Araz oğlu, 1960-cı ildə doğulmuş, Boqdanov Valeriy Zakiroviç, 1958-ci il təvəllüdlü, milliyyətcə tatar və J.Mirzəyev, hər üç milis işçiləri, səhər saat 7-8 radələrində, rəisin göstərişinə əsasən Tbilisi prospektində yaranmış piketi dağıtmaq üçün maşında oraya yollanırlar. Onlar piketçilərin toplaşdığı yerə çatmamış hərbçilərin onlara atəş açdıqlarını görüb geri qayıtmaq istəsələr də güllələr onlara arxadan çatır. Güllə İsrailovun kəllə sümüyünü sınıq-sınıq edir, Boqdanova dəyən dörd güllə yarasından boynunu, çiyin və bel nahiyəsini ağır zədələyir. İsrailov və Boqdanov maşında əbədiyyətə qovuşurlar, Mirzəyev isə sol qolundan ağır yaralanır. Xəstəxanaya çatdırılmış Mirzəyevin qolu amputasiya olunur.

Kərimov İlqar İsa oğlu, 1962-ci ildə doğulmuşdur, broyler fabrikində sürücü işləmişdir. Yanvarın 19-dan 20-ə keçən gecə

Tbilisi prospektində, mikrorayonlara gedən yolda hərbçilərin avtomatdan atdığı güllə onun ciyərini dağıtmışdır. Kərimov hadisə yerində həlak olmuşdur. İki azyaşlı uşağı qalmışdır.

Atakişiyev Bəhruz Tofiq oğlu, 1961-ci ildə doğulmuş, sürücü işləmişdir. Yanvarın 20-də K.Marks küçəsində qarın nahiyəsindən aldığı güllə yarası həyatına son qoymuşdur.

Əbilhəsənov İlqar Yusif oğlu, 1967-ci ildə anadan olmuşdur, Oktyabr RDİŞ-də milis işçisi idi. Yanvarın 19-da saat 23.30-da ailələrinə məxsus maşında işdən qayıdarkən C.Məmmədquluzadə küçəsində hərbçilərin ona tuşladığı güllə qarın nahiyəsini yararaq bütün daxili orqanlarını zədələmişdir. Əbilhəsənov yanvarın 23-də xəstəxanada dünyasını dəyişmişdir.

Xaritonov Vladimir Aleksandroviç, 1949-u ildə doğulmuş, milliyyətcə rus, hərbi xidmətci idi. Fevral ayının 7-də öz şəxsi maşınında Dərnəgül şossesi ilə gedərkən hərbçilərin gülləsi onun arxadan peysərinə dəyərək kəllə sümüyünü zədələmişdir. Xaritonov aldığı zədədən yerindəcə ölmüşdür.

Əliyev Aruz Əhmədəli oğlu, 1963-cü ildə doğulmuşdur, sürücü işləmişdir. 1990-cı ilin iyun ayının 20-də Moskva prospektində özünün idarə etdiyi “Moskviç” maşınında gedərkən Əliyevin maşın sürməsi, Bakı şəhərinə qayda-qanunu qorumağa gəlmiş hərbçi A.P.Sedova “xoş gəlməmişdir”. Sedov Əliyevi arxadan baş nahiyəsindən vuraraq öldürmüşdür.

Poladi Saleh Əliqulu oğlu, 1968-ci ildə doğulmuşdur, “Şəfa” mağazasında satıcı işləmişdir. Yanvarın 20-ə keçən gecə X1 Qızıl orduya qoyulmuş abidənin yaxınlığında arxadan başına dəyən gülədən hadisə yerində keçinmişdir.

Həşimov İsrafil Aqababa oğlu, 1964-cü ildə doğulmuşdur, mağazada satıcı işləmişdir. 20 yanvar gecəsində X1 Qızıl orduya qoyulmuş abidənin yaxınlığında hərbçilərin gülləsi Həşimovun döşünə dəyərək onu şəhid etmişdir. Onun iki azyaşlı uşağı var idi.

Quliyev Səxavət Balay oğlu, 1940-cı ildə doğulmuşdur, mağaza müdiri vəzifəsində işləmişdir. Yanvarın 20-də



Bakıxanov küçəsində hərbçilərin gülləsi Quliyevin döş qəfəsinə dəyərək daxili orqanlarını zədələmişdir. O, hadisə yerində həlak olmuşdur. Himayəsində dörd azyaşlı uşaq var idi.

Hacıyev Mübariz Məhəmməd oğlu, 1952-ci ildə doğulmuşdur, 5 saylı taksimotop parkında sürücü işləmişdir. 20 yanvar gecəsində X1 Qızıl ordu meydanında əlindən, ayağından və döş qəfəsindən aldığı güllə yaralarından hadisə yerindəcə həlak olmuşdur. Hacıyevin dörd azyaşlı uşağı var idi.

Həsənov Müzəffər Qəzənfər oğlu, 1939-cu ildə doğulmuşdur,sürücü işləmişdir. Həsənov yanvar ayının 21-də saat 1.40-da beyin-kəllə sümüyünün və beyninin zədələnməsi, çənəsində, sağ çiyin nahiyəsində və sol əlinin dördüncü barmağında sınıqlarla xəstəxanaya daxil olmuşdur. Göstərilən müalicəyə baxmayaraq onun həyatını qorumaq mümkün olmamışdır. Həsənov yanvarın 29-da dünyasını dəyişmişdir. Himayəsində dörd azyaşlı uşaq var idi.

Qasımov Abbas Məmməd oğlu, 1966-cı ildə Ermənistanın Amanisi rayonunda doğulmuşdur. 20 yanvar gecəsində hərbçilərin avtomat gülləsi Qasımovun belindən dəyərək qarın nahiyəsini dağıtmışdır. Qasımov hadisə yerində həlak olmuşdur.

Zülalov İsfəndiyar Adil oğlu, 1963-cü ildə doğulmuşdur, 20 yanvar gecəsində Salyan kazarmaları rayonunda, hərbçilərin şəhərə çıxmaqlarının qarşısını almaq məqsədilə piketdə olarkən güllə onun sağ tərəfdən gicgahını dağıtmışdır. Öhdəsində olan azyaşlı uşağı atasız qalmışdır.

Qaibov Ələsgər Yusif oğlu, 1966-cı ildə doğulmuşdur, institutun ikinci kurs tələbəsi idi, yanvarın 20-də T.Bəhrəmov adına stadionun yaxınlığında qarın nahiyəsindən aldığı güllə yarasından bir gün sonra xəstəxanada dünyasını dəyişmişdir.

Baxşəliyev Elçin Mirzə oğlu, 1965-ci il təvəllüdlü, 1 saylı avtobus parkında sürücü işləmişdir. Yanvarın 20-ə keçən gecədə X1 Qızıl ordu meydanında döş qəfəsindən və qarın

nahiyəsindən aldığı güllə yaralarından hadisə yerində həlak olmuşdur.

Babayev Fuad Yavər oğlu, 1967-ci ildə doğulmuşdur, İnşaat mühəndisləri institunun 3-cü kurs tələbəsi idi. 20 yanvar gecəsində X1 Qızıl ordu meydanında hərbçilərin gülləsi onun boyun nahiyəsində damarları dağıtmışdı.

«Строитель» qəzeti 3 fevral 1990-cı il tarixdə Babayev Fuadın ölümünə belə bir məqalə dərc etmişdi : "Biz bilmirdik ki, Talıblı küçəsində, 3/8 saylı evdə mərdliyi və Vətənə məhəbbəti başqalarına örnək olan oğlan yaşayır. Həmin faciəli gecədə yüzlərlə şəhid olanların arasında sən də var idin, Fuad. Həyatın qısa oldu. Lakin 25 yaşında həyatını xalq yolunda qurban verməklə əbədiyyətə qovuşdun.

Ardı görünməyən insan axını Şəhidlər xiyabanına ziyarətə gələrkən bizə qoyub getdiyiniz torpağın vahidliyini və suverenliyini qorumağı vəd edir. Qoy ölüm sevinməsin."

Yaqubov Nüsrət İsmayıl iqlu, 1958-ci ildə doğulmuşdur, "Neft daşlarında" operator işləmişdir. Yanvarın 19-da, Bakıda fövqəladə vəziyyət elan olunmamışdan bir saat əvvəl, saat 23-də Qala-Mərdəkan yolunda, benzindoldurma məntəqəsində maşınına benzin doldurarkən polkovnik Aleksandr Lebedin başkəsənləri – Hərbi-hava desant dəstəsi Bakı şəhəri istiqamətinə gedən hərbçinin gülləsinə tuş gəlmiş Yaqubov ciyərindən yaralanır. Dörd uşaq atası yanvarın 22-də xəstəxanada vəfat edir.

Marxevka Aleksandr Vitalyeviç, 1958-ci ildə doğulmuşdur, təcili yardım stansiyasında həkim işləmişdir. Yanvarın 19-da, saat 23-də Mərdəkan-Qala yolunda, benzindoldurma stansiyasından aldığı çağırışa Sovet əsgəri tərəfindən güllə ilə yaralanmış həmvətənlisinə tibbi yardım göstərmək üçün təcili yardım maşını ilə çağırış yerinə tələsən həkim xəstənin üstünə çatmamış Sovet əsgəri ilə qarşılaşır. Marxevka da Sovet əsgərinin gülləsindən ölümcül yaralanır.

Təcili yardım maşınının sürücüsü Almaz Babayev hadisəni belə nəql edir: "yanvarın 20-keçən gecə təcili yardımın 10-cu stansiyasına çağırış daxil oldu. Məndən əvvəl Habil Əliyevin



sürücü olduğu təcili yardım maşını həkim və tibb bacısı ilə hadisə yerinə getdilər. Onlardan sonra mənim maşınımda həkim Aleksandr Marxevka ilə çağırışa yollandıq. Şüvəlan qəsəbəsini keçdikdən sonra Türkan yoluna çıxmalı idik. Bu vaxt təcili yardım maşınına güllə atıldı. Maşının tormozunu sıxıb saxladım. Benzin- doldurma stansiyasının yanında dayanan tankın üstünə qoyulmuş pulemyotdan Qabilin maşınına güllə atırdılar. Mən onlara yaxınlaşanda mənim də maşınım atəşə tutuldu. Güllə yanımda oturmuş həkimə dəydi. Beli bükülü halda bircə: "oy,oy" deyə bildi. Artıq danışa bilmədi. Mən maşını döndərib geri qayıtdım. Arxamızca da güllə yağırdı. Həkim Marxevka maşında keçinmişdi." Marxevkanın bir azyaşlı uşağı var idi.

Əşrəfov Rəhman İsmixan oğlu, 1965-ci ildə doğulmuşdur 29 saylı şəhər klinik xəstəxanasında sürücü işləmişdir. Yanvarın 20-də, gecə, baş həkimin tapşırığına əsasən yaralılara yardım etmək üçün Binə qəsəbəsində yerləşən 29 saylı xəstəxanadan Mərdəkandakı 26 saylı xəstəxanaya dərman apararkən hərbçilərin atəşinə düşür. Güllənin biri Əşrəfovun boyun onurğasını, digəri döş qəfəsini yaralayır. Rəhman xəstəxanaya çatdırılsa da onun həyatını qorumaq mümkün olmur. O, yanvarın 24-də dünyasını dəyişir. Əşrəfovun iki azyaşlı uşağı var idi.

Mövludov Fuad Fərhad oğlu, 1968-ci ildə doğulmuşdur, yanğın söndürən vəzifəsində işləmişdir. Mövludov 20 yanvar faciəsinin ilk şəhidi idi. O, yanvarın 19-da Qala-Türkan-Şüvəlan yol ayrıcında Lebedin dəstəsinə rast gəlir. Bu dəstə Binədən Bakıya kimi məsafədə bütün canlılara atəş açmışdır. Lebedin dəstəsindən olan hərbçinin atdığı atəş Mövludovun qarın nahiyəsinə və onurğasına dəyməklə daxili orqanlarını zədələyir. Vurulmuş yara azlıq edərək, hərbçilərdən biri onun qarnına da bıçaqla xəsarət yetirmişdir.

Hadisənin şahidi olmuş Nadir Əliyev deyir:

-Yanvarın 19-da qardaşımla aeroporta gedirdik. Saat 24 radələrində hərbçilərin atəşinə düşdük. Əsgərlər onlardan qaçanların arxasınca atəş açırdılar, yaralıları avtomatın

üstündəki ştık-bıçaq ilə də vururdular. Əsgərlər hündür boylu, uzun saçlı, bığlı və saqqallı idilər. Bizim maşın atılan güllələrdən deşik-deşik olmuşdu. Mənim özüm dörd güllə yarası almışdım. Xəstəxanada reanimasiya şöbəsində yatanda mənimlə birlikdə Fuad adında oğlan da müalicə olunurdu. Lakin onu qoruya bilmədilər, yaraları ağır idi. Fuad güllə yarasından əlavə ştık-bıçaqla da yaralanmışdı.

Xanməmmədov Cəbrayıl Hüseynxan oğlu, 1939-cu ildə doğulmuşdur, Şimal elektrik stansiyasında maşinist işləmişdir. Yanvarın 20-ə keçən gecə, Yeni Suraxanıda evində olarkən tankların səsinə küçəyə çıxan Xanməmmədov hərbçilərin atəşinə məruz qalır. Gecə saat 3-də, xəstəxanaya çatdırılmış Xanməmmədovun arxadan döş qəfəsina dəyən bir-neçə güllə ciyərlərini, diafraqmasını və qabırğalararası arteriyanı zədələmişdi. Onun həyatını qorumaq mümkün olmadı. Onun dörd uşağı var idi.

Mirzəyev Vaqif Səməd oğlu, 1959-cu ildə doğulmuşdur. Yanvarın 20-ə keçən gecə Binə qəsəbəsində, öz evinin yanında döş qəfəsindən aldığı bıçaq yarasından həlak olmuşdur. Hadisəni şahid Vaqif Quliyev belə canlandırır:

-Yanvarın 19-da saat 22-23 radələrində Qala stansiyasının yanındakı benzindoldurma məntəqəsində hərbçilər meydana çıxdılar. Onlar xəbərdarlıq etmədən silahsız insanlara atəş açmaqa başladılar. Eyni zamanda haradansa kənardan çaxan hündür boylu, uzun saçlı, saqqallı əsgərlər ştıq-bıçaqla qarşılarına çıxanları yaralayırdılar. Həmin gecə mən yaralandım. Mənim yanımda bir başqa yaralı yıxılmışdı. Hərbçi ona yaxınlaşıb ştık-bıçağı ürəyinə sancdı. Bununla başqa əsgərə müraciətlə dedi: şahidlik etməmək üçün bunları sağ qoymaq olmaz.

Tokarev Vladimir İvanoviç, 1954-cü ildə doğulmuşdur, taksi sürücüsü, milliyətcə rus idi. Yanvarın 20-ə keçən gecədə qaynanası ilə Binə aeroportuna gedən yerdə hərbçilərin gülləsi onun döş qəfəsini parçalamışdı. Tokarev üç uşaq atası idi.

Tokarevin qaynanası Smirnovanın ifadəsi: "Yanvarın 20-i gecəsi baldızı Spirinanın xahişi ilə onun oğlunu Kremençuka



yola salmaq üçün Tokarev idarə etdiyi "Moskviç" maşınında aeroporta getməli idi. Aeroporta gedən yol Sabunçu dairəsində piketçilər tərəfindən bağlandığından Maştağa-Vişnovka yolu ilə getməli olduq. Mərdəkanla Qala yollarının kəsişdiyi yerdə tank və BTR-lərin kolonnası ilə rastlaşdıq. Tokarev maşını sağa sürüb saxlamaqla hərbçilərə yol verdi. Buna baxmayaraq tankın üstündə dayanmış əsgər avtomatdan maşına atəş açdı. Aldığı güllə yarasından Tokarev maşında keçindi."

Abasov Sabir Rzaqulu oğlu, 1967-ci ildə doğulmuşdur, mağazada satıcı işləmişdir. Bakı şəhərində fövqəladə vəziyyət elan olunmamışdan bir saat əvvəl, Binə-Bakı yolunda Hərbi-hava desant dəstəsinin əsgərləri tərəfindən güllə yarası almış Abasov saat 23-də xəstəxanaya çatdırılsa da onun həyatını qorumaq mümkün olmamışdır.

Şahid Qərib Qədirlinin ifadəsi:

-Mən, beş uşaq atası, 40 illik stajı olan neftçiyəm. Mərkəzi Komitənin çağırışına görə yanvarın 19-da ictimai qaydalara əməl olunmasına nəzarət etmək üçün Binə magistral yoluna çıxdıq. Yolla hərəkət edən hərbçilər qəflətən, yolun kənarında dayanmış silahsız insanlara avtomatdan atəş açmağa başladılar. Oturduğum maşında 17 güllə yeri var idi. Mən özüm başımdan və qolumdan yaralandım. Qoluma dəyən iki güllə bu gün də ağrı verir.

Şəhid Abbas Abbasovun ifadəsi:

-Yanvarın 19-da Binə yolunun üstündə çoxlu adam toplanmışdı. Mən də onlara yaxınlaşdım. Bu vaxt yoldan keçən tanklarda olan əsgərlər silahsız camaata atəş açdılar. Mən yaşlı adam, üç infarkt keçirmişəm, yaxınlaşıb Sovet əsgərindən kömək istədim. Onlar məni üzü quylu yıxıb təpikləməyə başladılar, sonra ciblərimi axtardılar. Onlar gedəndən sonra məni ağır vəziyyətdə Binə xəstəxanasına çatdırdılar.

Mirzəyev Elçin Hüseynqulu oğlu 1961-ci ildə doğulmuşdur və Meyeroviç Yan Maksimoviç 1965-ci il təvəllüdlü 19 yanvar tarixdə saat 23.30-da dostlarını aeropotda yola salıb qayıdan zaman Binə aeroportu yaxınlığında Lebedin desantçıları ilə

rastlaşırlar. Onlara açılan atəş nəticəsində müvafiq olaraq Mirzəyevin və Meyeroviçin bədənlərində 18 və 21 güllə yarası müşahidə olunmuşdur. Onların hər ikisinin bir azyaşlı uşağı var idi.

Əliyev Zahid Bayram oğlu, 1963-cü ildə Ermənistanda doğulmuşdur. 19 yanvar gecəsində Yeni Suraxanı rayonunda aldığı güllə yarasından həlak olmuşdur. Himayəsində bir uşaq var idi.

Rəhmanov İslam Oqtay oğlu, 1968-ci ildə doğulmuşdur, 1 saylı Tikinti-montaj idarəsində fəhlə işləmişdir. Bakı-Mərdəkan yolunda hərbçilərin avtomatlardan açdıqları atəş nəticəsində Rəhmanov beş güllə yarası almışdır. O, yanvarın 28-də xəstəxanada dünyasını dəyişmişdir.

Rüstəmov Rövşən Məmməd oğlu, 1961-ci ildə anadan olmuşdur. Yanvarın 19-dan 20-ə keçən gecə Rövşən yük maşınında işdən evə qayıdarkən metronun Əzizbəyov stansiyası ilə Bakı şərab zavodunun arasındakı məsafədə Binədən Bakıya hərəkət edən hərbçilərin dəstəsilə rastlaşır. Hərbçilər maşına atəş açırlar. Sürücü aldığı beş güllə yarasından həkimlərin səyi nəticəsində sağ qalır. Rüstəmov isə hadisə yerində əbədiyyətə qovuşur. Rüstəmovun bədənində nə az-nə çox 32 güllə yarası var idi. Rövşənin üç azyaşlı uşağı qalmışdı.

Bir qayda olaraq avtomaşını saxlamaq üçün onun təkərlərinə atəş açırlar. Bakıya gəlmiş Sovet snayperləri maşının sərnişinini nişan almağa üstünlük verirdilər.

İsmayılov Məmmədəli Novruz oğlu, 1946-cı ildə doğulmuşdur, 2 saylı taksimotor parkında sürücü işləmişdir. Fevral ayının 8-də Binə aeroportunda 33842 saylı hərbi hissədə qulluq edən, praporşik Straxov Serqey İsmayılovun idarə etdiyi taksi maşınına minərək ondan Qala hərbi aeroportuna aparmağı xahiş edir. Yolda, Straxov hərbi aeroporta çatmamış, qumlaq yerdə tamah məqsədilə sürücü İsmayılovun üzərinə hücum edərək arxadan onun başını kəsmiş və meyidi qumlaqda “dəfn” etmişdir. İsmayılovun idarə



etdiyi avtomaşını Straxov yük təyyarəsi ilə yaşadığı Tula vilayətinə göndərmək istəmişdir.

Müəyyən edilmişdir ki, Straxov 1985-ci ilin dekabr ayında Tula şəhərinin Mərkəz rayonunun məhkəməsi tərəfindən xuliqanlığa görə məhkum olunmuş, cəzasını çəkdikdən sonra, 1990-cı ilin yanvarında hərbi çağırışla orduya daxil edilərək “qanun-qayda yaratmaq üçün” Bakıya göndərilmişdir.

İsmayılovun üç azyaşlı uşağı var idi.

Məmmədov Kamal Səyid oğlu, 1955-ci ildə doğulmuşdur. Yanvarın 20-ə keçən gecə Binə aeroportu yolunda hərbçilər tərəfindən atəşə tutulmuşdur. Kamalın bədənində çoxlu güllə yarası var idi. Onun daxili orqanları tamamilə dağıdılmışdı.

Əsədullayev Asif Kamil oğlu, 1954-cü ildə doğulmuşdur, “Bakı fəhləsi” zavodunda fəhləlik etmişdir. Yanvarın 19-dan 20-ə keçən gecə Əliyev Rafael ilə onun “Jiquli” maşınında evə gedərkən Binə aeroportu yolunda hərbçilər tərəfindən atəşə tutulurlar. Bir-neçə güllə zədəsi alan sürücü Əliyev həkimlərin səyi nəticəsində sağ qalır, Əsədullayev isə qarın nahiyəsindən və döş qəfəsindən aldığı güllə yaralarından maşında dünyasını dəyişir. Əsədullayevin iki azyaşlı uşağı atadan yetim qalırlar.

Balahüseyn Mirqəzəb oğlu, 1929-cu ildə doğulmuşdur, 2704 saylı avtokolonda sürücü işləmişdir. Yanvarın 20-ə keçən gecə aeroport yolunda, Yeni Suraxanı ərazisində qarın və mədəsindən yaralanan, beş uşaq atası Balahüseyn yanvarın 24-də xəstəxanada həyatını dəyişir.

Əliməmmədov Teymur Yəhya oğlu, 1972-ci ildə anadan olmuş, Azərbaycan Tibb institutunun tələbəsi, yanvarın 20-də başından aldığı güllə yarasından, yanvarın 30-da xəstəxanada dünyasını dəyişmişdir.

Şərifov Mürvət Rəhim oğlu, 1932-ci ildə Ermənistanın Qafan rayonunda doğulmuşdur, Yaşıllaşdırma trestində fəhlə işləmişdir. Yanvarın 19-dan 20-ə keçən gecə L.Şmidt küçəsi ilə hərəkət edən tankların səsinə qucağında iki yaşlı qız nəvəsi, həyat yoldaşı Hüseynova Nazpəri, qonşulardan Sulayev, Nəsirov və başqaları ilə birlikdə küçə qapısına çıxıb tankların üstündə Sovet əsgərlərinə tamaşa etmək istəyiblər.

Əsgərlərdən biri tankın üstündən hoppanaraq qapıda yığışıb *onlara tamaşa edənlərə yaxınlaşır və yaxın məsafədən* əlindəki avtomatdan tamaşaçılara atəş açır. Şərifov oradaca həlak olur, iki yaşlı nəvəsi, həyat yoldaşı və qonşular güllə yarası alırlar. Şərifovun altı uşağı var idi.

Nə qədər inandırıcı olmasa da həqiqət belədir, bu dəhşətə inanmaq lazımdır!

Muxtarov Rasim Mustafa oğlu, 1958-ci ildə doğulmuşdur, Bakı kondisioner zavodunda çilingər işləmişdir. 1990-cı ilin fevral ayının 25-də idarə etdiyi *avtomaşınla Papaninlə* Tağızadə küçələrinin kəsişdiyi yerdə, saat 22 radələrində hərbçilərdən Şustov və Usaçovun işarəsinə əməl edib maşını saxlamadığına görə həmin hərbçilər Muxtarovu arxadan güllə ilə peysərindən vururlar. Kəllə sümüyü dağıdılmışdır. Muxtarovun iki uşağı var idi.

Əlizadə Faik Əbdülhüseyn oğlu, 1953-cü ildə doğulmuşdur, yanvarın 20-ə keçən gecə metronun "Gənclik" stansiyasının yaxınlığında hərbçilərin gülləsinə tuş gəlmişdir.

Bağırov Telman Malik oğlu, 1960-cı ildə doğulmuşdur, milis işçisi idi. Yanvarın 20-də saat 22-də Lenin prospektində döş qəfəsindən aldığı güllə yarasından həlak olmuşdur. Bağırovun dəfnindən sonra uşağı olmuşdur.

Hüseynov Həriman Vəli oğlu, 1976-cı ildə doğulmuşdur, məktəbli idi. Həriman 20 yanvar gecəsində Salyan kazarmaları rayonunda qarından və başqa nahiyələrdən aldığı altı güllə yarasından həlak olmuşdur.

Abbasova Fərida Nəriman qızı, 1952-ci ildə doğulmuşdur, evdar qadın üç uşağın anası idi. Yanvarın 19-dan 20-ə keçən gecə öz həyətində, Vıezdnaya küçəsində döş qəfəsindən yaralanan Abbasova yerindəcə həlak olmuşdur.

Salayeva Sevda Məmməd qızı, 1968-ci ildə doğulmuşdur, telefonçu vəzifəsində işləmişdir, 1990-cı ilin dekabr ayının 22-də K.Marks və Lenin prospektlərinin kəsişdiyi yerdə başından aldığı güllə yarasından həlak olmuşdur.



Məmmədov Mehman Sahib oğlu, 1971-ci ildə doğulmuşdur, 77059 saylı hərbi hissənin əsgəri, yanvarın 21-də Salyan şossesində başından ölümcül yaralanmışdır.

Rzayev Azad Allahverdi oğlu, yanvarın 19-dan 20-ə keçən gecə Bakı-Ələt yolunda arxadan atılmış güllə peysərinə dəyərək ölümcül yaralamışdır. Rzayevin iki azyaşlı uşağı var idi, onun ölümündən sonra bir uşağı da dünyaya gəlmişdir.

Məmmədov Şahin Zahid oğlu, 1972-ci ildə doğulmuşdur, Peşə-texniki məktəbin tələbəsi, yanvarın 26-da Lənkəran rayonunun İsti-su rayonunda başından yaralanmışdır, hadisə yerində həlak olmuşdur.

Baxışov Salman Babaxan oğlu, 1949-cu ildə doğulmuşdur, yanvarın 26-da Lənkəran rayonunun Qoftani kəndi yaxınlığında güllə yarasından həlak olmuşdur. Öhdəsində dörd uşaq var idi.

Məmmədov Rəhim Vəliaqa oğlu, 1969-cu ildə doğulmuşdur, yanvarın 26-da Qoftani kəndi yaxınlığında arxadan güllə ilə vurulmuşdur.

Məmmədov Vaqif Məmməd oğlu, 1960-cı ildə doğulmuşdur, yanvarın 26-da Qoftani kəndi yaxınlığında döş qəfəsindən aldığı güllə yarasından həlak olmuşdur.

Bədəlov Rövşən Seyfulla oğlu, 1965-ci ildə doğulmuşdur, 8 saylı tikinti idarəsində fəhlə işləmişdir. Yanvarın 26-da motoskletlə hərbçilərin qarşısından qaçarkən güllə onun idarə etdiyi motoskletin benzin bakına dəyərək parlatmış, Bədəlov aldığı yanğıdan dünyasını dəyişmişdir.

Abdullayev Tariel Hacibala oğlu,1965-ci ildə doğulmuşdur. Yanvarın 26-da hərbçilər Abdullayevi tutub döymüş, əl-qolunu arxa tərəfdən ayaqlarına, sonra isə boğazına bağlayaraq vertalyota tullamışlar. Abdullayevi Bakıya gətirəndə yolda, vertalyotda boğularaq həlak olmuşdur.

Yanvarın 20-də, təxminən saat 12.oo- 00.10 dəqiqədə Turabov Tenqiz Məmməd oğlu, 1966-cı il təvəllüdlü, Kazımov Əflatun Həşim oğlu, 1958-ci il təvəllüdlü, İmanov Elçin Bəydulla oğlu, Məmmədova Larisa Fərman qızı, 1977-ci ildə doğulmuş, öz atası Məmmədov Fərmanla, 1959-cu ildə

doğulmuş Məmmədov Məmməd Yarməmməd oğlunun idarə etdiyi "İkarus" avtobusu ilə metronun "Gənclik" stansiyasından Şmidt adına zavoda tərəf istiqamətdə gedərkən yolda, 6 saylı uşaq xəstəxanasının yaxınlığında hərbçilərin atəşinə məruz qalırlar.

Turabov Tenqiz, Kazımov Əflatun, İmanov Elçin, Məmmədova Larisa və sürücü Məmmədov Məmməd aldıqları güllə yaralarından avtobusun içərisində həlak olurlar. Məktəbli qız Larisanın atası Məmmədəv Fərman ayağından güllə yarası alır.

Avtobusda 15 nəfərə qədər sərnişin olmuşdur. Avtobusda olan Yusifov İlqar hadisəni belə təsvir edir:

-Yanvarın 20-ə keçən gecə "İkarus" avtobusunda stadion tərəfdən Şmidt adına zavoda tərəf gedirdik. Birdən əsgərlər xəbərdarlıq etmədən avtobusu atəşə tutdular. Avtobusda 15-ə qədər sərnişin var idi. Səhv etmirəmsə sərnişinlərdən 3 nəfəri öldü. Ölənlərin arasında 12-13 yaşında qız da var idi. Qalan sərnişinlər yaralanmışdılar. Belə bir vəhşiliyi görməmişdim. Ağlıma gəlmirdi ki, dinc əhalini qırmaq olar. Avtobusda sağ yer qalmamışdı. Sonra əsgərlər abtobuşa daxil olub sağ qalan sərnişinləri boynundan tutub avtobusdan çıxardaraq əllərindəki dəyənəklə döyüblər. Mənim başıma bir neçə dəfə dəyənəklə vurandan sonra 3-4 əsgər bizi təpikləməyə başladı. Artıq mən huşumu itirmişdim. Xəstəxanada özümə gəlmişdim.

Avtobusun sərnişinlərindən İlqar Məmmədovun hadisə haqqinda ifadəsi:

-Saat 23 radələrində "Gənclik" metrosunun yaxınlığında avtobus gözləyirdik. Bu vaxt "İkarus" avtobusu gəldi, 20-ə qədər adam avtobusa mindi. Avtobusda bir qız uşağı var idi, atası ilə idi. Qalan sərnişinlər kişilər idi. Mən üçüncü sırada oturmuşdum. Qız sürücünün arxasındakı oturacaqda idi. Hərbçilərin şəhərə gəlməklərindən xəbərim yox idi. Az getmişdik ki, birdən atışma başlandı. Avtobus dayandı, lakin atışma kəsilmədi, davam edirdi. Əsgərlər avtobusun qabaq qapısını sındırıb içəri girib qışqırdılar: -"əllər yuxarı, avtobusdan çıxın!" Faktiki olaraq avtobusda olanların hamısı



yaralanmış və ya ölmüş idi. Sağ qalanları əsgərlər boyunlarından tutub bayıra tullayırdılar. Biz üzüqoylu yerdə uzanmışdıq. Soldatlar söyüş söyür, yerdəkiləri avtomatın qundağı ilə vurur və ciblərini axtarırdılar. Avtobusdan çıxardanda soldat məni avtomatın qundağı ilə vurdu və ciblərimi axtardı. Onlar bizi təpiklədikcə söyür və "çernomazı" adlandırırdılar. Mən huşumu itirmişdim. Ayılanda yanımda bir nəfərin öldüyünü gördüm. Kimsə məni xəstəxanaya apardı.

Avtobusun digər sərnişini Şükürov Rizvanın hərbçilərin vəhşilikləri haqqında ifadəsi:

-Həmin gecə saat 23 radələrində "Gənclik" metrosunun yanında avtobus gözləyirdik. Bu vaxt "İkarus" avtobusu yaxınlaşdı. Avtobusa minib getdik. Çapayev küçəsinə çatmamış avtobus atəşə tutuldu. Avtobusda olanlardan kim isə qışqırdı: "güllələr yəqin boşdur". Güllə onun özünü yaraladı. Mənim də ayağıma güllə dəydi. Əsgərlər atəşi saxlamırdılar. Onlar bizi söyür və "çernomazı" adlandırırdılar. Avtobusun sürücüsü və bir neçə nəfər artıq həlak olmuşdular. Ən dəhşətlisi, qırmızı paltolu, təxminən 12 yaşlı qızın ölümü idi.

Avtobusa daxil olan əsgər ölmüş qızı təpikləyərək onu "suçka" adlandırdı. (Suçkadan doğulan namərd adam azyaşlı qızın meyidini təpikləyib onu "suçka" adlandıra bilər!)

Avtobusda olanlar ah-nailə çəkir, ağlayırdılar. Əsgərlər sərnişinləri zorla avtobusdan çıxardırdılar. Mənim ayağıma üç güllə dəymişdi, tərpənə bilmirdim. Hərbiçi məni itələyib avtobusdan yerə yıxdı. Huşumu itirdim, xəstəxanaya aparanda ayıldım.

Cinayət işinin istintaqı zamanı müəyyən edilmişdir ki, SSRİ DİN-nin 3661,3662, 3663 və 3665 saylı hərbi hissələri Bakı şəhərində olarkən Leninqrad prospektindəki idman kompleksində yerləşdirilmişdilər. Həmin hissələrin hərbçiləri yanvarın 19-da axşam saat 23-də idman kompleksindən çıxaraq Nərimanov rayon Partiya komitəsinin və İcraiyyə komitəsinin binalarını mühafizə etmək üçün Nəvai küçəsi ilə həmin istiqamətə gedəndə, Çapayev küçəsinə çatmamış,

Şmidt zavodunun yaxınlığında onlara tərəf gələn avtobusu güclü avtomat atəşinə tutmuşlar.

Qəribəsi odur ki, bu dəfə də ümumi qaydalara zidd olaraq hərbçilər avtobusu saxlamaq üçün maşının təkərlərinə deyil, sürücü və avtobusdakı sərnişinləri atəşə tutmuşlar. Avtobus maniəyə dirənib dayandıqdan sonra da hərbçilər vəhşiliklərini davam etdirərək yaralıları avtobusdan çıxardıb soyuq yanvar ayında yerə uzatdırmış, onları dəyənəklə vurmaga başlamışlar. Avtobusun təkcə qabaq şüşəsində 162 güllə yeri var idi.

Hərbi hissələrin siyasi işlər üzrə zabitləri fürsətdən istifadə edib, heç bir ehtiyac olmadan yaralılar və əsgərlər toplaşan yerə bir neçə əl qumbarası atmışlar. Nəticədə bir neçə sərnişin, o cümlədən hərbçilərdən Şemet, Marqolin, Yanvar, Şarapov, Şeldyakov və başqaları, cəmi 14 həfər hərbçi qəlpə yarası almış, bir nəfər- sıravi əsgər Tarakanov ölmüşdür.

Məmmədova Svetlana Həmid qızı, 1939-cu ildə doğulmuşdur, İbrahimov İbrahim İsmayıl oğlu, 1928-ci ildə doğulmuşdur və Mursaqulov İsmayıl Həsən oğlu, 1939-cu ildə doğulmuşdur, "Jiquli" maşınında, yanvarın 24-də səhər, Sumqayıta işə gedərkən qarşıdan gələn tank və BTR-i görərək yolun sağına verib dayanmaqla hərbçilərə yol vermişlər. Ağır tanklardan biri kolonnadan ayrılaraq "Jiquli" maşınının üstünə çıxmış və yenidən sıraya qayıtmışdır. Maşında olan Məmmədova, İbrahimov və Mursaqulovun bütün bədən sümükləri və başları tankın tırtırları altında əzilmişdir. Onların üçü də kimya elmləri doktoru, professor, Sumqayıt neft və kimya institutunun müəllimləri idilər.

Məmmədova 1973-cü ildə namizədlik, 1988-ci ildə Moskvada doktorluq dissertasiyası müdafiə etmişdi. Yüksək molekulyar birləşmələri üzrə ilk qadın elmlər doktoru idi.

Onun 110 elmi işi, 40-dan artıq ixtira və patenti var idi.

İbrahimov İbrahim 1952-ci ildə Moskva Dövlət Universitetini bitirmişdi. 1962-ci ildə namizədlik, 1984-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdi. Onun 140-dan artıq elmi işi və 50 ixtirası var idi.



Mursaqulov İsmayıl ADU-u fərqlənmə ilə bitirmişdi. 26 yaşında namizədlik dissertasiyası müdafiə edən Mürsaqulov 1985-ci ildə elmlər doktoru idi. Yanvarın 20-ə keçən gecədə Mürsaqulov üç nəfər yeniyetmə cavanı piketdə durmağa qoymayaraq mənzilinə gətirmiş və onlara səhərə kimi öyüd-nəsihət vermişdir.

Məmmədovanın bir, İbrahimovun dörd, Mürsaqulovun üç uşağı var idi.

Üç elmlər doktorunu, professoru tankın altında əzən hərbçi V.M.Musin nəqliyyatla yol hərəkət qaydalarını pozduğuna görə yüngül cəzaya məhkum olunmuşdur.

Müqayisə üçün oxucuların öhdəsinə belə bir hadisəni təqdim etmək istəyirik: dəhşətli yanvar hadisələrindən iki ay əvvəl Abdullayev Nizami Gəncə şəhərində idarə etdiyi avtomaşını arxaya sürərkən üç nəfər hərbçini əzmişdi. Onların üçü də xəstəxanada ölmüşdülər. Abdullayevin haqqında olan cinayət işinin istintaqı ilə məşğul olan müstəntiq onun əməlində qəsdən adam öldürmək əlaməti görmüşdür. Abdullayev haqqında olan cinayət işi üzrə tərtib edilmiş ittihamnamə təsdiq olunması üçün Azərbaycan Respublikası Prokurorluğuna göndərilr. Prokurorluqda iş üzrə toplanmış sübutlar nəzərdən keçirilib işin məhkəməyə göndərilməsinə əsaslar olduqda ittihamnamə təsdiq olunmalı və Azərbaycanda qüvvədə olan qanunvericiliyə əsasən cinayət işi baxılması üçün Azərbaycan Ali məhkəməsinə göndərilməli idi. Azərbaycan Respublikasının prokuroru İ.İsmayılov cinayət işi üzrə toplanmış sübutlara düzgün qiymət verməyərək müstəntiqin fikri ilə razılaşıb ittihamnaməni təsdiq edir və cinayət işini Azərbaycan Respublikası Ali Məhkəməsinə təqdim etməkdənsə Rusiyanın vilayət məhkəmələrinin birində baxılması üçün SSRİ Baş Prokurorluğuna göndərir. Oradan cinayət işi ermənilərin kompakt yaşadıqları Rostov Vilayət məhkəməsinə göndərilir.

Rostov Vilayət Ali məhkəməsi cinayət işinə baxaraq Abdullayevi ölüm cəzasına məhkum edir.

Abdullayevin vəkili Teymur İsmiyev dörd il müddətində SSRİ Baş Prokurorluğunda və SSRİ Ali Məhkəməsində döymədiyi qapı qalmır. Abdullayev isə dörd il ölüm cəzasına məhkum olunmuşların kamerasında haqsız ölümünü gözləyir. Nəhayət, dörd ildən sonra SSRİ Ali Məhkəməsi cinayət işinə baxaraq Abdullayevin hərəkətində cinayət əməli olmadığından işin icraatına xitam verir.

Bax, bu, vəzifəli şəxsin vəzifə naminə həmvətəninə olan münasibətinin rəmzidir.

Cinayət işinin materiallarından, o cümlədən "Zərbə" əməliyyatında iştirak edən hərbçilərin ifadələrindən görünür ki, ordunun siyasi xadimləri, hərbçilər şəhərə daxil olmamışdan əvvəl onları yerli əhaliyə qarşı qəddar olmağa hazırlamışlar. Onlar hərbçiləri inandırmışlar ki, yaşayış evlərinin hər bir pəncərəsində, taksi, təcili yardım və ya yanğınsöndürən maşınlarda ekstremistlər ola bilər. Ona görə də ekstremistləri qabaqlamaq məqsədilə hər bir şübhəli obyektə birinci atəş açmaq lazımdır.

Hətta, hərbçilər Salyan kazarmalarından şəhərə çıxmamışdan əvvəl kim tərəfindən və harada öldürülməsi məlum olmayan əsgər Kuzminin meyidi qırmızı mafədə, postamentin üstündə hərbçilərin qarşısına qoyularaq xəbərdarlıq edilmişdir ki, kim ekstremistin əlində ölmək istəmirsə onlara qarşı qəddar olmalıdır. Ona görə də hərbçilər yerli əhaliyə qarşı qəddarlıq göstərmişlər. Bu işdə polkovnik A.Lebedin komandir olduğu, 137 saylı qvardiya Ryazan paraşut-desant alayı və Tula şəhərindən gəlmiş 33842 saylı hərbi-hava desant hissəsi xüsusi ilə fərqlənmişlər. Onlar yanvarın 19-da, fövqəladə vəziyyət elan olunmamışdan iki saat əvvəl Qala hərbi aeroportundan çıxıb Bakıya çatana kimi yolda qarşıladıqlarına atəş açmışdılar.

Şahid İqor Timenko ifadəsində göstərir ki, yanvarın 20-ə keçən gecədə Tbilisi prospektində, Salyan kazarmaları rayonunda hərbçilərin şəhərə çıxan yollarını maşınlarla bağlamışdıq. Saat 00.10 dəqiqədə atışma başlandı. Hər



tərəfdən atırdılar. Mən sol çiynimdən yaralandım. Əvvəlcədən xəbərdarlıq olmadan silahsız insanlara atəş açılırdı.

Şahid Əmiryusifov İmdat isə hadisəni belə təsvir edir:

-Yanvarın 20-ə keçən gecə yüzlərlə başqaları ilə Salyan kazarmaları qarşısında idim. Birdən hərbçilər xəbərdarlıq etmədən silahsız insanlara atəş açmağa başladılar. Yaralılara kömək etməyə də imkan vermirdilər. Hərbçilər onlardan qaçanlara da güllə atırdılar. Mən iki ayağımdan yaralandım. Əsgərlər yaralılara yaxınlaşaraq onları təpikləyir, ya da avtomatın qundağı ilə vururdular. Tanklar maşınların üzərinə çıxıb əzirdilər.

Təcili yardım maşınının sürücüsü Əliyev Məmmədin ifadəsi: "Yanvarın 28-də axşam saat 23-də həkim Tamella Lalayeva ilə Mojayski küçəsi, 97 saylı evə xəstənin çağırışına gedirdik. Frunze küçəsi ilə Petrov küçəsinin tinində hərbçilər bizə atəş açdılar. Həkim Lalayeva çiynindən yaralandı. Mən maşını saxladım. Hərbçilər sənədlərimizi yoxlayandan sonra yolumuza davam etdik. Az getmişdik yenə bizə atəş açdılar. Mən maşını saxladım. Hərbçi yaxınlaşıb maşından düşməyimizi və əllərimizi qaldırmağı əmr etdi. Bizim üstümüzdə axtarış apardıqdan sonra 26 Bakı komissarları adına rayon milis şöbəsinə gətirdilər."

Cinayət işində olan materiallardan görünür ki, 39486 saylı hərbi hissənin siyasi işlər üzrə komandir müavini baş leytenant Polişuk mülki insanlara 30 güllə atmış və iki nəfəri öldürmüşdür. Polişukun özünün dediyinə görə onları belə təlimləmişdilər: - pəncərələrdə, damlarda snayperlər ola bilər, onlardan cəld tərpənmək lazımdır.

3186 saylı hərbi hissənin siyasi işlər üzrə bölük(rota) komandirinin müavini Serqey Şitov dinc əhaliyə 79 güllə atmış, bir nəfəri öldürmüşdür.

135 saylı alayın (polkun) bölmə (vzvod) komandiri Serqey Polyakov ifadəsində göstərmişdir ki, yanvarın 19-dan 20-ə keçən gecə batalyon üzrə məsul növbətçi ölmüş və məxvi rejimdə saat 24-də ordunun şəhərə çıxması və Salyan kazarmalarının kontrol-nəzarət məntəqəsinin təmizlənməsi

haqqında ona məlumat verilmişdir. Şəhərə çıxan hərbçilərin silahı AK-74 markalı avtomatdan, 5.45 mm kalibrli patronlardan, 2 ədəd RQD-5 qumbaradan ibarət idi.

S.Polyakov ifadəsi ilə DTK-dən 4-cü Ordunun qərargahına gedən yolda "üç atəş nöqtəsinə" 2 qumbara və çoxlu patron işlətməklə onları məhv etmişdir.

Oxuculara təqdim etdiyimiz hərbçilərin ifadələri Hərbi prokurorluq tərəfindən istintaq aparılmış cinayət işindən götürülmüşdür. Həmin cinayət işinin ancaq 31 cildi əldə olunmuşdur. Qalan 69 cildini SSRİ Baş hərbi prokurorluğu Azərbaycana qaytarmamışdır.

Azərbaycan Prokurorluğunda qalmış həmin 31 cild cinayət işində oxucu üçün maraqlı olan hərbi prokurorluğun bir qərarının məzmunu ilə oxucunu tanış etmək istəyirik. Qərarda deyilir ki, yanvarın 20-də Lenin meydanında podpolkovnik S.Mayorun komandir olduqu 5459 saylı hərbi hissə ilə 3485 saylı hərbi hissənin hərbçiləri arasında atışma olmuşdur. 3485 saylı hərbi hissənin əsgərləri olan maşında işlənmiş qazın partlayışını onlara tərəf açılmış atəş kimi qəbul etmişlər. 5459 saylı hərbi hissənin əsgərləri, hissənin komandiri Mayorun əmri ilə hərbçilərdən Vasilyev, Kislıx, Kataya, Siqalyov, Prişepa, Reyda, Fedotov, Kravsov, Çürnov, Rıbak bə





Qaqarin 3485 saylı hərbi hissənin hərbçilərini atəşə tutmuşlar. Atışma nəticəsində Maleyev, Oleynik,Kovalyov və Plyüşay ölmüş, Platonov, Qerman, Konovalov, Vinoqradov və başqaları, cəmi 9 nəfər yaralanmışlar. Həmin qərarda hərbçilərdən Moiseyev, Jumanov və Kulişov silahla ehtiyatsız davrandıqları üzündən həlak olmaları da göstərilmişdir.(73-cü cild, səh.185-186, 297 və 308).

Göstərilən hərbçilərin meyidləri qırmızı quaş parça ilə örtülmüş mafədə postamentin üstündə Bakı zabitlər evində hərbçilərə və mətbuat işçilərinə nümayiş etdirilərək azərbaycanlı ekstremistlər tərəfindən öldürülməsi kimi təqdim edilmişdir. Onların meyidlərinin şəkilləri "Огонек» jurnalında da azərbaycanlı ekstremistləri tərəfindən öldürülməsi kimi çap olunmuşdur.(N.6,1990-cı il)

Hərbi prokurorluqda istintaqa nəzarət edən ədliyyə general-mayoru Provotorov da "Военно-исторический журнал»-da istintaqdan xəbərsiz kimi Maleyev, Oleynik, Kovalyov və başqalarının ölümünün azərbaycanlılar tərəfindən törədilməsini göstərmişdir. (N.7, 1990-cı il).

1990-cı ilin yanvarında Bakı şəhərində öz hərbçiləri tərəfindən güllələnən Oleynik, Maleyev, Kovalyov, Plyüşay, Moseyev və başqalarının ailələrinə də onların azərbaycanlı "ekstremistlər" tərəfindən öldürülməsi kimi məlumat göndərilmişdir.

Cinayət işinin istintaq materiallarından göründüyü kimi 23 nəfər arxadan, 28 nəfər döş qəfəsindən, 28 nəfəri isə kəlləsindən aldıqları güllə yaralarından həlak olmuşlar.

Boqdanov Valeriy-4, Rəhmanov İslam-5, Atakişiyev Şakir və Hüseynov Nəriman hərəsi-6, Mirzəyev Elçin-18, Meyeroviç Yan-21, Rüstəmov Rövşən - 32 güllə yarası almışlar. Bütün bunlar qəsdən, xüsusi amansızlıqla dinc, silahsız əhalinin qırılmasına yönəldilmiş cinayətlərdir.

## Əsassız həbslər

"Dağlıq Qarabağ Muxtar Vilayətində və bir sıra başqa rayonlarda fövqəladə vəziyyət elan olunması" haqqında SSRİ Ali Sovetinin 15 yanvar 1990-cı il tarixli fərmanına əsasən Dağlıq Qarabağ Muxtar Vilayətində, onunla qonşu olan Azərbaycan rayonlarında, Ermənistanın Gorus rayonunda və sərhəd rayonlarında fövqəladə vəziyyət tədbiq olunmalı idi.

Fərmanın 5-ci maddəsinə əsasən həmin rayonlarda ictimai qaydaları pozan, provokasiyalı şayiələr yayan, habelə vətəndaşlar və vəzifəli şəxslər tərəfindən hüquq və vəzifələrinin həyata keçirilməsinə və fövqəladə rejimə zidd hərəkət edənlərə qarşı inzibati qaydada 30 sutka həbs cəzası nəzərdə tutulmuşdu.

SSRİ Ali Soveti Rəyasət heyətinin 19 yanvar 1990-cı il tarixli "Bakı şəhərində fövqəladə vəziyyət elan olunması" haqqında Fərmanında qayda-qanunu pozanlara qarşı 30 sutkalıq həbs tədbiqi nəzərdə tutulsa da, həmin Fərman qüvvədə olan SSRİ və Azərbaycan Konstitusiyalarına zidd olduğuna, Fərmanın verilməsində Azərbaycanın Ali hakimiyyət orqanlarının razılığı alınmadığına görə və çoxlu miqdarda insan tələfatına yol verildiyinə görə Azərbaycan Ali Sovetinin Sesiyası tərəfindən ləğv olunmuşdu.

SSRİ cografiyası ilə az-çox tanış olan hər bir kəs bilirdi ki, Bakı şəhəri nə Dağlıq Qarabağ ərazisində, nə onunla qonşu rayonda, nə də SSRİ-nin sərhəd rayonunda yerləşir. Ona görə də 15 və 19 yanvar tarixli fərmanların Bakı şəhərində tədbiqi yol verilməz idi.

Ali Sovetin yerli əhaliyə qarşı vakxanaliyanın qarşısı alınması üçün qəbul etdiyi qərar yerli vəzifəli şəxslər, xüsusən milis işçiləri tərəfindən kobud surətdə pozulurdu. Daxili İşlər naziri A.Məmmədov Xəzər gəmiçiliyi idarəsindən gəlmiş şəxs idi. Ola bilsin ki, qanunun incəliklərini bilmir və ya başa düşmürdü. Azərbaycan Respublikasının prokuroru İlyas İsmayılov həmin faciəli günlərdə hüquq elmləri doktoru elmlər dərəcəsi almaq üçün Moskvada dissertasiya müdafiə etmişdi.



Prokuror respublika daxilində qanunların düzgün tədbiq olunmasına ali nəzarəti keçirən vəzifəli şəxs idi, belə bir özbaşnalığın qarşısını almalı idi. Bu onun məsul vəzifəsi idi.

Qısa müddətdə təkcə Bakı şəhərində 796 nəfər haqsız olaraq 30 sutkalıq həbs cəzasına məruz qalmışdı. Soyuq yanvar-mart aylarında Bayıl və Şüvəlan tədricxanalarının bir-çox kameralarında istilik yox idi. Xalq cəbhəsinin üzvlərini, Kommunist və Sovet rejiminə qarşı müxalifətdə olanları yüngül paltarda evlərindən həbsə alıb aparırdılar. Tədricxanalarda yer olmadığından həbsə alınmışların 150 nəfərə qədəri Rusiyanın Kuybışev, Ulyanovski və Vladimir şəhərlərinin tədricxanalarına göndərmişdilər. Onların bir hissəsini əlləri qandallı Qala aeroportundan təyyarə ilə, qalan hissəsini isə "Stolıpin" qatarlarında cəzaçəkmə yerlərinə göndərirdilər.

Əsassız həbsə alınanların sırasında Əzizbəyov rayonunun xalq cəbhəsinin üzvləri Xaliq, Cümşüd və Adabala Ağayev qardaşları, Telestudiyadan Vasif Babayev, Savalan Rafiq, Azər Zamanlı və başqaları var idi. Həbsə alınanları dəyənək və avtomatın qundağı ilə kürəklərinə və başlarına zərbə vurub təhqir edirdilər:-" Sən qulsan, qul da qalacaqsan, yaramaz, alçaq adlandırırdılar." Bununla belə ana söyüşü də dillərindən düşmürdü.

Həbsə alınanların çoxu nə səbəbə və hansı müddətə tutulmalarını belə bilmirdilər.

Ulyanovski şəhər təcridxanasında 30 sutkalıq həbs cəzası çəkən telestudiyanın rejissoru Vasif Babayev ifadəsində göstərirdi ki, həbs olunandan sonra hara aparılmağımı və hansı müddətə həbs olunmağımı bilmirdim. Zənn edirdim ki, 37-ci il başlanıb, vaqonda bizi haraya isə aparıb güllələyəcəklər. Ulyanovski təcridxanasında saxlandığımız 26-27 gün müddətində nəzarətçilərdən nə soruşurduqsa söyüş və insana xas olmayan münasibətlərlə qarşılanırdıq. Onlar bizi yaramaz, alçaq,"tuzemes" adlandırırdılar. 26-27 gündən sonra Ulyanovski şəhərində ticarət işləri ilə məşğul olan azərbaycanlılar (Göyçay rayonundan idilər) həmvətənlilərinin həbsdə olmalarını eşidib bizim görüşümüzə gəldilər. Onlar

hər dəfə görüşə gələndə bizim üçün dadlı yeməklər, meyvələr gətirirdilər. Gətirilən yeməklərdən bizi təhqir edən nəzarətçilərə də verirdik. Nəzarətçilərin özləri alçalıb qarşımızda qula dönmüşdülər.

Bakı şəhərində milis işçilərinin vətəndaşların həbs olunmasında hərəkətləri həddini aşırdı. Hərbiçilərin heç bir təqsiri olmayanları güllələdiklərini, Ordunun Bakıya soxulmasına, onları işğalçı adlandırmaqla etirazlarını bildirənləri milis işçiləri 30 sutkalıq həbsə alıb təcridxanalara göndərirdilər.

26 Bakı komissarları adına rayon milis şöbəsinin əməliyyat müvəkkili D.R.Ağabəyov ikinci qrup əlil olan Xəlilov Davud Babaxan oğlunu Sovet Ordusunu işğalçı adlandırdığına görə 30 sutka həbsə almışdır.

Həmin şöbənin sahə müvəkkili, milis kapitanı A.M.Hüseynov Məmişov Əzəmət Məmiş iqlunu Ordunun Bakıya girməsinə narazılığını bildirdiyinə görə həbsə almışdı.

Həmin şöbənin patrul xidməti bölməsinin işçisi N.Sultanov Kərimov Oqtay Xanış oğlu və Əlizadə Müşviq İsa oğlu Sovet Ordusunun Bakıya gəlmələrinə narazı olduqlarına görə həbsə alınmışdıar.

Nəsimi rayon milis şöbəsinin sahə müvəkkili İ.Məmmədov Orucov Mühəddin Qara oğlunun həbs olunması üçün tərtib etdiyi protokolda yazmışdı: “hərbçiləri işğalçı adlandırmışdır”. Şöbənin rəisi N.Ağayev onunla razılaşmışdı.

Həmin şöbənin növbətçisi V.Qafarov Novruzov Mehman Ağamirzə oğlu haqqında ermənilərin hərəkətini pislədiyinə görə protokol tərtib etmiş, rəis N.Ağayev protokolu təsdiq etmişdir.

Əzizbəyov rayonunda, sərxoş vəziyyətdə olan Pankraşin Vladimir öz anasını döydüyünə görə 15 yanvar Fərmanına əsasən 30 sutka həbsə alınmışdır.

Bax, belə. Protokollar 796 ədəddir!

Bu kimi savadsız protokollar hərbi komendantlar: Boyko, Dorofeyev, Markov, Zenkoviç, Rubsov, Liçman, Cernov və Buntsev, Azərbaycan Respublikası Daxili İşlər nazirinin



müavini R.Məmmədov, Əzizbəyov rayon DİŞ rəisinin müavini Məşədiyev, Bakı şəhər Daxili işlər idarəsinin rəisi vəzifəsini ifa edən B.Əliyev və başqa vəzifəli şəxslər tərəfindən təsdiq edilmişdir.

Faktiki olaraq bütün 796 protokol qanuna zidd və həbs olunmalar əsassız idi. Bunu SSRİ-nin Xalq deputatları: alim T.İsmayılov, bəstəkar A.Məlikov, həkim A.Namazova, fəhlə S.Vəzirova başa düşür və bu kimi haqsızlıqların qarşısı alınması və həbsə alınanların azad olunması üçün rəsmi olaraq deputat sorğusu ilə Azərbaycan Respublikası pokuroru İ.İsmayılova müraciət etmişlər.

İ.İsmayılov deputat sorğusunu müavini Cəfərquliyevə o da öz növbəsində şöbə prokuroru Əliyevə ünvanlayır.

Nəticədə deputatlara aşağıdakı məzmunda cavab məktubu hazırlanır:

-Hörmətli deputat yoldaşlar!

Lənkəran və Neftçala rayonlarında inzibati qaydada həbs olunma SSRİ Ali Soveti Rəyasət heyətinin 23 noyabr 1988-ci il, 15 və 19 yanvar 1990-cı il tarixli fərmanları əsasında həyata keçirilmişdir. Sizin mülahizələrinizə uyğun aparılan yoxlamalar nəticəsində Lənkəran və Neftçala rayonlarında inzibati qaydada həbs olunmalarda qanun pozğunluğu müəyyən edilməmişdir.

3 saylı istintaq təcridxanasında aparılan yoxlama zamanı müəyyən edilmişdir ki, 28001 saylı hərbi hissənin hərbçiləri komendant saatı elan olunana qədər Qala qəsəbəsində 49 nəfəri hərbi hissədə saxlamışlar. Yanvarın 22-də onlar 3 saylı tədricxanaya gətiriləndən sonra prokurorluq tərəfindən azad olunmuşlar. Həmin fakt üzrə Bakı hərbi prokurorluğuna rəsmi məlumat göndərilmişdir.

Arayış: 49 nəfərin saxlanmaları haqqında protokol tərtib olunmadığından istintaq təcridxanasının rəisi Zeynalov tərəfindən həbsdən azad edildiklərinə görə o Əzizbəyov rayon hərbi komendantı polkovnik M.Q.Boyko tərəfindən bir gün Daxili işlər şöbəsində saxlanılmış, sonra isə işdən kənarlaşdırılmışdır. 3 saylı istintaq təcridxanasına SSRİ DİN-

nin əməkdaşı V.A.Vikulov rəhbərlik etmişdir. Görünür İ.İsmayılovun işçiləri ona düzgün məlumat verməmişlər.

1990-cı il yanvar ayının 26-da Cəlilabaddakı kütləvi iqtişaşla əlaqədar başlanmış cinayət işi üzrə həbsdə olan Mirişovu dindirmək üçün kitabın müəlliflərindən biri 3 saylı istintaq tədricxanasına gəlmişdi. Lakin SSRİ Daxili işlər naziri V.Bakatinin istintaq tədricxanasına gəlməsi ilə əlaqədar müstəntiqin məhbusla görüşünü təxirə salmışdılar. Bir neçə müddətdən sonra nazir V.Bakatin Azərbaycan Respublikası Daxili işlər naziri A.Məmmədov, həmin nazirliyin şöbə rəisi N.Talıbov və başqa işçiləri ilə birlikdə tədricxanaya gəldilər.

Nazir V.Bakatin tədricxananın həyətində mülki geyimdə olan müstəntiqi görüb yanındakılardan onun kim olmasını soruşdu. A.Məmmədov onun prokurorluğun müstəntiqi olmasını bildirdikdən sonra V.Bakatin onun qoluna girib kameralardakı vəziyyətlə tanış olmağa dəvət etdi. V.Bakatin bir neçə kameraya baxandan sonra sanki özbaşına danışırmış kimi üzünü müstəntiqə tutub dedi:

Mən hüquqşünas deyiləm, hüquq elmlərini ilə də az başa düşürəm. Lakin hiss edirəm ki, özbaşnalıq (bardak tvoritsa) hökm sürür. Bununla o rus millətində işlədilən ana söyüşünü də işlətməkdən çəkinmədi. Oradaca V.Bakatin bir qoca kişini, bir nəfər bir ayağı olmayan əlili azad edib kameradan çıxdı.

Oxucu haqlı olaraq soruşa bilər: -"Bəs hanı hərbçilərə qarşı silah iladən "ekstremistlər", hanı hərbçiləri güllələyənlər?"

Bizi də bu suallar maraqlandırırdı. Lakin onlara cavab tapmadıq. Hərbçilərin məlumatlarında belə bir fikir gedir ki, onlara güllə atanlar qaçıb gizlənirdilər, hərbçilər isə onları tuta bilmirdilər. Biz də öz növbəmizdə onlara "inanırdıq". İnanırdıq ki, hadisələrdən xeyli əvvəl əhalidən yığılmış ov tüfəngləri və Zabitlər evində nümayiş etdirilən həmin ov tüfəngləri "ekstremistlərdən" alınmış tüfənglərdir. Hətta, Qırmızı bayraqlı xəzər donanmasının muzeyindən götürülüb nümayiş etdirilən "Maksimka" pulemyotunun ekstremistlərdən alındığına inanırdıq.



Bir də ki, hərbçilərə "ekstremistləri" tutub saxlamaq və onları cəzalandırmağa əmr verilməmişdir. Onlar "ekstremictləri" gülləmək əmrini almışdılar. Əmri yerinə yetirirdilər.

Cəsarət, mərdlik həyatin zərbələrini heçə endirir.

**_Demokrit._**

Cəsarət, mərdlik, igidlik insan qəlbinə xas olan əlamətdir. Ona malik olan xalq fəxr etməlidir.

**_N.M.Karamzin._**

Əsl qəhrəmanlıq fəlakət baş verəndə özünü göstərir.

**_F.Volter._**

## Mərd və cəsarətli xalq

Bu müdrik sözlər sanki 1990-cı ilin yanvar ayının 19-dan 20-ə keçən gecə həyatın ağır zərbələrini görmüş xalq üçün deyilmişdir.

Çoxmilyonlu Bakı əhalisi 1990-cı ilin yanvarında Sovet əsgərlərinin onlara tuşladığı güllələr altında birləşdilər, mərdləşdilər və möhkəmləşdilər. Hərbiçilərin dinc xalqa qarşı münasibətləri amansızlaşdıqca, xalq birləşir və öz humanist hərəkətləri ilə onlara qarşı dururdu.

Faciənin ancaq birinci günü, yanvarın 20-ə keçən gecə Təcili yardım xəstəxanasına 207 nəfər güllə yarası almış xəstə daxil olmuşdu. Həmin gün xəstəxananın baş həkimi Cahangir Əsgərov cərrahiyyə əməliyyatları aparılması üçün 40 nəfər cərrah həkimdən 10 briqada təşkil etmişdi. Belə bir işi ancaq bacarıqlı inzibatçı təşkil edə bilərdi. Cahangir Əsgərovun nadir bacarığı həmin gün tamam yerinə düşmüş oldu. O, cərrah həkimlərlə telefon əlaqəsi saxlayıb yaranmış vəziyyəti onlara danışır və xəstələrə tibbi yardım göstərmək üçün xəstəxanaya çağırırdı. Köməyə gələn həkimlərin çoxu onun həkimləri deyildilər. Onlar atılan güllələr altında Təcili yardım xəstəxanasına gəlib xəstələrin üzərində cərrahiyə əməliyyatları aparırdılar. Xəstələrin arasında azərbaycanlı, tatar, rus və başqa millətdən olanlar var idi.





*Kimdir ekstremist*

Rus millətindən olan yaralı Valeri Boqdanovun üzərində cərrahiyə əməliyyatını azərbaycanlı cərrah C.Cəfərov aparırdı. İvan Proxorov həmin klinikada üç ay müddətində müalicə olunmuşdur.

Qan vermək üçün Cahangir Əsgərov həkimlərdən birini Tibb institutunun yataqxanasına göndərir. Həmin gün institutun 350 nəfərdən artıq tələbəsi donor oldu. Həmin donor tələbələr bir neçə gün güllə yarası almış xəstələrin yanında gecə və gündüz növbədə durub onlara xidmət edirdilər.

Cərrahiyə şöbəsinin müdiri İkrəm Abbasov qanlı yanvar günündə sərhəd rayonlarda ezamiyyətdə idi. Baş vermiş hadisə haqqında xəbər tutan kimi Bakıya qayıdıb işə çıxmışdı.

Semaşko adına klinik xəstəxananın baş həkimi Yaşar Əliyev yanvar ayının 13-dən xəstə vəziyyətdə evində yatırdı. Hadisə günü Volodarski fabrikasının yaxınlığında güllə səsi eşidib xəstəxanaya gəlir. Həyətdə çoxlu miqdarda xəstələrin toplanmasını görən baş həkim Əliyev onların palatalara qaytarılması haqqında həkimlərə göstəriş verir. Özü isə Semaşko adına xəstəxananın baş həkimi C.Əsgərova kömək etmək üçün oraya gedib daxil olan xəstələrin yerləşdirilməsi ilə məşğul olmuşdur.

Xəstəxananin ginekologiya şöbəsinin müdiri Firəngiz Məhərrəmova həmin gecəni belə xatırlayır:

-Faciəli yanvar gecəsində yeni doğulmuş uşaqları atılan güllə səsləri altında qəbul edirdik. Bir çox hamilə qadınlar stress keçirirdilər. Biz onları sakitləşdirirdik. Uşaqları yeni doğulmuş analar pəncərələrin qarşısında dayanıb havada işıqlı iz buraxan güllələrin izinə baxıb qorxu, həyəcan keçirirdilər. Bütün bu iyrənc vəziyyətə baxmayaraq sarğı materiallarını toplayıb Təcili yardım xəstəxanasına göndərdim.

Başqa bir həkim Mahmudova Zemfira 20 yanvar gecəsinin belə təsvir edir:

-Nəsimi bazarının yaxınlığında yaşayırdım. Yanvarın 19-dan 20-ə keçən gecə, saat 24 radələrində avtomatdan atılan güllə səslərini eşitdim. Ətraf projektorlarla işıqlandırılırdı. Anam təşvişlə bildirdi ki, nə isə baş verib mən xəstəxanaya getməliyəm. Eyni zamanda o, mənim getməyimi istəmirdi. Hər tərəfdən güllə səsləri eşidilirdi. Mən anamı həyətdə qoyub təsərrüfat mağazasının yanı ilə xəstəxanaya tərəf getdim. Xəstəxanada şöbə müdiri və başqa həkimlərlə rastlaşdım. Onlar məndən əvvəl gəlmişdilər. Biz hamımız xəstələrə tibbi yardım göstərirdik. Az sonra anam da xəstəxanaya gəldi. Anam məni qucaqlayıb : -"əmdiyin süd halal olsun sənə"-dedi.

Mərdəkan qəsəbəsində yerləşən 26 saylı şəhər birləşmiş klinik xəstəxanasının qəbul şöbəsinin müdiri Ş.Şükürovun təqdim etdiyi arayış maraq doğurur: -"1988-ci ildə xəstəxanaya 5946 xəstə daxil olmuşdur, onlardan 477 nəfəri rus, 113 həfəri erməni millətindən olmuşdur. 1989-cu ildə daxil olan 6609 nəfər xəstədən 469 nəfəri rus, 23 nəfəri erməni millətindən olmuşdur. Maraqlıdır, həmin illərdə ermənistan xəstəxanalarında bir nəfər də olsa azərbaycanlı xəstə müalicə olunmuşdurmu?

26 saylı şəhər birləşmiş klinik xəstəxana ilkin olaraq xəstələri qəbul etmişdir. Baş həkim Ənvər Həmidovun gözü yaşlı vəziyyətə bunları danışırdı:

-Yanvarın 19-da saat 22.05-də Mövludov Fuadın yaralanması haqqında məlumat daxil olmuşdu. O, Türkan-Qala



yolunda yaralanmışdı. Saat 22.40-da Binə-Mərdəkan yolunda benzindoldurma məntəqəsində hərbçilərin dinc əhalini güllə atəşinə tutmaları haqqında məlumat daxil oldu. Saat 23-də ilk yaralılar xəstəxanaya daxil oldu. Ümumiyyətlə həmin gecə xəstəxanaya 84 nəfər yaralı daxil olmuşdur. Saat 23-də çağırışa gedən 15 saylı təcili yardım stansiyasının həkimi Aleksandr Marxevka hərbçilər tərəfindən atılan güllə yarasından təcili yardım maşınında keçinmişdi. Xəstəxananın maşını ilə dava-dərman gətirən sürücü Rəhman Əşrəfov da hərbçilərin gülləsindən dünyasını dəyişmişdi.

Daha sonra Ə.Həmidov göstərir ki, yanvarın 20-də, gecə saat 2-də onu telefona çağırıb tapşırmışlar ki, heç kəsə heçnə demədən müalicə üçün lazım olan dərman və alətləri götürüb rayon partiya komitəsinə gəlim. Məni raykomda hərbçi qarşılayıb ikinci katib N.Zahidovun otağına apardı. Orada iki nəfər əllərindən yara almış hərbçiyə tibbi yardım göstərdim. Hərbçi zabit məndən nə üçün xəstələri rentgen müayinəsindən keçirilməməsinin səbəbini soruşdu. Mən ona cavab verdim ki, gecə saat 2-də rentgen kabineti işləmir və hərbçi xəstələri hərbi qospitala göndərmək lazımdır. Bundan sonra Əzizbəyov rayonunun hərbi komendantı xəstələrə tibbi yardım göstərilməməsi haqqında Mərkəzə məlumat göndədi.

Həmin gecə Mərdəkan, Şüvəlan, Şagan, Buzovna, Binə, Qala və başqa kəndlərdə yaşayan həkimlər xəstəxanaya toplaşmışdılar. Raykomun katibi Bilurə İbrahimova özü xəstəxanaya gəlib əhalidən qan almaqda iştirak edirdi.

Qan vermək istəyənlərin sayı çox idi. Hətta hamilə qadınlar qan verməyə gəlmişlilər.

Ətraf kəndlərin əhalisi evdə yemək hazırlayıb gətirirdilər. Onlar xəstələri yedirtdikdən sonra həkimlər evə getməsinlər deyə onları da yedirdirdilər.

Həkim Q.A Sultanov həmin gün mərdlik və cəsarət göstərmişdir.

Anesteziologiya şöbəsinin müdiri Vaqif Mehdiyevin İfadəsi:

-Yanvarın 20-də iş yerindən telefonla zəng edib bildirdilər ki, xəstəxanaya çoxlu sayda yaralı daxil olmuşdur, anastizoloqun

köməyi lazımdır. Mən tez geyinib evdən çıxdım. Suraxanı təcili yardım stansiyasına gəlib təcili yardım maşınında məni Mərdəkana yola salmalarını xahiş etdim. Təcili yardım maşınında Suraxanı yolunda bizi güllə atəşinə tutdular. Məcbur olub geri qayıtdıq. Təxminən yarım saatdan sonra qonşum, cərrah Q.A.Sultanovdan mənimlə getməyi xahiş etdim. Onunla yola çıxanda hərbçilər bizi saxlayıb maşından düşməyi əmr etdilər. Biz maşından düşdük. Avtomatlı əsgər əllərimizi yuxarı qaldırmağa əmr verdi. Mən və sürücü əllərimizi qaldırdıq. Həkim Sultanov əllərini qaldırmadı. Əsgər avtomatı ona dirəyib yenidən əllərini qaldırmağı əmr verdi. Sultanovun ona cavabı bu oldu: "Mən müharibə vaxtı beş il faşistlərlə vuruşub xalqımı müdafiə etmişəm. İndi isə həkim kimi yaralılara kömək əlimi uzatmaq üçün gedirəm, Sizin qarşınızda isə heç vaxt əllərimi yuxarı qaldırmaram."

19 yanvar 2002-ci ildə "Зеркало» qəzetində həkim Çingiz Rüstəmzadə və sürücü Rövşən İsmayılovun 20 yanvar haqqında xatirələri dərc olunmuşdur. Həmin yazının qısa məzmununu oxucuların nəzərinə çatdırmaq istərdik.

Ç.Rüstəmzadənin xatirələri: Sumqayıt şəhər xəstəxanasında baş həkimin müavini vəzifəsində işləyirdim. Yanvarın 20-də yollar baglı olduqundan işə gedə bilmədim. Bütün mitinqlərdə iştirak edirdim. Yanvarın 20-də güllə səslərinə evdən çıxıb dostumla X1 Qızıl ordu meydanına getdik. Maşını dayanacaqda qoymaq istərkən tanklar üzərimizə gəldi. Bizə atılan güllələrin boş olmasını zənn etdik. İnanmaq olmazdı ki, dinc insanlara güllə atsınlar. Yanımızda camaatın güllədən yerə yıxılmaqlarını gördükdə qaçıb kolluqda gizləndik. Yanımdakı oqlan qolundan yaralandı. Mən onun qolunu sarıyıb xəstəxanaya getməyini məsləhət bildim.

Mən yenidən meydana qayıtdım, bu vaxt Mətbuat prospekti tərəfdən tanklar göründü. Tankların üstündə olan pulemyotdan atəş açırdılar. Yaxınlıqda dayanan qara "Volqa" maşınından çıxan kişi Salyan kazarmaları yaxınlığında çoxlu yaralı və şəhid olanlar haqqında məlumat verdi.



Yük maşınının sürücüsü Rövşəndən məni Salyan kazarmalarına aparmağı xahiş etdim. Biz 4-cü Ordunun qərargahına çatanda atəşə tutulduq. Güllə maşının qabaq şüşəsini deşdi. Biz yoldan dönsək də atışma davam edirdi. Güllələr sağdan da, soldan da maşına yağdırılırdı. Ayağıma dəyən güllə ayağımı deşib çıxdı. Mənə dəyən güllələri saya bilirdim: bir, iki, üç, dörd, beş. Güllələr mənim beldən aşağı nahiyələrimi yaralayırdı. Rövşənə güllə sümüyünə dəydiyindən o, bərkdən qışqırdı və maşının sükanını buraxdı. Maşın hasara söykənib dayandı. Ancaq bundan sonra bizə atılan atəş kəsilmədi. Bir neçə nəfər tanımadığım şəxs bizi yaxınlıqdakı hospitala gətirdilər. Bizə ilkin tibbi yardım göstəriləndən sonra Semaşko adına xəstəxanaya apardılar. Mən əlil kimi işdən azad olundum. Bu gün Tibb institututunun kafedrasında assistent işləyirəm.

Öz hərəkətlərimdən peşiman deyiləm. Bu gün də Qarabağ uğrunda müharibəyə getməyə hazıram.

Yük maşınının sürücüsü Rövşən İsmayılov həmin hadisəni belə nəql edir:

Ç.Rüstəmzadəni Tibb institutunun yanında maşına mindirib getdik. Yollar hər tərəfdə bağlı idi. Papanin körpüsünün yanında tankdan atılan atəş maşının bortunu sındırdı. Arxamızca BTR gəlirdi. Onlar sadəcə olaraq bizimlə "oynayırdılar". Tankın və BTR-lərin üstündə oturmuş əsgərlər yaşlı, şineldə olan adamlar idilər. Onlar bütün hərəkətdə olanlara atəş açırdılar.

Biz hərbi hospitala çatanda, sanki bizi gözləyən BTR-in üstündə olan 5-6 hərbçi tullanıb yerə uzandılar və bizə qarşı şiddətli atəş açmağa başladılar. Mənim dizimin oynağına güllə dəydi. Ağrıdan şok vəziyyətə düşdüm. Özümə gələndə mənə bir güllə də dəydi. Tamam huşumu itirib açıq qapıdan yerə yıxılmışdım. Çingizə də bir neçə güllə dəymişdi. O, da üzü quylu yerə yıxılmışdı.

Mən ayılanda hərbçinin mənim üzərimdə axtarış apardığını gördüm. Onun bir ayağı üstümdə idi. O, avtomatı mənə tərəf tutaraq hədələyirdi: "Səsini çıxarsan beynini partladaram."

Həmin gecə 3.5 litr qan itirmişdim. Semaşko adına xəstəxanada ayağımın birini dizdən aşağı hissəsini kəsdilər, digər ayağım sağaldı. Hazırda ikinci qrup əliləm.

Mərdan Qədimov 20 yanvar gecəsində başqa bir yaralıya yardım edərkən güllə yarası almışdı. Həkimlərin konsiulumundan sonra onun yaralanmış qolunu kəsmək qərarına gəlirlər. Lakin həkim Mirsəlim Abbasovun təkidi ilə Mərdanın qolu kəsilmir. Həkim onu müalicə edir. Mərdan bu gün də xəstəxananın baş həkimi A.Həmidova, onu bir dəqiqə də olsa tək qoymayan tibb bacıları Maya Məlikova və Tamella Qurbanovaya, habelə cərrah Abbasova minnətdar olmağını yaddan çıxarmır. O, bu gün də əlinə silah alıb Qarabağın azad edilməsinə getməyə hazır olduğunu bildirir.

Dinc bir zamanda hərbçilər tərəfindən güllə yarası almış Mərdanın Fin və Böyük Vətən müharibələrini keçmiş atası Əliməmməd kişi başqa fikirdədir. O, hərdən fikrini açıqlayıb deyir ki, Sovet Ordusunun əsgəri kimi əlində silah Sovet hakimiyyətini faşistlərdən müdafiə etmişdir. Sülh şəraitində yaşadıqları zaman oğlu Sovet əsgərinin gülləsindən yaralanıb əlil olmuşdur. Bir evdə iki kişi, iki əlil. Oğlunun əlil olmasında Əliməmməd kişi özünü günahkar sayır.

Faciəli yanvar günlərində Xəzər dəniz gəmiçiliyinin 46 nəfər dənizçisi həbs olunaraq Şüvəlan və Rusiyanin Ulyanovcki və Kuybışov tədricxanalarında saxlanırdılar. Dənizçiliyin qərarına əsasən həbsə alınanların ailələrinə maddi kömök etmək üçün vəsait ayrılmışdı. Lakin onların vəziyyətinin ağır olmasına baxmayaraq həmin vəsaiti heç kəs almamışdı. Ayrılmış vəsaitin şəhid olanların ailələrinə verilməsini tələb etdilər.

Bakıda fövqəladə vəziyyətin davam etməsinə baxmayaraq şəhid olanların dəfni böyük iztihama çevrildi. Mərkəzi meydanda dəfn günü bir milyondan artıq əhali toplanmışdı. Onlar cənazələri çiyinlərində keçmiş Lenin meydanından Dağüstü parka apardılar. Şəhidlərin dəfn yerində "Şəhidlər xiyabanı" yaradıldı.

Şəhidlərin dəfni ümumxalq kədərinə çevrildi. Dəfn günü cənazələr çiyinlərdə aparılan bütün yollar, Sabunçu



dairəsindən başlayaraq Dağüstü parka qədər, 20 kilometrdən artıq məsafə qırmızı qərənfillərlə örtülmüşdü.

Yollara səpələnmiş qərənfillər Bakı zəhmətkeşləri tərəfindən bayram günlərində Moskva, Leninqrad və Rusiyanın başqa şəhərlərində bayram əhval-ruhiyyəsini artırmaq məqsədilə becərilmişdi.

Qədim rəvayətə görə ov allahı Diana, ov baş tutmadığına görə qəzəbini söndürmək üçün yolun kənarında tütək çalan yeniyetmənin üzərinə yönəldib onu tütək çalmaqla ov quşlarını uçurtmaqda günahlandıraraq oxla yaralayır. Yeniyetmədən axan qanın yerində, qırmızı qan rəngində qərənfil gülü bitir. Bu yer üzündə kədərlə yaranmış ilk qərənfil idi.

Fransızlar müharibəyə gedən ata, qardaş və ərlərinin qırmızı qərənfillə yola salırdılar. Napaleonun əsgərləri qırmızı qərənfili onları hər bir bəladan qoruyan etibarlı tilsim sayırdılar.

Fransada və İngiltərədə qırmızı qərənfil nəciblik gülü sayılırsa, Belçika və Almaniyada qırmızı qərənfil xalqın gülü, məhəbbət, sədaqət, düzlük və etibarlıq gülü sayılır.

Qırmızı qərənfil Azərbaycanda 20 yanvar faciəsi rəmzinə çevrildi.

həmin faciəli günlərdə yazırdı:

Qərənfil – şəhid qanı:
Ağla, qərənfil, ağla!
Ağla, inlət dünyanı:
Ağla, qərənfil, ağla.

İnsanlar anadan qəhrəman doğulmurlar. Onlar həyatda mərdləşir, qeyrətə gəlir, qəhrəman olurlar. Qəhrəman olmaq üçün insan həyatın bütün ağırlıqlarına dözməyi bacarmalıdır. 20 yanvar 1990-cı il faciəsini həmvətənlərinin günahsız tökülmüş qanlarını görmüşlər qeyrətə gəldilər, mərdləşdilər, mətanətli qəhrəman oldular.







## Cinayətkarlar

Günahsız tökülmüş qanlar bağışlanmır.

Qorbaçov, Yazov, Primakov, Bakatin, Varennikov, Volski, Lebed, kimilərinin törətdikləri ağır cinayətləri bağışlamaq olarmı? Belə zənn edirik ki, günahsız tökülən qanı heç vaxt bağışlamaq olmaz! Xristianların müqəddəs kitabı sayılan "Bibliyada" deyilir: -"Venikoysi, domom loy nikoysi." (hər şeyi bağışlamaq olar, günahsız tökülmüş qanı heç vaxt bağışlamaq olmaz).

Cinayət hüququnda "təşkilatçı", "icraçı", "köməkçi" və "təhrikçi" kimi terminlər vardır. Onların hər biri cinayətin törədilməsində bu və ya başqa formada iştirak dərəcəsindən asılı olmayaraq cinayətkar sayılırlar.

Cinayətin törədilməsini təşkil edən və ona rəhbərlik edən təşkilatçı sayılır.

Təhrikçi isə məsləhət və göstərişləri ilə cinayətkarı cinayət törədilməsinə təhrik edir.

Köməkçi, cinayətin törədilməsi vaxtı pusquda durmaqla, cinayətkara cinayəti törətmək üçün silah verdikdə, əvvəlcədən danışığa əsasən cinayət nəticəsində əldə edilmiş əmlakı gizlətməklə və s. köməklik edirsə cinayətdə iştirakçı sayılır.

1988-ci ilin fevral ayında Sumqayıtda,1990-cı ilin yanvarında Bakıda törədilmiş qanlı faciədə, habelə Azərbaycan torpaqlarının 20% işğal olunmasında Qorbaçov əsas cinayətkar sayılmalıdır. Həmin cinayətlər Qorbaçoun bilavasitə təşkilatçılığı, köməkliyi və təhriki ilə həyata keçirilmişdir.

Qorbaçovun cinayətkar əməllərinin icraçıları Yazov, Bakatin, Primakov, Varennikov, Volskiy, Lebed, və dinc əhaliyə atəş açan hərbçilər olmuşlar.

S.İ.Çernyavskiy "Новый путь Азербайджана" kitabında yazır: " Cov.İKP MK Siyasi bürosunun Qorbaçov sədrlik etdiyi iclasında A.A.Qromıko, E.K.Liqaçov, V.P.Nikonov,

N.N.Slyunkov, M.S.Solomentsev, V.M.Çebrikov, E.A.Şevardnadze, A.N.Yakovlev, Y.D.Maslyukov, N.V.Talızin, D.T.Yazov, O.D.Baklanov, A.P.Biryukova və İ.BV.Kapitonovun iştirakı ilə "Azərbaycan və Ermənistanda baş verən hadisələr müzakirə olunarkən "dəvəquşu siyasəti" (başını kola soxmaqla arxadan xəbərsiz olmaq-red.) həyata keçirilmişdir. Yerevanda keçirilən mitinqlər Siyasi büronun üzvlərinin portretləri altında keçirilməsi Qorbaçovun xoşuna gəlmişdir.

Qərara alınmışdır ki, may ayında hər iki respublikada növbədənkənar plenumlar keçirməklə birinci katiblər dəyişdirilsin.

Buna baxmayaraq hər iki respublikada mitinqlər davam edirdi. Martın 17-də 70 mindən artıq Qarabağ erməniləri Dağlıq Qarabağın Ermənistanla birləşdirilməsi tələbi ilə küçələrə çıxdılar. Martın 20-də Vilayət Partiya Komitəsi mitinqə çıxanların tələbini müdafiə etdi. Üç gündən sonra SSRİ Ali Sovetinin Rəyasət heyəti ermənilərin əsassız tələbinə rədd cavabı verdikdən sonra Yerevanda və Ermənistanın başqa şəhərlərində artıq ruslara qarşı kütləvi mitinqlər keçirilməyə başlandı.

İyulun 12-də Ermənistanın Ali Soveti Dağlıq Qarabağın Ermənistanla birləşməsi tələbi ilə Azərbaycanın Ali Sovetinə müraciət etdi. Azərbaycandan da rədd cavabı aldıqdan sonra Vilayət Soveti Dağlıq Qarabağın Azərbaycandan ayrılıb Ermənistanla birləşməsi haqqında qərar qəbul etdi.

İyulun 18-də SSRİ Ali Sovetinin Rəyasət heyəti Dağlıq Qarabağ Vilayət Sovetinin yersiz qərarını ləğv etməklə Dağlıq Qarabağın Azərbaycan tərkibində olmasını bir daha təsdiq etdi və həmin respublikalarda və Dağlıq Qarabağda bu sahədə görüləcək işləri səhmana salmaq üçün A.İ.Volskini Dağlıq Qarabağa göndərdi."

Azərbaycan tərəfi sayıqlığı itirdi, Qorbaçova inandı.

1989-cu ilin yanvar ayında Qorbaçov Dağlıq Qarabağda xüsusu idarəçilik forması yaratdı və ona rəhbərliyi öz adamı A.Volskiyə həvalə etdi. Belə bir idarəçilik fomasının yaradılmasının əsas məqsədi Dağlıq Qarabağı Azərbaycanın



iqtisadi zonasından ayırıb Ermənistana vermək idi. A.Volskiy Dağlıq Qarabağa gəldiyi ilk gündən ermənipərəst mövqe tutdu. «День» qəzeti Qarabağ mövzusuna toxunaraq yazırdı: "Qorbaçovun A.Volskiyə olan xüsusi etibarını onu Dağlıq Qarabağa göndərməkdə görmək olar. "Qarabağ" yenidənqurmanın, Sovet dövlətinin dağıdılmasının, "mafiozimin", bugünkü və gələcək faciələrin sinonimidir. Onun da əsasını əvvəlcədən planlaşdırılmış xristian-müsəlman, slavyan-müsəlman ədavəti təşkil edır. Arkadiy İvanoviç Qorbaçovun şəxsi nümayəndəsi kimi bu faciələrin daxilində idi. Volskinin Azərbaycana qarşı nifrəti onun Dağlıq Qarabağın bütün sənayesinin Ermənistana yönəltməklə Azərbaycanın iqtisadiyyatından ayırmaq məqsədi daşıdığını başa düşmək lazımdır. Bundan sonra o, Dağlıq Qarabağın təchizatını da Moskvaya caladı. Bununla da Volskiy Dağlıq Qarabağı xüsusiləşdirib tamamilə Azərbaycandan ayırdı və SSRİ DİN Daxili qoşunlarını Qarabağda yerləşdirməklə fasiləsiz tökülən günahsız qanı artırdı.

Nə üçün Arkadiy İvanoviç sərhədlərin bölünməsi kimi incə məsələdə erməni tərəfinə üstünlük verdi? Çünki, Qorbaçovun mövqeyi belə idi." ("День", 23-29 avqust 1992 il). Çünki Ter-Petrosyan da bunu tələb edirdi.

Volskiy faktiki olaraq Qarabağda Şahnəzərov, Aqanbekyan, Sitaryan, Bonner-Əlixanyan, Staravoytova və başqa ermənipərəst "xadimlərin, o cümlədən ermənilərdən bahalı hədiyyələr almış Raisa Maksimovna tərəfindən əsası qoyulan Qorbaçovun siyasətini həyata keçirirdi. V.İlyuxin yazırdı ki, belə bir idarəçilik yaranmış ixtilafı həlledilməz etdi. Dağlıq Qarabağ Mərkəzə verilməklə məsələ birtərəfli həll olundu. Mərkəz isə onu Azərbaycana deyil, Ermənistana hədiyyə etdi.

Qorbaçov bir çox insanın xüsusi amansızlıqla qətlə yetirilməsi, bir çoxlarının ağır və az-ağır xəsarət alması, dövlət və vətəndaşların əmlaklarının xüsusi ilə külli miqdarda oğurlanması və tələf olunması cinayətlərinin təşkilatçısı idi. O, ermənilərlə müsəlmanlar arasında milli zəmində yaradılan münasibətlər, nəticəsində iki dövlət arasında yaranmış

müharibənin və 20% Azərbaycan torpaqlarının zəbt olunması cinayətlərinin təşkilatçısı idi.

Cinayətin törədilməsində təşkilatçını digər iştirakçılardan fərqləndirən cəhəti odur ki, təşkilatçı iştirakçıların səyini birləşdirir və lazım olan istiqamətə yönəldir. Ona görə də təşkilatçı cinayətdə iştirak edən digərlərinə nisbətən daha təhlükəli sayılır.

Təhrikçi başqalarında cinayətin törədilməsində inam yaratmaqla onu müəyyən cinayətin törədilməsinə yönəldir. Təhrik etmənin motivi tamah ola bilər. Qorbaçovlar ailəsində tamah aşıb-daşırdı.

Qorbaçov Ermənistanın Azərbaycana olan ərazi iddiasının qarşısını almadı, əksinə separatizmə yol verdi. Dağlıq Qarabağ Vilayət partiya komitəsini Azərbaycan Kommunist Partiyası tərkibindən ayırmaq haqqında əsassız qərar çıxardan DQVPK-n katibi Q.Poqosyana Moskva şəhərində mənzil ayırmaqla ayda 400 manat əmək haqqı verdi.

Cinayət məsuliyyətinə cəlb olunması üçün bu qədər əsaslar olduğu halda nə səbəbə Qorbaçov haqqında cinayət işi başlanmamış və onun cinayət məsuliyyətinə cəlb olunması üçün qərar verilməmişdir.

Azərbaycanin öz İlyuxini yox idimi?

Bu suallara ancaq belə cavab vermək olar: Azərbaycan prokurorluğu Qanuna xidmət etmirdi. İ.İsmayılovun həmin hadisələrdə tutduğu "obyektiv" mövqeyi ilə tanışıq. Ondan sonra Respublikanın Baş prokuroru vəzifəsinə gələnlər də qanuna deyil onları həmin vəzifəyə göndərənlərə xidmət edirdilər. Onların bircə arzuları var idisə, o da keçmiş rəhbərləri, öz azərbaycanlılarını həbs edib ləkələmək idi. Cinayət məsuliyyətinə cəlb olunmaq üçün sübutların olub-olmaması onları maraqlandırmırdı. Cinayət işinin istintaqı ilə məşğul olan müstəntiqlər mənəvi məsuliyyətlə cinayət məsuliyyəti arasındakı fərqi anlamaq istəmirdilər. Onlar mənəvi məsuliyyət daşıyan vəzifəli şəxsləri cinayət məsuliyyətinə cəlb edib həbs olunmalarına tələsirdilər.



Qısa müddətdə Azərbaycanın Baş prokuroru vəzifəsini ifa edən M.Mütəllimov əvvəllər zavodda hüquq məsləhətçisi işləmişdi. İstintaqdan tamam xəbərsiz idi.

İ.Tatiyev cinayət işi ilə tanış olmamış, bir dəfə də olsa müstəntiq Qasımovla görüşməmiş mətbuatda çıxış edərək istintaqın gedişində nöqsanlara yol verildiyindən narazılığını bildirmişdi. Müstəntiq Qasımov rəsmi raportla İ.Tatiyevə müraciət edərək vəzifəsinin nədən ibarət olmasını nəzərinə çatdırmaqla istintaqa rəhbərlik edən prokurörun müavini kimi cinayət işi ilə tanış olmalı, lazım gələrsə müstəntiqə yazılı və ya şifahi göstərişlər verməli olduğu halda mətbuat vasitəsilə istintaqın gedişindən narazı olmasını bəyan etməyin yersiz olduğunu bildirmişdir.

Müstəntiq Qasımovun yerli hakimiyyət rəhbərlərini, o cümlədən Vəzirov, Mütəllimov, Qafarova, V.Hüseynovu cinayət məsuliyyətinə cəlb etməməsi yeni təyin olunmuş prokuror müavinlərini narazı salmışdı. Ona görədə ilk gündə müstəntiq Qasımovun cinayət işinin istintaqındakı fəaliyyətinin yoxlanılması üçün komissiya yaradıldı. Komissiya tərkibinə Əzizbəyov rayon prokurorunun köməkçisi Hüseynov da salındı. (Respublika prokurorluğunun mühüm işlər müstəntiqinin işini rayon prokurorunun köməkçisi yoxlayır?!)

Komissiyanın digər bir üzvü xüsusilə mühüm işlər üzrə istintaq şöbəsinin prokuroru A.İsmayılov idi. Şöbə prokuroru kimi A.İsmayılov öz səlahiyyəti daxilində ibtidai istintaq zamanı qanunların düzgün tədbiq olunmasına nəzarət etməli, yazılı və ya şifahi göstərişlər verməli, istintaq hərəkətlərində iştirak etməli idi. Buna baxmayaraq F.İsmayılov cinayət işi başlanan gündən bir dəfə də olsa həmin işin müqəddəratı ilə tanış olmamış və buna meyl də göstərməmişdir.

Bir qayda olaraq küçədə siqaret satanın fəliyyəti yoxlanırsa onun iştirakı təmin olunur. Müstəntiq Qasımovun icraatında olan 100 cildlik cinayət işi üzrə aparılan istintaqın vəziyyətini yoxlamaq üçün cinayət işi ondan alınmışdı, özünün iştirakı isə təmin edilməmişdir. Yoxlama məxvi surətdə, Qasımovun iştirakı olmadan aparılırdı. Rəhbərliyin tapşırığına əsasən

yoxlamanın nəticəsi haqqında tərtib edilmiş arayışla da müstəntiqi tanış etmirdilər. (İstintaq materialları ilə tanış olmadan istintaqın gedişi haqqında mətbuatda çıxış etmək, Respublika prokurorluğunun işçisininin rayon prokurorluğunun işçisi tərəfindən yoxlaması həmin qərarları verən vəzifəli şəxslərin savadsızlığından irəli gəlirdi.

Yoxlamanın nəticəsi haqqında tərtib edilmiş aktda istintaq planının olmaması, istintaq briqadası tərkibində olan müstəntiqlər arasında iş bölgüsünün olmaması, E.Qafarova və V.Polyaniçkonun ifadələrinin özləri tərəfindən yazılmaları komissiya üzvlərində şübhə yaratması, müstəntiqlərin hərəsinin neçə nəfər dindirmələri haqqında geniş məlumat verilmişdi. Şöbənin rəisi S.İckəndərov, şöbənin prokuroru A.İsmayılov öz qulluq mövqeləri daxilində heç olmasa altı ay müddətində bir dəfə işin istintaqı ilə maraqlasaydılar arayışda istintaq planının və ya müstəntiqlər arasında iş bölgüsünün olmamasını yazmazdılar. Ümumiyyətlə komissiya üzvləri, istintaqdan xəbərsiz şəxslər kimi Ali Sovetin istintaq komissiyasının materialları olduğu halda əlavə istintaqın aparılmasını yersiz saymışdılar. Ali Sovetdə aparılan "istintaq" zamanı dindirilmiş şahidlər dindirilməmişdən əvvəl yalan ifadə vermək haqqında və yalan məlumata görə cinayət məsuliyyəti daşımaları haqqında xəbərdarlıq edilməmişdilər, ekspertizalar qanun tələb edildiyi qaydada keçirilməmişdir, DTN sədri Vaqif Hüseynov dindirilərkən istintaqdan xəbəri olmayanların ağlına gələn bu va ya digər sualların verilməməsi və s. aktda yazılmışdı.

Müstəntiq Qasımovun həmin cinayət işi üzrə fəaliyyəti beş gündə yoxlanılsa da, yoxlamanın nəticəsi təxminən bir aydan sonra kollegiya iclasına çıxarıldı. Tərtib olunmuş arayışa baxılarkən müstəntiq Tatıyevdən əvvəlki Respublika prokuroru müavini tərəfindən təsdiq olunmuş cinayət işi üzrə istintaq planını, briqadada olan müstəntiqlər arasında iş bölgüsünün aparılması haqqında sənədləri təqdim etdikdə və böyük həcmdə işlərin görülməsi haqqında ətraflı məlumat verdikdən sonra M.Mütəllibov nə etmək lazım olduğunu bilmədi. O,



kollegiya üzvlərinə müraciətlə: "Belə danışmamışdıq axı, sizin hamınızı işdən çıxarmaq lazımdır,". İstintaq şöbəsinin rəisi S.İsgəndərov köməyinə gəldi, təklif etdi ki, yarım saatlıq tənəffüs elan edilsin. Yarım saatlıq tənəffüs də M.Mütəllibovun köməyinə gəlmədi. 9 nəfər Kollegiya üzvündən 7 nəfəri müstəntiq Qasımovun işini bəyəndi, iki nəfər: istintaq idarəsinin rəisi S.İsgəndərov və kadrlar şöbəsinin rəisi İ.Zeynalov Qasımovu prokurorluq orqanlarından işdən kənarlaşdarmağı təklif etdilər. M.Mütəllimov, özünün dediyi kimi: "Vəzifəmdən istifadə edib Qasımova şiddətli töhmət elan edirəm".

Qəribəsi o idi ki, istintaq qrupuna daxil edilmiş 12 müstəntiqdən ancaq 4 nəfəri işləyirdi. Qalan müstəntiqlər, hərəsi bir bəhanə ilə qrupda işləməkdən boyun qaçırmışdılar. İstintaqda fəal iştirak edən DİN-nin iki müstəntiqi T.Zeynalov və A.Zahidov, "onlar prokurorluqda işləyirlər, qoy onlara əmək haqqını prokurorluq ödəsin" deyə nazir İ.Həmidov tərəfindən əmək haqlarının ödənilməsi dayandırılmışdı. Qasımovun rəhbərliyə rəsmi raportları da baxılmamış qalırdı. Kollegiya iclasında cinayət işinin istintaqı müzakirə olunanda da istintaqdan boyun qaçıran müstəntiqlər haqqında hər hansı bir qərar qəbul olunmadı. O.Qasımova isə şiddətli töhmət elan olundu. Heç özləri də bilmirdilər nə üçün.

Kollegiya iclasından bir neçə gün əvvəl Azərbaycan teleqraf agentliyinin müxbiri Azad Şərif O.Qasımovdan 20 yanvar hadisələri ilə əlaqədar müsahibə almışdı. Müsahibə "Bakıdakı yanvar faciəsinin əsas müqəssirləri" başlığı ilə dərc olunmalı idi. Lakin müsahibə nəşriyyata verilməmiş Azad Şərif tutduğu vəzifədən kənarlaşdırıldı. Müsahibə dərc olunmadı.

Azad Şərif uzun müddət "Известия" qəzetinin Türkiyə, İran və Əfqanstanda müxbir işləmiş, 10 il Az.KP MK-də mədəniyyət şöbəsinin müdiri, Komitə sədri, AzTAQ-ın sədri və b. məsul vəzifələrdə işləmişdir. Onun O.Qasımovdan aldığı müsahibə İsa Qəmbərov kimilər hakimiyyətdən gedəndən sonra işıq üzü gördü.

Məlumat üçün bildirmək istəyirik ki, 25 ildən artıq müddətdə restoranda barmen vəzifəsində işləyən İ.Zeynalov, Xalq cəbhəsi hakimiyyəti zamanı Dövlət katibi işləmiş P.Hüseynovun qohumu kimi prokurorluq orqanlarına düşmüşdü. İskəndərov isə beş il Azərbaycan Dövlət Universitetinin hüquq fakultəsində və Moskvada SSRİ Prokurorluğunun Yüksək vəzifəli kadrların ixtisaslaşdırma institutunda müstəntiq Qasımovla birgə oxumuşdur.

S.İskəndərov və İ.Zeynalovun etirazlarına baxmayaraq cinayət işinin istintaqı yenə də Qasımova tapşırıldı. Cinayət işi üzrə yoxlamanın nəticəsi Kollegiya iclasında baxılana kimi bir ay müddətində hərəkətsiz qalmışdı.

Az müddətdən sonra prokurorluğa yeni rəhbər təyin olundu. Ədliyyə marşalı (Həqiqi dövlət ədliyyə müşaviri) rütbəsilə Azərbaycanın baş prokuroru təyin olumuş İxtiyar Şirinov üçüncü iş günündə müstəntiq Qasımovu kabinetinə dəvət edib cinayət işi üzrə istintaq planını tələb etmişdir. Qasımov altı vərəqədən ibarət istintaq planını İ.Şirinova təqdim edib ikinci mərtəbədən altıncı mərtəbəyə qalxana kimi onun prokurorluq orqanlarından "Xidməti vəzifəsinin yerinə yetirilməsində pozğunluqlara yol verdiyinə görə tutduğu vəzifədən azad edilməsi və prokurorluq orqanlarından xaric olunması" haqqında əmr verilmişdir.

Oqtay Qasımov 33 il prokurorluq orqanlarında işləmişdir. Ağır cinayətlərin açılmasında, müqəssirlərin ifşa olunmasında göstərdiyi fədakar əməyə görə SSRİ Baş prokurorunun əmri ilə on dəfə qiymətli hədiyyələrlə mükafatlanmışdır, iki dəfə növbədən kənar rütbə dərəcəsi artırılmışdır, istintaqında iştirak etdiyi təyyarə qəzası ilə bağlı olan cinayət işi keçmiş SSRİ miqyasında dərslik kimi buraxılmışdır, yeganə müstəntiq idi ki, onun istintaq ediyi iki cinayət işi Moskvada çıxan "Следственная практика" jurnalında dərc olunmuşdur. SSRİ Baş prokurorunun çıxışında Azərbaycanda cinayət işlərinin istintaq vəziyyəti qənaətbəxş sayılmadığı halda O.Qasımovun adı SSRİ-nin ən yaxşı müstəntiqləri sırasında çəkilmişdir. O, yaxşı müstəntiqlərin Ümumittifaq konfransına nümayəndə



seçilmişdir. SSRİ Baş Prokurorluqu və SSRİ inzibati orqanlar Həmkarlar təşkilatının fəxri fərmanl ilə mükafatlanmışdır.

İxtiyar Şirinov isə kolxoz sədrinin oğlu idi. O, dövlət qanunlarına Kolxoz nizamnaməsi çərçivəsində baxırdı. O, heç "pozuntusuna yol verilmiş qanunların" nədən ibarət olmasını da bilmirdi. Şirinovun kadrlarına rəhbərlik edən də restoran işini yaxşı bilirdi. İstintaqdan və qanunların düzgün icra olunmasından xəbərsiz idi.

Bu həmin Şirinov idi ki, prokuror kimi məhkəmədə ittihamı müdafiə etdikdə yekəxanalığına görə müttəhim tərəfindən təhqir olunmuşdur. Ona görə də müttəhimə qanunda nəzərdə tutulan müddətdən artıq cəza tədbiq edilməsini tələb etmişdir. Məhkəmə müşavirə otağında hökm çıxaran zaman Şirinov Azərbaycan Respublikası prokurorluğunda şöbə rəisi işləyən dayısına telefonla zəng edib "alovlu" çıxışı haqqında məlumat verir. Dayı ilə danışıqdan sonra səhvini başa düşən Şirinov yenidən ittiham nitqi söyləmək üçün yanğınsöndürən maşının nərdivanı ilə ikinci mərtəbədə yerləşən hakimin müşavirə otağına daxil olmaq istəyir. Hakim müşavirədə olduğundan onu müşavirə otağına buraxmırlar. Belə bir yaramaz hərəkətinə görə, yenə də dayının hesabına yüngül cəzalanmışdı.

Bu həmin Şirinov idi ki, cibində Kommunist partiyası bileti gəzdirdikdə Xalq cəbhəsinə qoşulmuşdu. Xalq cəbhəsi sıralarında yüksək vəzifəyə sahib olduqda "Müsavata" üz tutdu. Oradan da Şirinovu kənara tullayanda yeni partiya yaradıb onun baş katibi oldu.

Bu həmin İxtiyar Şirinov idi ki, Gəncə şəhərində qiyam qaldırmış Surət Hüseynovu həbs etmək üçün oraya getmiş, lakin özu qiyamçı tərəfindən həbsə alınmışdır. Necə deyərlər: "qaş düzəldən yerdə gözünü də itirmişdi".

Həbsdə olan Respublikanın Baş prokuroru öz vəziyyətini yüngülləşdirmək üçün cinayət işi başlanmadan ona "marşal" rütbəsi verən Prezidentinin həbs olunmasına sanksiya vermişdir. Şirinovun aləmində Prezident Elçibəyin həbs olunmasına sanksiya verməklə böyük bir faciənin qarşısı

alınmışdır. Guya bununla da dünyada sülhün bərpa olunmasına nail olmuşdur.

İxtiyar Şirinov həbsə alınandan bir-neçə gün sonra Oqtay Qasımov yenidən prokurorluq orqanlarına, mühüm işlər üzrə baş müstəntiq vəzifəsinə işə qaytarıldı və Şirinov haqqında başlanmış cinayət işinin istintaq qrupuna daxil edildi. Lakin Qasımov bundan imtina etdi və prokurorluq orqanlarından işdən çıxmaq arzusunda olduğunu bildirdi. O, öz ərizəsi ilə tutduğu vəzifədən pensiyaya çıxdı. Şirinov kimilərin hakimiyyətdə olduğu zaman onlarla qanun çərçivəsində danışmaq, öz hüquqlarını qanunla müdafiə etmək samanlıqda iynə axtarmaq kimi bir şey idi.

Zənnimizcə göstərilən özbaşnalıqlar həmin cinayət işinin istintaqı ilə məşğul olan prokurorluq işçilərinin savadsızlığından, səriştəsizliyindən və hakimiyyətdə olan vəzifəli şəxslərə xidmət göstərmək cəhdindən irəli gəlirdi. Belə ki, respublikanın baş prokuroru vəzifəsinə təyin olunan Şirinov cinayət işi ilə tanış olmamış müstəntiqi işdən və prokurorluq orqanlarından xaric etməsi buna bariz sübutdur.

Cinayət işinin istintaqı ilə məşğul olan müstəntiqlər obyektiv sübutlar axtarmaq, onları araşdırmaq əvəzinə hakimiyyətdə olan vəzifəli şəxslərə xidmət edib, onlardan əvvəl hakimiyyətdə olanlara qarşı sübutlar toplamaqdan başqa qeyri işlərlə məşğul olmurdular. Onlar hətta heç bir çərçivəyə sığmayan absurd qərarlar verirdilər.

Ə.Vəzirov, E.Qafarova və A.Mütəllimova qarşı irəli sürülən ittiham ondan ibarət idi ki, onlar SSRİ DİN Daxili qoşunlarının Bakıya gəlmələrinə razılıq vermiş və Ermənistandan qaçqın düşmüş azərbaycanlıları Dağlıq Qarabağda yerləşdirilməli olduqları halda onları başqa yerlərdə məskunlaşdırmışlar.

Qaçqınları Dağlıq Qarabağda deyil başqa rayonlarda yerləşdirməklə hansı qanunlar pozulmuşdur? Dağlıq Qarabağda yerləşdirilməli olan qaçqınların müdafiəsinə kim qarant durmuşdur. Kim qarant ola bilərdi ki, onlar Qarabağda yerləşdirilsəydilər onların başına Xocalı faciəsi gələ bilməzdi. Yüz mindən artıq qarabağlını bir günün ərzində rus



hərbçilərinin gücü ilə Qarabağdan köçürən hərbçilər üçün Ermənistan qaçqınlarını qırğına vermək çətin idimi?

Ermənistandan qaçan insanlar Dağlıq Qarabağda qırılsaydı Vəzirov, Qafarova və Mütəllibova onların qırılmasına görə ittiham verilməzdimi?

O ki, qaldı Daxili qoşunların Bakıya soxulmasına, o, hələ istintaq başlanmamışdan əvvəl məlum idi ki, qoşunun Bakıya girməsini Qorbaçov təkbaşına həll etmişdi. A.Mütəllimov və A.Rasizadənin Moskvaya müraciətindən xeyli əvvəl Bakıda on minə yaxın Daxili qoşunların əsgəri var idi. Bu haqda E.Qafarova yanvarın 20-də gecə yarısı radio ilə çıxışında elan etmişdi.

Ayrılıqda götürdükdə Daxili qoşunların Bakıya dəvət olunması, əgər onlar insanları güllələmək üçün çağırılmayıblarsa cinayət sayılmır. Daxili qoşunlar həqiqətən bu məqsədlə çağırılmamışdır. Onların Azərbaycana çağırmalarının bircə məqsədi var idisə, o da əmin-amanlığı təmin etmək, hakimiyyəti əldə saxlamaq və erməni təcavüzündən yaxa qurtarmaq idi. Daxili qoşunlar isə əvvəl hadisələrə qıraqdan tamaşa etməklə kifayətləndilər, fövqəladə vəziyyət elan olunduqdan sonra dinc insanlara qarşı vəhşilik törətdilər. Belə bir vəziyyətdə E.Qafarovanın, xəstə qadının cinayət işində dindirmə protokolu olduğu halda yenidən prokurorluğa çağırıb saatlarla kabinetdə saxlamaq, ona xox gəlib DTK-nin sədri Vaqif Hüseynovun yanına, Bayıl həbsxanasına göndərməklə hədələmək kimə lazım idi? Heç bir əsas olmadan, rəhbərliyin xoşuna gəlsin deyə, cavan general Vaqif Hüseynovu həbsə alıb 9 aya kimi həbsdə saxladılar. Onun həbs olunmasını tələb edən istintaq şöbəsinin rəisi S.İsgəndərov V.Hüseynovun həbsdən azad olunmasının labüd olmasını "dərk" edəndən sonra raportla rəhbərliyə müraciət edib onu həbsdən azad olunmasını tələb etmək kimə lazım idi? SSRİ məkanında Azərbaycanda 5-6 nəfər general var idi. Bu gün hər nazirlikdə 8-10 general var. Nəticəsi nə oldu? V.Hüseynovun qəlbində prokurorun nankor işçilərinə qarşı nifrətdən başqa heçnə qalmadı. Onu həbsə alan

müstəntiq inanıram ki, ondan üzr də istəməmişdir. Tutduğu vəzifədən öz karyerası naminə sui-istifadə edən şəxsdə gözlənilən "üzür istəmək" mədəniyyəti ola bilməz.

Qısa müddətdən sonra Elmira Qafarova dünyasını dəyişdi. Onun ölümünün tezlənməsi müstəntiqin onu həbs etməklə hədələməsi qorxusu deyil, nadan müstəntiqlə rastlaşması ilə bağlıdır.

Respublikanı parçalayıb "Talış-Muğan respublikası yaratmaq istədiyinə görə Əlikrəm Hümbətov cinayət məsuliyyətinə cəlb edildi və Azərbaycan Respublikasının Ali məhkəməsinin hökmünə əsasən ömürlük həbs cəzasına məhkum edildi.

Ermənistanın keçmiş və hazırkı prezidenti R.Koçaryan və S.Sarkisyan faktiki olaraq Dağlıq Qarabağın vətəndaşlarıdırlar. Dağlıq Qarabağ isə Azərbaycan torpağıdır. Onları Azərbaycan vətəndaşlığından məhrum etməmişlər. Koçaryan da, Sarkisyan da Azərbaycan xalqına qarşı ağır cinayətlər törətmişlər. Onlar Dağlıq Qarabağın Azərbaycandan ayrılmasında, azərbaycanlıların Dağlıq Qarabağdan qovulmasında iştirak etmiş, bandit qruplaşmaların üzvü olmuş, azərbaycanlıların qətlə yetirilməsində aktiv iştirak etmişlər. Ermənistan Respublikasının prezidenti seçildikdən sonra də öz cinayətkar əməllərindən əl çəkməmişlər.

Azərbaycan Respublikası prokurorluğu Koçaryan və Sarkisyanın haqqında materialları toplayıb onların cinayət məsuliyyətinə cəlb olunması haqqında qərar çıxarmalı və qərarın icra olunması "İnterpol" vasitəsi ilə həyata keçirməli idi. ("İnterpol" Azərbaycanın Koçaryan və Sarkisyan haqqında qərarları təmin etməsə də, pədd də edə bilməz, çünki onların törətdikləri cunayətlər sübütdur). Avropa şurasının Minsk qrupu 20 ildən artıqdır ki, onlarla bir masa arxasında oturub Azərbaycan torpaqlarının nə vaxt azad olunması haqqında nəticəsi olmayan danışıqlar aparır.

BMT Baş Assambleyası Azərbaycan torpaqlarının Ermənistan tərəfindən zəbt olunması məsələsini dörd dəfə müzakirə etmiş və dörd dəfə Ermənistan tərəfinin hərəkətini



pisləmiş və zəbt olunmuş torpaqların dərhal azad olunması haqqında qərar çıxarmışdır. BMT Baş Assambleyasının qərarlarını yerinə yetirməyən Ermənistan tərəfindən nə gözləmək olar?

Balaca bir ölkə olan Ermənistan Rusiyanın silahına güvənib Azərbaycan kimi zəngin ölkəyə meydan oxuyur.

Rusiya Federasiyasının Dövlət Dumasının deputatı L.Roxlinin Dumanın iclasında söylədiyi çıxışın bir hissəsini oxuculara təqdim etmək istəyirik. Zənn edirik ki, L.Roxlinin çıxışı oxucu üçün də maraqlı olar:

-Zaqafqaziya ölkələrini silahla təmin olunması siyasəti olduqca qorxuludur. Bu siyasət Zaqafqaziya ölkələri arasında konfliktin yaranmasına səbəb ola bilər. Süni olaraq bir dövlətin digər dövlətin üzərində silah üstünlüyü müəyyən siyasi qüvvələrin onları yaranmış problemləri silah gücünə həll olunmasına gətirib çıxara bilər. Rusiya, Azərbaycan və Ermənistan bir ölkənin parçalanmış hissələridir. Bu ölkələrin hər birində dost, qohum və yaxınlar adamlar yaşaya bilər. Ona görə də həmin ölkələrin gizli surətdə silahla təmin olunmalarının əleyhinəyəm.

1993-1996-cı illərdə Rusiya Ermənistana külli miqdarda silah vermişdir:

8 ədəd R-17 raket komplekti,
27 ədəd zenit-raket komplekti 349 raketlə birlikdə,
40 ədəd "Osa" zenit komplekti,
84 tank "T-74" və 50 BMP,
Ayrı-ayrı kalibrli 72 qaubitsa,
40 ədəd raket komplekti "İqla".
26 minomyot və 7910 avtomat,
306 pulyemyot və 1847 pistolet,
227.253.000 atıcı silahlara patronlar,
Tank, BMP-1, top və qaubitsalar üçün 500 min mərmi,
345.800 ədəd əl qumbarası.

Bundan əlavə 1992-1994-cü illərdə Rusiya Ermənistana 9.5 min raket silahları, 600 vaqon hərbi sursat, 64.2 min tonn

yanacaq və bir milyard amerika dolları həcmində başqa silahlar vermişdir.

Müdafiə nazirliyi Baş qərargahının 26 fevral 1996-cı il tarixli 316/3/048 və 20 iyul 1996-cı il tarixli 503/ 23-26 saylı direktivlərinə uyğun olaraq Ermənistan tərəfi əlavə olaraq silahlarla təmin olunmuşdur.

1992-ci ilin avqust ayından 1994-cü ilin yanvar ayına kimi Mozdokdan Yerevana "İl-76" təyyarəsi ilə 66 reys, "AN-12" təyyarəsi ilə iki reysdə 1300 tonn hərbi sursat göndərilmişdir.

Ermənistana verilmiş 24 ədəd "R-17" raket komplekti Bakı şəhərini bombalamaq və yerlə yeksən etmək üçün idi. Hətta onlardan düzgün istifadə etmək üçün erməni mütəxəssisləri mayın 23-dən iyunın 19-a kimi Kapustin-Yarda təlim keçmişlər.

Bütün bu dəhşətli rəqəmləri Dövlət dumasında açıqlayan general Lev Roxlin mənzilində, yataq otağında güllələndi.

Baş vermiş faciənin qarşısını almaq mümkün idimi? Bu suala özümüz "əgər" ilə cavab tapırıq.

-Əgər dövlət başçısı Qorbaçov olmasaydı. Onun ətrafında toplanmış, təsadüfi mərkəzi orqanlarda yuva salmış yazovlar, bakatinlər, volskilər, aqanbekyanlar, starovoytovalar və ohlara oxşarlar olmasaydı.

-Əgər "İslam" və "Xristian" faktoru olmasaydı. Qorbaçov Kaputikyan və Babayanı qəbul etdikdən sonra İslamın Xristianlığa qarşı hücumu haqqında məlumatı olmasaydı. Onların fikrincə İslamın Xristianlığa qarşı hücumunu dayandırmaq üçün İslam dininə inananların qanı tökülməlidir.

- Əgər SİTA-nın Azərbaycanda rus milliyyətindən olanlara qarşı mənfi münasibəti haqqında yalan məlumatları olmasaydı. Guya azərbaycanlılar rusları öldürür, döyür, respublikadan qovurlar.

- Əgər SSRİ Nazirlər Kabineti Ermənistandan qovulan azərbaycanlı qaçqınlar üçün vəsait ayırmadığı halda Azərbaycandan gedənlər üçün yarım milyon rubl ayırmasaydı. Bakıdan gedən bəzi "qaçqınlar" bir neçə dəfə həmin vəsaitdən bəhrələnmişdilər.



Bakı şəhərində yaşayan rus millətindən olanlar nə cür yaşayırdılarsa elə də yaşayırlar. Rus millətindən olan qızlar bu gün də gələcək həyatlarını azərbaycanlılarla bağlayıb ailə qururlar.

Bakının küçələrində bir çox azərbaycanlıların öz aralarında rus dilində danışmaqlarına rast gəlmək olar. Yerevanda rus dilində verilən suala cavab da almaq mümkün deyildir.

Əlinizdə tutduğunuz kitabın müəlliflərindən biri BDU-nun hüquq fakültəsində rus dilində mühazirə oxuyur.

Bakı şəhərində bu gün də 30 mindən artıq erməni millətindən olan qadın yaşayır. Onlar azərbaycanlılarla ailə həyatı qurmuş və mehriban yaşayırlar.

Bakıda bir neçə provoslav kilsə fəaliyyət göstərir.

- Əgər həmin günlərdə Bakı şəhərində olan Daxili qoşunlar qanun pozuntularının qarşısının alınmasında üzərilərinə düşən vəzifəni həyata keçirsəydilər.

Əgər Xalq cəbhəsi hakimiyyəti ələ almağa tələsməsəydi və bunun üçün zor işlətməsəydi, magistral yolları blokadaya almaq, fabrik və zavodlarda, idarə və təşkilatlarda işi dayandırmaq nə üçün idi və kimə lazım idi? Həyat göstərdi ki, avtomaşınlarla ağır tankların qarşısını almaq ağılsızlıqdır. Hakimiyyəti zorla ələ almaq asandır. Onu saxlamaq lazım idi. Həyat göstərdi ki, Xalq çəbhəsinin liderlərii hakimiyyəti idarə etməyə qadir deyildilər. Onlar ancaq mitinqlər keçirmək qabiliyyətinə malik idilər. Hay-küylə: "Biz həmişəlik hakimiyyətə gəlmişik", - deyə hər yerdə qışqırsalar da, hakimiyyəti saxlaya bilmədilər. Hanı Etibar, hanı Pənah, hanı İsa, hanı Nemət, hanı Rəhim, hanı İsgəndər? Bu şəxslər nə cür var idilərsə, kölgədə sürünən, lakin iştahaları geniş, yüksək vəzifə tutmaqla dağıdıcı işlər görməkdən başqa heç bir iş bacarmayan kimi də qalıblar. Daxili işlər naziri İsgəndər Həmidovun telestudiyada müxbirə əl qaldırmagı yəqin oxucuların yadındadır. Bu azdır deyə hələ mətbuatda da çıxış edib elan etdi ki, Ağamalı Sadiqdən başqa "Müxalifət" qəzetinin bütün əməkdaşlarını heyvan kimi döyəcəyəm. Jurnalistləri döymüşəm, lazım olsa yenə də

döyəcəyəm.("Müxalifət" 5.01.1993 il). Bu, o dövrün nazirinin mədəni səviyyəsi idi.

O qədər "əgər" var ki...

